# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK

## III BEYNƏLXALQ ELMİ KONFRANS

## XÜLASƏLƏR

---

# WORLD AZERBAIJANIS: HISTORY AND MODERNITY

## INTERNATIONAL SCIENTIFIC CONFERENCE

## ABSTRACTS

**BAKI – 2018**

**Dünya azərbaycanlıları: tarix və müasirlik**.
III Beynəlxalq elmi konfransın xülasələri.
Bakı, "Turxan" NPB, 2018, - 128 səh.

***Ünvan:*** Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, III tədris binası, 10-cu mərtəbə, 1007-ci otaq
***Əlaqə:***012-537-04-61; dunya.azerbaycanlilari.etl@gmail.com

**QEYD:** Konfransın materiallarında istifadə edərkən istinad zəruridir.

© Bakı Dövlət Universiteti, 2018

**Təşkilatçı qurumlar:**
Bakı Dövlət Universiteti
Azərbaycan Respublikası Diasporla iş üzrə Dövlət Komitəsi
Azərbaycan Tarix Qurumu
Dünya Türk Gənclər Birliyi

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

## TƏŞKİLATÇI HEYƏT

| | |
|---|---|
| **İradə Əliyeva** | BDU, Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, professor- **sədr** |
| **Aydın Kazımzadə** | BDU, Elm və innovasiyalar üzrə prorektor, AMEA-nın müxbir üzvü |
| **Sani Hacıyev** | BDU, Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor, professor |
| **Azad Rzayev** | BDU, Tarix fakültəsinin dekanı, dosent |
| **İzzət Əfəndiyeva** | BDU, Elmi tədqiqat hissəsinin müdiri, f.e.d. |
| **Anar İsgəndərov** | BDU, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor |
| **Mehman Abdullayev** | BDU, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent |
| **Arzu Məmmədova** | BDU, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası, dosent - **məsul katib** |
| **Tofiq Mustafazadə** | AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan Tarix Qurumunun sədri, professor |
| **İradə Məmmədova** | AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan Tarix Qurumu sədrinin müavini, dosent |

| | |
|---|---|
| **Fuad Muradov** | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri, k.f.d. |
| **Aqil Əsədov** | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin "Təbliğat, informasiya və analitik təhlil" şöbəsinin müdiri, dosent |
| **Daşqın Rəcəbli** | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri,s.f.d. |
| **Əkrəm Abdullayev** | Dünya Türk Gəncləri Birliyinin sədri |
| **Elvira Lətifova** | BDU, Qədim dünya və orta əsrlər tarixi kafedrası, dosent |
| **Səidə Quliyeva** | BDU, Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-i, dosent |
| **Gövhər Rizayeva** | BDU, Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-i, dosent |
| **Ulduz Paşayeva** | BDU, Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-i, böyük elmi işçi |
| **Asəf Hacıyev** | BDU, Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-i, t.f.d. |
| **Zəhra İslamova** | BDU, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası, t.f.d. |
| **Rəna Hüseynova** | BDU, Azərbaycanın maddi- mədəniyyət tarixi ETL-i, böyük elmi işçi |
| **Leyla Vaqif qızı** | BDU, Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-i, t.f.d. |

## ELMİ HEYƏT



| | |
|---|---|
| **AMEA-nın həqiqi üzvü Yaqub Mahmudov** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Aleksandr Nesterov** | Ural Federal Universiteti, Rusiya |
| **prof.Cəmilə Rüstəmova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Əmrah Dadaşov** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Əsməd Muxtarova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Fərhad Turanlı** | Kyivo-Mohılyanska Akademiyası Milli Universiteti, Ukrayna |
| **prof.Hatice Erdemir** | Calal Bayar Universiteti, Türkiyə |
| **prof.İbrahim Zeynalov** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.İradə Hüseynova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Qabil Əliyev** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Qüdrət İsmayılzadə** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Lətifə Həsənova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Mehmet Serhat Yılmaz** | Kastamonu Universiteti, Türkiyə |
| **prof.Məmməd Fətəliyev** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Okan Yeşilot** | Mərmərə Universiteti, Türkiyə |
| **prof.Sevda Süleymanova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **prof.Şahin Fərzəliyev** | AMEA Tarix İnstitutu, Azərbaycan |
| **prof.Tarix Dostiyev** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **f.e.d.Lütviyyə Əsgərzadə** | AMEA Ədəbiyyat İnstitutu, Azərbaycan |
| **f.e.d.Vüqar Əliyev** | Bakı Dövlət Universiteti, Azərbaycan |

| | |
|---|---|
| **s.e.d.Hatəm Cabbarlı** | Qərbi Kaspi Universiteti,Azərbaycan |
| **dos.Abutalıb Cəlilov** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Aqil Əsədov** | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi |
| **dos.Atamoğlan Məmmədli** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Boran Əziz** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Etibar Talıblı** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Firdovsiyyə Əhmədova** | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası |
| **dos.İqbal Ağayev** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.İlqar Niftəliyev** | AMEA Tarix İnstitutu, Azərbaycan |
| **dos.Qənirə Pirquliyeva** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Qiyas Şükürov** | Bozok Universiteti, Türkiyə |
| **dos.Leyla Hüseynova** | AMEA Tarix İnstitutu, Azərbaycan |
| **dos.Məhəmməd Məmmədov** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Mətanət Məmmədova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Namiq Musalı** | Kastamonu Universiteti, Türkiyə |
| **dos.Nərminə Əmirbəyova** | AMEA Tarix İnstitutu, Azərbaycan |
| **dos.Nigora Allayeva** | Özbəkistan Elmlər Akademiyası, Tarix İnstitutu |
| **dos.Rəsul Hüseynli** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Sevda İsmayılova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Sevinc Qasımova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Sevinc Ruintən** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Səidə Əli qızı** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **dos.Yeganə Çağlayan** | Alparslan Universiteti,Türkiyə |
| **dos.dr. Hikmət Dəmirçi** | Kahramanmaraş Sütçü İmam Universiteti, Türkiyə |
| **f.e.n. Patimat Əlibəyova** | EA, Q.Sadası adına Dagıstan Elmi Mərkəzi, Dil, Ədəbiyyat və Mədəniyyət |

| | |
|---|---|
| | İnstitutu, Rusiya |
| **dr.Mehmet Eyup Tütünçü** | Research centre for Turkistan and Azerbaijan, Niderland |
| **phd. Şəhla Kazımova** | Varşava Universiteti, Polşa |
| **phd.Əbdülqadir İnaltəkin** | Humbolt Universiteti, Almaniya |
| **t.e.n.Natalya Zub (Rudenko)** | UMEA, A.E.Krımski adına Şərqşünaslıq İnstitutu, Ukrayna |
| **t.e.n.Oksana Vasilyuk** | UMEA, A.E.Krımski adına Şərqşünaslıq İnstitutu, Ukrayna |
| **t.e.n.Pilipçuk Yaroslav** | UMEA., A.E.Krımski adına Şərqşünaslıq İnstitutu, Ukrayna |
| **t.e.n.Şərəfəddin Məhərrəmov** | RFEA, Q.Sadası adına Dagıstan Elmi Mərkəzi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu, Rusiya |
| **t.f.d.Aynurə Məmmədova** | Bakı Dövlət Universiteti, Azərbaycan |
| **t.f.d.Ziyad Əmrahov** | AMEA Qafqazşünaslıq İnstitutu, Azərbaycan |

## MÜNDƏRİCAT

**Anar İsgəndərov**
*Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə yeri .... 16*
**Arzu Məmmədova**
*XIX əsrdə Rusiyanın Cənubi Qafqazda dini siyasəti və onun işğal prosesinə təsiri ........................................................... 17*
**Almas Cavadova**
*Azərbaycan XVIII əsrin əvvəllərində........................................... 18*
**Anar İsmayılov**
*1920-ci illərdə Azərbaycan–Türkiyə münasibətləri sovet dövrü Azərbaycan tarixşünaslığında .................................... 19*
**Asəf Hacıyev**
*Dərbənd əhalisinin say dinamikası (sovet hakimiyyəti dövrü)ş.......................................................... 20*
**Atamoğlan Məmmədli**
*İran –Rusiya münasibətlərinin Azərbaycana təsiri (1991-2000-ci illər)....................................................................... 22*
**Aybəniz Paşayeva**
*Azərbaycanın milli dövlətçiliyinin qurulmasında Heydər Əliyevin rolu.................................................................. 23*
**Aydan Həmidova**
*Fətəli Xan Xoyski....................................................................... 24*
**Aygün İsmayılova**
*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində Milli azlıq fraksiyası.................................................................. 25*
**Aytac Bədəlova**
*Paris Sülh Konfransı nümayəndə heyətinin mühacirət fəaliyyəti.................................................................... 27*
**Aytac Cabbarova**
*Müstəqillik illərində azərbaycançılıq ideologiyasında Cənubi Azərbaycan məsələsi ......................................................... 28*
**Aytən Muşkiyeva**
*Bəkir Çobanzadə və ədəbiyyat tarixçiliyi problemləri.......................................................................... 29*

**Billurə Qurbanzadə**
*Azərbaycan Xalq Cümhuriyyəti dövrü 1920-30-cu illər sovet tarixçilərinin əsərlərində............................................................. 30*
**Cavid Bağırzadə**
*Azərbaycan istiqlalı tarixi sınaq qarşısında – Azərbaycan Cümhuriyyətinin Gəncə dövrünün bəzi məqamları haqqında.................................................................................... 31*
**Elmira Hacıyeva**
*Azərbaycan sözünün mənşəyi və müxtəlif dövrlərdə ifadə etdiyi məna.......................................................................... 32*
**Elşən Abdurahmanov**
*Qafqaz Albaniyasının Şəki vilayətinin ilk orta əsr xristian məbədləri.................................................................... 33*
**Elşən Aslanov**
*Mühacir ədəbiyyatımızda Bakı Xalq Komissarları Sovetinin tarixi....................................................................... 34*
**Elvira Lətifova**
*XVI əsrin ikinci yarısında Səfəvilər dövlətinin Qafqaz siyasətində Azərbaycanın Şimal-Qərb torpaqları......................... 36*
**Eynulla Mədətli**
*Heydər Əliyev irsində azərbaycançılıq məfkurəsi........................ 37*
**Əmanət Əsədova; Adil Abdullayev**
*Azərbaycanda tarixi etno-siyasi proseslərin öyrənilməsində "Kitabi-Dədə Qorqud" dastanının rolu............... 38*
**Fərhad Turanlı**
*Azərbaycan diasporasının Ukrayna təhsil və elminin inkişafında göstərdikləri fəaliyyətlər........................................... 39*
**Fəridə Mirişova**
*Cümhuriyyət illərində musiqi mədəniyyəti.................................. 40*
**Firdovsiyyə Əhmədova**
*Sovet Rusiyasının Azərbaycana münasibətdə "müstəqillik" şüarından faydalanması ................................................................. 41*
**Fuad Mürsəlli**
*Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəbləri.............. 42*

**Gülbəniz Babayeva**
*"Molla Nəsrəddin" jurnalı və Xalq Cümhuriyyəti* ........................ 44
**Gülnar Təhməzli**
*Azərbaycan Respublikasının müstəqillik illərində neft və qaz siyasəti* ........................ 45
**Günay Məmmədova**
*Azərbaycan Respublikasi müstəqillik illərində: region mətbuatının inkişaf* ........................ 46
**Günel Rəhimli**
*Qızılbaş ideologiyasının tərəfdarı olan tayfalar* ........................ 47
**Hicran Mahmudova**
*Süleyman bəy (Məmməd bəy) Sulkevic və Azərbaycan Xalq Cümhuriyyəti* ........................ 48
**Xəyalə Novruzova**
*Rusiya Federasiyasının xarici siyasətində Azərbaycan (1991-2018-ci illər)* ........................ 49
**Xoşqədəm İslamova; Sevil Heydərova**
*XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikasında siyasi böhranın dərinləşməsi və vətəndaş qarşıdurmasının güclənməsi* ........................ 50
**İlahə Xantəmirova**
*Azərbaycanlıların mühacırətdə nəşr etdikləri bir neçə dərgi haqqında: "milli ateş", "yasamız", "ilham kaynağı", "millet andı", "mukaddes odlar ülkesi" dergileri* ........................ 52
**İlkin Qulusoy; Könül Quliyeva**
*İsmayıl Şıxlının "Ölən dünyam" romanında Cümhuriyyət dönəmi azadlıq mücadiləsinin bədii ifadəsi* ........................ 53
**İlqar Niftəliyev**
*1918-1919-cu illərdə Ermənistan-Azərbaycan ərazi münaqişəsində Böyük Britaniyanın siyasəti* ........................ 54
**İradə Məmmədova**
*1831-ci il kameral təsvirinə görə İrəvan şəhərinin sərhədləri, ərazisi və əhalisi* ........................ 56
**İsa Hüseynov**
*Müasir dövrdə Azərbaycan və Türk diaspor təşkilatlarının*

*birgə fəaliyyəti* ........................................................................ 57
**İsmayıl Tanrıverdi**
*XX əsrin ikinci yarısında Ermənistanda kadr siyasəti* .................. 59
**Kəmalə Məmmədova**
*II Dünya müharibəsi zamanı Qafqaz müsəlmanları legionunun formalaşmasında mühacirlərin fəaliyyəti* ................. 60
**Qənirə Pirquliyeva**
*Müstəqillik dönəmlərində azərbaycançılıq ideologiyasının numizmatik materiallarda əksi* ............................ 61
**Qərənfil Xəlilova**
*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında siyasi məktəbin rolu* .................................................................... 62
**Qızyetər Əhmədzadə**
*Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsilin ali pilləsinə dair* .................................................................... 63
**Lalə Əfəndiyeva**
*Müasir Azərbaycan dili və nitq mədəniyyəti məsələləri* ............... 65
**Leyla Hüseynova**
*Heydər Əliyev irsində azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət* ......... 66
**Leyla Vaqif qızı**
*Avropa İttifaqının Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə mövqeyinə dair* ........................... 67
**Lütviyyə Əsgərzadə**
*Cümhuriyyətin 100 ilində: Hüseyn Cavid Məhəmməd Əmin Rəsulzadə təhlillərində* .................................... 68
**Mehman Abdullayev**
*Qarabağ xanlığında ali zümrə* ...................................................... 70
**Mətanət Məmmədova**
*Azərbaycan Respublikasında müstəqillik illərində təhsil* .................................................................................... 71
**Murad Əsədov**
*Cənubi Qafqazda erməni iddiaları yeni etnik münaqişənin qaynağıdır (Dağlıq Qarabağ Samsheti-Cavaxetiya münaqişələri paralelində)* .......................................................... 72

**Namiq Kamal İldırım**
*Dünya azerbaycanlıları medya, iletişim ve haberleşme ağı* .......... 74
**Naziyə Məmmədova**
*Azərbaycanda yaddaş siyasəti* .......... 75
**Nərgiz Babaxani**
*Türkiyə tarixşünaslığında Qarsın etnik tərkibi barədə* .......... 76
**Nərgiz Əsədullayeva**
*Məzar daşları üzərində ornamental kompozisiyalar* .......... 77
**Rahim Həsənov**
*XX əsrin birinci rübündə Şəkidə erməni təxribatları* .......... 78
**Raisə Cəfərova**
*XX əsrdə azərbaycanlıların Xəzərin Şərq sahilinə miqrasiyası* ..... 79
**Rəna Hüseynova**
*Gürcü dilinin tədrisinin Azərbaycan tarixi problemlərinin öyrənilməsində rolu* .......... 81
**Rəna Şahbazova**
*Səfəvi dövlətinin xarici siyasət məsələləri V.V.Bartoldun tədqiqatlarında* .......... 82
**Rəşad Əsgərov;Bağır Babayev**
*XX əsrin əvvəllərində Azərbaycan Demokratik fikrinin poeziyasındakı milli ideyalar* .......... 83
**Saida Babayeva**
*Nəsib bəy Yusifbəyli və milli ideya* .......... 84
**Samir Mirzəyev**
*Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mədəni-maarif və təhsil siyasəti* .......... 85
**Samirə Hadıyeva**
*Azərbaycan və Türkiyə diaspor təşkilatlarının əməkdaşlıq istiqamətləri* .......... 86
**Sayad Mehtizadə**
*Azərbaycanın orta əsr musiqisi və təsviri sənəti Qərbi Avropa səyyahlarının gündəliklərində* .......... 87
**Sevinc İbadova**
*Azərbaycan Xalq Cümhuriyyətinin ali təhsilli kadrların hazırlanması istiqamətindəki fəaliyyəti* .......... 89

**Sevinc Qasımova**
*Azərbaycanda müstəqillik uğrunda mübarizədə maarifçilik hərəkatının rolu və yeri* ............ 90
**Sevinc Zeynalova**
*Səfəvilərin Hörmüz uğrunda mübarizəsi* ............ 91
**Seymur Cabbarlı**
*Əlimərdan bəy Topçubaşov və onun Azərbaycan müstəqilliyinin tanınması uğrunda mübarizəsi* ............ 92
**Səba Namazova**
*Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ədəbiyyatında milli oyanış, azadlıq duyğularının bədii əksi* ............ 93
**Səbinə Məmmədli**
*Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyə gedən yolda verdiyi qurbanlar* ............ 95
**Səidə Əli qızı**
*Əhməd bəy Ağaoğlunun Türkiyədə mühacirət dövründəki fəaliyyəti* ............ 96
**Səidə Quliyeva**
*Azərbaycanın Şimal-Qərb rayonlarının əhalisinin yaş tərkibi: uzunömürlülük göstəriciləri (əhali siyahıyaalma materiallarına əsasən)* ............ 97
**Səidə Nəbiyeva**
*"Azərbaycan tarixi" fənninin tədrisinin vətənpərvərlik tərbiyəsində rolu* ............ 98
**Solmaz Allahverdiyeva**
*Azərbaycan Xalq Cümhuriyyətinin maarif sahəsindəki tədbirləri* ............ 99
**Sürəyya Səmədova**
*Məhəmməd Əmin Rəsulzadənin əsərlərinə bir baxış ("Əsrimizin Siyavuşu" əsəri əsasında)* ............ 101
**Şahin Fərzəliyev**
*Quba qəzasında baş vermiş "Qanlı dərə" əhvalatı və üç qəhrəman haqqında bəzi qeydlər* ............ 102
**Şəbnəm Məmmədli**
*Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ziyalı qadınları* ............ 103

**Tamara Ölçekçi**
*Rusya basınına göre: Bir millet, iki devlet* .................................... 104
**Təhminə Vəliyeva**
*"Üç mədəniyyət" Əhməd bəy Ağaoğlu şərhində* .......................... 105
**Türkan Qasımova**
*Qafqazda etnik münaqişələrin həlli uğrunda Heydər Əliyevin fəaliyyəti (Dağlıq Qarabağ münaqişəsinin timsalında)* ................ 106
**Ulduz Paşayeva**
*Azərbaycan əhalisinin demoqrafik göstəriciləri (statistik məlumatlar əsasında)* .................................................... 108
**Ülkər Abdullayeva**
*Dilçiliyin Vətən konseptinin bəzi anlayışları ("Kitabi-Dədə Qorqud" dastanı əsasında)* .................................. 109
**Ülkər Sərkərova; Aygül Xəlilova; Habil Xəlilov**
*Şəki "Xan qəbiristanlığı" Azərbaycan tarixinin öyrənilməsində tarixi-epiqrafik mənbə kimi* ................................. 110
**Ümid Niayeş**
*Cənubi Azərbaycanlıların öz milli tarixini yazma cəhdləri: rəsmi tarixşünaslığa qarşı milli tarixşünaslıq* .............................. 111
**Vüqar Həsənov; Rəna Hüseynova**
*Ermənilərin Cənubi Qafqazda növbəti işğalçılıq hədəfi Samtsxe-Cavaxetiyadırmı?!* ......................................................... 113
**Zəhra İslamova**
*Azərbaycan Xalq Cümhuriyyətinin dini etiqad naziri Musa Rəfiyev* ............................................................................... 114
**Айгюнь Гашимова**
*Мамед Эмин Расулзаде – идеолог национально-освободительного движения* ..................................................... 115
**Айнур Гусейнова**
*Турецко-армянские отношения в первые десятилетия XXI века* ............................................................................................ 117
**Айнура Мамедова**
*Государственная политика Азербайджанской Демократической Республики на пути к укреплению суверенитета* ................................................................................. 118

**Амангельды Кашкимбаев; Куат Саманбеков; Айгерим Сейфуллина**
*Из истории азербайджанцев в Казахстане* ............................ *119*
**Афет Керимова**
*Государственное строительство в период правительств Фатали Хана Хойского* ........................................................... *121*
**Дархан Джумагалиев**
*Историческая политика Азербайджана в контексте Карабахского конфликта* ....................................................... *123*
**Наталья Зуб (Руденко); Оксана Василюк**
*К истории Азербайджанской диаспоры в Киеве в начале XX века*.......................................................... *124*
**Нигяр Агаева**
*Редакторы и ведущие авторы русскоязычной периодики АДР* ......................................................................... *125*
**Ровшан Муганлинский**
*Проблема освещения культурной жизни Сефевидского государства в английских источниках XVI века*...................... *127*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DÖVLƏTÇİLİK TARİXİMİZDƏ YERİ

**Anar İsgəndərov**
**Bakı Dövlət Universiteti,Tarix fakültəsi, professor**
**tarixmenbe@mail.ru**

Məlum olduğu kimi 1918-ci ilın mayında özgə torpaqda, özgə paytaxtda Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Bu dövlət müsəlman şərqinin ilk Cümhuriyyəti oldu. 1920-ci il aprelin sonlarında sovet Rusiyası beynəlxalq hüququn bütün normalarını pozaraq Azərbaycanı işğal edərək onun müstəqilliyinə son qoydu. 23 ay yaşayan bu dövlət Azərbaycan xalqına nələri verə bildi. Məqalədə Cümhuriyyətin həyata keçirdiyi islahatlar, qərarlar və qanunlar haqqında qısa formada məlumatlar verilmişdir. Cümhuriyyətin qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, 350 dəfə ilk dəfə sözünə imza atmağa nail olmuşdur. Ilk parlament, ilk universitet, ordu haqqında, Azərbaycan(Türk) dili haqqında, Azərbaycanın dövlət rəmzləri(dövlət bayrağı), Azərbaycanın dövlət valyutası, hakimiyyət bölgüsü (Qanunverici, ictaedici və məhkəmə), Azərbaycan vətəndaşlığı haqqında, Azərbaycan tələbələrin xaricə göndərilməsi haqqında məlumatlar xronoloji ardıcıllıqla məqalədə yer almışdır.

***Acar sözlər:*** *Azərbaycan, Cümhuriyyət, parlament, Paris Sülh konfransı, de-fakto,de-yure*

# XIX ƏSRDƏ RUSİYANIN CƏNUBİ QAFQAZDA DİNİ SİYASƏTİ VƏ ONUN İŞĞAL PROSESİNƏ TƏSİRİ

**Arzu Məmmədova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**arzuashraf74@gmail.com**

1801-1859-cu illərdə Qafqaz Rusiya imperiyası tərəfindən işğal edilmişdir. Həmin vaxt Qafqazın cənub hissəsində Azərbaycan xanlıqları və Kartli-Kaxet çarlığı mövcud idi. XVIII əsrdə, daha konkret desək, 1722 və 1796-cı illərdə iki dəfə rus qoşunları Cənubi Qafqaza yürüş etmiş, hətta müəyyən uğurlar əldə etmiş, lakin müxtəlif səbəblərdən burada möhkəmlənə bilməmişlər.

Cənubi Qafqazın 1801-ci il sentyabrın 12-də Kartli-Kaxet çarlığının anneksiyası ilə başlayan işğal prosesi 1828-ci ildə Azərbaycanın şimal xanlıqlarının da Rusiya imperiyası tərəfindən işğalı ilə başa çatmışdır. Cənubi Qafqaz uğrunda Qacarlar İranı və Osmanlı imperiyası ilə mübarizə şəraitində işğalı reallaşdıran çarizm, burada tam möhkəmlənmək məqsədilə müstəmləkə siyasətinin müxtəlif təsirli vasitələrindən istifadə edirdi. Əhalisinin böyük əksəriyyətinin müsəlman olduğu Qafqazda müqavimət hərəkatını qırmaq üçün dini siyasətə xüsusi fikir verir, regionun etnokoffessional mənzərəsini xristianların xeyrinə dəyişmə siyasəti aparırdı. Bu məqsədlə hələ 1715-ci ildə Osetin Ruhani Komissiyası yaradılmış, 1860-cı ildə isə birbaşa Rusiya imperatriçəsinin himayə etdiyi Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyəti ilə əvəzlənmişdir. Bu cəmiyyətlərin qarşısında duran əsas missiya sayca çox olmayan kiçik xalqlardan başlayaraq burada pravoslav xristianlığını yaymaq və onları özünün bölgədə sosial dayağına çevirmək idi. Əvvəlcə missioner fəaliyyəti çərçivəsində başladılan dini siyasətə 1830-cu illərdən ciddi hərbi, siyasi və maddi dəstək

verilir. Başlanğıcda çarizm bölgədə ancaq özünün rəsmi dövlət dini olan pravoslav xristianlığının yayılmasını hədəf götürmüşdü. Lakin, aparılan din siyasəti hərtərəfli dəstəyə baxmayaraq ümidləri doğrultmadığından və yerli əhalinin ciddi müqaviməti ilə rastlaşdığından, bölgə əhalisinin dini tərkibini buraya məzhəbindən asılı olmayaraq xristian əhalni köçürməklə həll etməyə çalışırlar. 1828-ci ildə Qacarlar İranı ilə bağlanan Türkmənçay və 1829-cu il Osmanlı imperiyası ilə imzalanan Ədirnə sülhlərindən sonra Cənubi Qafqazın əhalisinin dini tərkibi məhz pravoslavlıqdan kənar xristian məzhəblərindən olanların köçürülməsi yolu ilə dəyişdirilir.

Təxminən 100 il ərzində aparılan ardıcıl dini siyasət hesabına regionun dəyişdirilən etnokonfessional mənzərəsi tarixin sonrakı mərhələlərinə ciddi təsir göstərir. Rusiyanın bu gün də təsir imkanlarını saxlayan münaqişə ocaqlarının yaradılmasında rol oynayır.

***Açar sözlər:*** *Azərbaycan, Cənubi Qafqaz, Rusiya imperiyası, xristianlaşdırma, dini siyasət*

## AZƏRBAYCAN XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ

**Almas Cavadova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**almas.cavadova.66@mail.ru**

XVII əsrin XVII əsrin sonları-XVIII əsrin əvvəllərində Azərbaycanın ağır böhranlı vəziyyətə düşməsi və iqtisadiyyatın bütün sahələrində tənəzzülün müşahidə edilməsi çox ağır sosial-iqtisadi nəticələrə gətirib çıxarmışdı. Belə ağır iqtisadi vəziyyətdən çıxış yolunu Şah Sultan Hüseyn (1694-1722) yeni vergilər qoymaqda və vergiləri artırmaqda görürdü. Bu məqsədlə onun fərmanı ilə 1699-1702-ci illərdə əhalinin yeni siyahıya alınması keçirildi. Nəticədə yaşı 15-dən yuxarı olan

bütün şəhər və kənd əhalisi yenidən siyahıya alındı və vergilər üç qat artırıldı. Əhalinin sayından və ərazisindən asılı olaraq hər kənd üzərinə 20-30 tüməndən 50-100 tümənədək, hətta 150 tümən vergi qoyulmuşdu. Bu o dövr üçün görünməmiş həddə çatan çox yüksək ödəmə idi. Vergilərin ağırlığı ilə yanaşı, yerli hakimlərin özbaşınalığı əhalinin vəziyyətini dözülməz həddə çatdırırdı. Bəzən şəhər və vilayətlərə bir ildə rüşvət almaqla, iki-üç hakim təyin edilirdi. Vəzifəni satın alan hakimlər əhalini amansızlıqla soyub-talayırdılar. XVIII əsrin ilk onilliklərində xalq kütlələri vergi zülmünə və sosial ədalətsizliyə qarşı dəfələrlə üsyana qalxmışdılar.

Beləliklə, XVII əsrin sonu- XVIII əsrin əvvəllərində ölkəmizi bürüyən bu ağır iqtisadi böhrandan istifadə edən Rusiya və Osmanlı dövlətləri XVIII əsrin 20-30-cu illərində Azərbaycana hücum edir və nəticədə torpaqlarımızın bir hissəsi Osmanlı dövləti, Xəzərboyu bölgələri isə Rusiya tərəfindən işğal edilir.

***Açar sözlər:*** *Osmanlı imperiyası, vergi siyasəti, iqtisadi vəziyyət, Rusiya*

## 1920-Cİ İLLƏRDƏ AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİ SOVET DÖVRÜ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

**Anar İsmayılov**
**Mingəçevir şəhəri, orta məktəb, müəllim, t.f.d.**
**aismayilov@mail.ru**

1919-1923-cü illərdə iki ölkə münasibətlərinin ən yüksək səviyyədə olması səbəbilə, Sovet rəhbərliyi Azərbaycan tarixşünaslarının bu münasibətləri tədqiq etməsinə icazə vermiş, nəticədə həm ümumi olaraq ölkə miqyasında, həm də Azərbaycanda Türkiyə-Azərbaycan münasibətlərini, Türkiyə-

SSRİ münasibətlərini tədqiq edən bir çox elm adamı yetişmişdir.

Sovet dövründə Azərbaycan və ümumiyyətlə Sovet tarixşünasları bu münasibətləri araşdırarkən, araşdırma prob-lemini təşkil edən məsələlərə bir sıra faktorun təsiri altında yanaşmışlar. Daha ilk baxışda, Sovet dövrü Azərbaycan tarix araşdırmalarında, Sovetlərin ideolojik qəliblərini və 1919-1923-cü illərdəki Türkiyə-Rusiya münasibətlərinin forması, eyni zamanda araşdırmanın həyata keçirildiyi dövrdəki SSRİ-Türkiyə münasibətləri tədqiqatçının tədqiqat predmetinə, onun elmiliyinə təsirini müəyyən edən əsas cəhətlər olaraq diqqəti cəlb edir.

Burada önəmli olan başlıca cəhət, problemin nə qədər tədqiq edilməsindən çox, istifadə edilən mənbələrin səhihliyi, həmçinin bu mövzudakı bütün mənbələrin müqayisəli təhlil metoduna nə qədər tabe tutulmasıdır. Xüsusilə, AXC-Türkiyə münasibətləri, Türkiyə-Bolşevik Rusiyası münasibətlərində Azərbaycan məsələsi və Türkiyəyə SSRİ-nin yardımları kimi ciddi araşdırma tələb edən məsələlərdə bu əksikliyi çox rahatlıqla görmək mümkündür.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Sovet İttifaqı, Bolşevik Rusiyası, Türkiyə Cümhuriyyəti, Tarix araşdırmaları*

## DƏRBƏND ƏHALİSİNİN SAY DİNAMİKASI (SOVET HAKİMİYYƏTİ DÖVRÜ)

**Asəf Hacıyev**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi , t.f.d**
**asafhajiyev@rambler.ru**

Tarix boyu Azərbaycanın şimal sərhədlərinin keşiyində dayanan, möhtəşəm istehkam şəhəri Dərbəndin XX əsr tarixinin, xüsusilə də onun demoqrafik tarixinin daha dərindən araşdırıl-

ması milli tarix elmi qarşısında duran ən mühüm vəzifələrdən biridir. Zaman-zaman itirilərək yadlaşdırılmış, özgələşdirilmiş qədim Azərbaycan torpaqlarının bir hissəsi olan Dərbəndin tarixinə diqqət artırılmalıdır və bu gün respublika rəhbərliyi tərəfindən irəli sürülmüş vahid azərbaycançılıq ideologiyası konsepsiyası bu ideyanı bütün Azərbaycan Respublikası vətəndaşlarının birinci dərəcəli amalına çevirməyə dövlət səviyyəsində dəstək verir. Təəssüf ki, bəzi Rusiya tarixçiləri Dərbəndi ümumazərbaycan kontekstindən ayıraraq onu özününküləşdirməyə cəhd göstərirlər. Buna görə də, bu gün Dərbəndin XX əsr demoqrafik tarixinin real gerçəkliklərinin ortaya çıxarılmasına çox böyük ehtiyac vardır. Bunun üçün Dərbənd əhalisinin demoqrafik problemlərinə (say dinamikasına) aydınlıq gətirmək olduqca vacib məsələlərdəndir.

Dərbəndin əhalisi 1901-ci ildə-18.546 nəfər, 1902-ci ildə-18.958 nəfər, 1903-cü ildə 20.983 nəfər, 1904-cü ildə 21.515 nəfər, 1905-ci ildə-23.230 nəfər, 1906-cı ildə-29.777 nəfər, 1907-ci ildə-30.761 nəfər, 1908-ci ildə 35.415 nəfər, 1909-cu ildə-33.167 nəfər, 1910-cu ildə-32.871 nəfər, 1911-ci ildə-32.716 nəfər (Dağıstan vilayətinin icmalına görə), 1915-ci ildə-33.540 nəfər (A.N.Kajlayevə görə), 1917-ci ildə-31,1 min nəfər, 1920-ci ildə-20.102 nəfər (Dərbənd səhər siyahıyaalmasına görə), 1923-cü ildə-18.859 nəfər (Dərbənd səhər siyahıyaalmasına görə), 1926-cı ildə-23.097 nəfər (Ümumittifaq siyahıyaalmasına görə), 1939-cu ildə-34.052 nəfər, 1959-cu ildə-47.318 nəfər, 1970-ci ildə-56.869 nəfər, 1979-cu ildə-67.422 nəfər, 1989-cu ildə isə-77.851 nəfər olmuşdur (Dərbənd səhər siyahıyaalmasına görə).

***Açar sözlər:*** *Dərbənd, əhali, siyahıyaalma, say dinamikası*

# İRAN-RUSİYA MÜNASİBƏTLƏRİNİN AZƏRBAYCANA TƏSİRİ (1991-2000-Cİ İLLƏR)

**Atamoglan Məmmədli**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**atamoglan_1982@hotmail.com**

SSRİ-nin dağılması Moskvanın Tehran ilə əlaqələrində bir sıra çətinliklər yaratsa da, tezliklə iki ölkə arasında münasibətlər miqyaslı xarakter kəsb etdi. İran, 1991-ci il dekabrın 25-də SSRİ-nin varisi kimi Rusiya ilə münasibətlərini davam etdirməyə hazır olduğunu bildirdi. İranı buna sövq edən səbəblərdən biri islam inqilabından sonra ABŞ-dan gözlənilən təhlükəni dəf etmək idi.

1990-1991-ci illərin Körfəz müharibəsi nəticəsində İranın Moskvadan hərbi asılılığı artdı. Bu dolayısı yolla Azərbaycana da təsir göstərirdi. Moskvanın Fars körfəzindəki maraqları və fəallığı da Azərbaycanın neft siyasətinə təsir edirdi.

İran ilə mehriban münasibətlərin olmasına MDB-nin cənub sərhədlərinin təhlükəsizliyinə təminat kimi baxılırdı. Rusiya İranın simasında Yaxın Şərq, Qafqaz, Mərkəzi və Cənub-Qərbi Asiyanın bir çox münaqişələrin həllində faydalı müttəfiq tapmışdır. Talibana münasibətdə onların maraqları üst-üstə düşürdü.

Azərbaycan amili də iki ölkə arasındakı münasibətlərə təsir göstərirdi. Rusiya və İran bir-birinə Orta Şərqdə NATO-nun nüfuzunun güclənməsinə qarşı bir dayaq kimi baxırdılar. İran Yaxın Şərqdə Rusiya siyasətinin mərkəzi istiqaməti olaraq qalmışdı.

İran 1995-ci ildən Mərkəzi Asiya dövlətləri üçün öz ərazisi üzrə alternativ boru kəməri marşrutu ideyasını fəal irəli sürməyə başladı. Bu isə Azərbaycan, Özbəkistan, Türkmənistan və Qazaxıstandan neft və qazın ixracına nəzarət etmək üçün Rusiya hökumətinin möhkəm xətt yeritməsinin tərəfdarlarının səylərinə birbaşa zidd idi.

Onların arasında Xəzər problemi, Tacikistan Respublikasında sülhün yaradılması üzrə birgə fəaliyyət və s. vardır. İran-Rusiya münasibətləri Kosovo böhranı zamanı mürəkkəbləşdi. Azərbaycan amili əhəmiyyətli rol oynayırdı.

XX əsrin 90-cı illərində Rusiya və İranın münasibətləri dinamizm və perspektiv istiqamətlərin axtarışı ilə xarakterizə olunur. Tehran Rusiyaya münasibətdə özünün siyasi xətlərinə ciddi düzəlişlər etdi. Burada Azərbaycan amili də nəzərə alınmışdı. Rusiya İranın başlıca strateji müttəfiqinə çevrildi. 1999-2000-ci illərdə qarşılıqlı yüksək səviyyəli işgüzar səfərlər mühüm əhəmiyyət kəsb etdi.

***Açar sözlər:*** *siyasi münasibətlər, regional məsələlər, Xəzər problemi, neft, İran, Rusiya, Azərbaycan*

## AZƏRBAYCANIN MİLLİ DÖVLƏTÇİLİYİNİN QURULMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Aybəniz Paşayeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dissertant**
**pashayevaaybeniz@mail.ru**
**Elmi rəhbər: prof. Məmməd Fətəliyev**

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın müstəqillik qazandıqdan sonrakı tarixi siyasi, iqtisadi və mədəni həyatındakı dirçəliş Heydər Əliyevin adı ilə sıx bağlıdır.

1993-cü ilin yayında, Azərbaycan dövlətçiliyi nin böhran və məhv olmaq təhlükəsi qarşısında qaldığı, ölkənin vətəndaş müharibəsi və parçalanma həddinə çatdığı bir dövrdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxarmağa nail olmuşdur.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur. Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır.

***Açar sözlər:*** *Heydər Əliyev, milli dövlətçilik, islahatlar, ordu quruculuğu*

## FƏTƏLİ XAN XOYSKİ

**Aydan Həmidova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, magistrant**
**bayramova.aydan@mail.ru**
**Elmi rəhbər: dos. Qismət Davudov**

Azərbaycan Xalq Cumhuriyyəti müasir dövrümüzdə ən çox maraq doğuran və tədqiq olunan mövzulardan biridir. Bu il AXC-nin yaranmasının 100 illiyinin qeyd olunması həmin dövrə marağı daha da artırmışdır. Bu baxımdan Fətəli xan Xoyskinin həyat və fəaliyyətinin, xüsusilə, baş nazir olduğu zaman gördüyü işlərin tədqiq və təhlil olunması xüsusi əhəmiyyət kəsb edir.

Fətəli xan Xoyski Azərbaycanın görkəmli dövlət və siyasi xadimlərindən, AXC-nin yaradıcılarından biri olmuşdur. Şəki xanlığını idarə etmiş Xoy xanlarının nəslindən olan F.Xoyski yaxşı təhsil almış, hüquqşünas kimi bir sıra dövlət idarələrində

çalışmışdır. F.Xoyski II Dövlət Dumasına deputat seçilmiş, xalqımızın həmin dövrdəki problemlərinə həsr olunmuş məruzələrlə orada çıxış etmişdir. Müstəqil dövlətin yaradılmasında yaxından iştirak etmiş F.Xoyski AXC hökumətində mühüm vəzifələri icra etmişdir.

F.Xoyski AXC-nin ilk hökumətini formalaşdırmış, ardıcıl olaraq 3 dəfə Baş nazir vəzifəsi ona həvalə olunmuşdur. Birinci hökumət kabinetində Xarici işlər naziri vəzifəsini də icra etməklə AXC-nin daxili və xarici siyasətinin formalaşması və mühüm qərarlarının qəbul olunmasında böyük rol oynamışdır. F.Xoyski, eyni zamanda AXC-nin ilk Hərbi naziri olmuş və müstəqil Azərbaycan dövlətinin ordusunun yaradılmasında yaxından iştirak etmişdir. F.Xoyski həm də Bakı Dövlət Universitetinin yaradılmasının təşəbbüskarlarından biri olmuşdur.

***Açar sözlər:*** *Fətəli xan Xoyski, Azərbaycan Xalq Cumhuriyyəti, baş nazir, I hökumət kabineti*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNDƏ MİLLİ AZLIQ FRAKSİYASI

**Aygün İsmayılova**
**Bakı Dövlət Universiteti,, Tarix fakültəsi, məzun**
**aygunismayilova13@gmail.com**
**Elmi rəhbər: t.f.d. Aynur Məmmədova**

Müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti bir çox uğurlara və ilklərə imza atmışdır. Dünyanın bir çox ölkələrində demokratik dəyərlər və institutlar hələ formalaşmadığı halda, məhz AXC digər sahələrdə olduğu kimi hökumətini də demokratik prinsiplər üzərində formalaşdırmışdır. Demokratik təsisatlar içərisində xüsusi əhəmiyyətə malik olanı isə parlamentin yaradılması olmuşdur. Müstəqilliyimizə, dövlətçilik təsisatlarımızın qurulmasına mane olmaq

istəyən qüvvələr parlamentimizin formalaşmasına da əngəl olmağa çalışırdılar. Odur ki, dövrün siyasi mənzərəsinə diqqət yetirdikdə parlamentin heç də asan qurulmadığının şahidi oluruq.

Parlamentin tərkibinə nəzər salsaq, burada azərbaycanlılarla yanaşı, digər millətlərin də təmsil olunduğunu görərik. Bu bir daha sübut edir ki, AXC hökuməti "İstiqlal bəyannaməsi"ndə göstərdiyi kimi, ərazisində yaşayan hər bir vətəndaşına milliyətindən, dinindən, irqindən, sinfindən və cinsindən asılı olmayaraq bərabər hüquqlar vermişdir. Eyni zamanda, ərazisində yaşayan qeyri-millət nümayəndələrinə parlamentdə təmsil olunan nümayəndələrinin timsalında öz hüquqlarını siyasi tribunadan rəsmi səsləndirmək səlahiyyəti vermişdir.

Dünyanın bir çox dövlətlərində şovinizm, ksenofobiya halları baş verdiyi halda AXC öz vətəndaşlarının hər birinə eyni gözlə baxmış, bərabər hüquq və azadlıqlar vermişdir. Parlamentdə təmsil olunan qeyri-türk nümayəndələrdən bir qismi – polyak, yəhudi, alman və ukraynalı deputatlar IX fraksiya olan Milli azlıq fraksiyasında birləşmişlər. Bu xalqların sayı az olmasına baxmayaraq, AXC hökuməti onlara da öz haqlarını hökumətdə təmsil etmək hüququnu tanımışdır. Bütün bunlar hələ bir çox siyasi və hüquqi təşkilatların, insan hüquqları üzrə doktrinaların mövcud olmadığı bir zamanda AXC hökuməti tərəfindən qurulmuşdur ki, bu da dünyanın bir çox dövlətlərinə nümunə sayıla bilər.

Müasir dövrdə beynəlxalq aləmə nəzər yetirsək, dünyanın bir sıra ölkələrində terror, milli və dini fərqlərə görə anlaşılmazlıqlar baş verdiyi halda, AXC-nin varisi olan Azərbaycan Respublikası demokratik ənənələrə sadiq qalaraq, hüquqi və faktiki baxımdan ərazisində yaşayan bütün vətəndaşlara və qeyri-azərbaycanlılara din, dil, cins, milliyyət, sinif fərqi qoymadan eyni hüquq və azadlıqlar vermişdir. AXC parlamentində olduğu kimi, bu gün də müstəqil Azərbaycan Respublikasının

parlamentində yəhudi deputat vardır.

Odur ki, tariximizin şanlı səhifəsini təşkil edən Cümhuriyyətimizin demokratik dəyərlərin əsasını qoyan bir dövlət quruculuğunu öyrənmək, düzgün tədqiq edib tanıtmaq bu gün də aktual məsələlərdən biridir. Çünki, AXC hökuməti yalnız Şərqin və türk-müsəlman dünyasının deyil, dünyanın demokratik prinsiplərlə formalaşıb fəaliyyət göstərən dövlətlərindən biri olmuşdur.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, parlament, milli azlıq, fraksiya, siyasi və hüququ təşkilat*

## PARİS SÜLH KONFRANSI NÜMAYƏNDƏ HEYƏTİNİN MÜHACİRƏT FƏALİYYƏTİ

**Aytac Bədəlova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, bakalavr, III kurs**
**aytacbedelova9@gmail.com**
**Elmi rəhbər: dos. Sevda İsmayılova**

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının xarici siyasətinin başlıca xətti Azərbaycanın müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. 1918-ci ildə fəaliyyətə başlayan Azərbaycan Parlamenti xalqın müstəqillik əzmini ifadə etməyi Paris sülh konfransına gedən nümayəndə heyətinin qarşısına əsas şərt qoymuşdu. Azərbaycanı təmsil edən nümayəndə heyətinin tərkibinə ölkənin tanınmış ictimai-siyasi xadimləri və görkəmli ziyalıları daxil idi. ADR-in süqutundan sonra Paris sülh konfransına gedən nümayəndə heyəti mühacir həyatı yaşamağa başladı.

Nümayəndə heyətinin başçısı Əli Mərdan bəy Topçubaşov nümayəndə heyətinin üzvləri ilə bərabər 1922-ci ildə Lozanna və Genuya, 1923-cü ildə London konfranslarına gedərək Azər-

baycanın milli mənafeyini müdafiə etmişdir. Genuya konfransının nəticəsində bolşeviklər Azərbaycan barədə söz söyləmək hüququndan məhrum edildi. Nümayəndə heyəti İstanbulda olarkən Azərbaycana qayıdan M.H.Hacınski Paris sülh konfransına geri dönməmişdi. Ceyhun Hacıbəyli mühacirətdə öz fəaliyyətini həm tədqiqatçı kimi, həm də siyasi publisist kimi davam etdirirdi. Miryaqub Mirmehdiyev nümayəndə heyətinin fəaliyyətini işıqlandıran ilk politoloq idi. Məhəmməd Məhərrəmov bibliofil və antikvariat mütəxəssisi kimi tanınmışdı. Abbasbəy Atamalıbəyov siyasi fəaliyyətdən uzaqlaşmamış, 1941-ci ildə Almaniyada sovet hərbi əsirlərindən milli legionların yaradılmasında xüsusi rolu olmuşdu. "Prometey" və "Qafqaz Konfederasiyası Şurası"nın yaranması və fəaliyyəti mühacirətdə milli azadlıq ideologiyasının formalaşmasına mühüm təsir etmişdi. Nümayəndə heyətinin mühacirət fəaliyyəti nəticəsində Azərbaycanın tanıdılması və müstəqilliyi xüsusi əhəmiyyət kəsb etdi.

***Açar sözlər**: Paris sülh konfransı, ADR-in xarici siyasəti, Ə.Topçubaşov, mühacirət həyatı, siyasi fəaliyyət*

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINDA CƏNUBİ AZƏRBAYCAN MƏSƏLƏSİ

**Aytac Cabbarova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, bakalavr, IV kurs**
**aytac.azadi.97@gmail.com**
**Elmi rəhbər: Ümid Niayeş**

Hər bir dövlətin siyasi mövcudluğu onun təməlində duran milli məfkurədən qeyri-şərtsiz asılıdır. Bu baxımdan milli ideologiya nəinki dövlətin siyasi strategiyasını yerinə yetirir, eyni zamanda xalqların özünə qayıdışını təmin edir. Məhz Azərbaycan xalqının da öz istiqlalı üçün ətrafında cəmləşdiyi bu ideo-

logiya "azərbaycançılıq" ideologiyasıdır. Azərbaycan Respublikasının müstəqilliyini yaxın keçmişdə bərpa etməsi, bununla da milli şüurun formalaşma dönəmindən keçməsi baxımından azərbaycançılıq ideologiyasının araşdırılması, eyni zamanda xalqa düzgün şəkildə çatdırılması mühüm əhəmiyyət kəsb edir. Məqalədə azərbaycançılığın Əbülfəz Elçibəy və Heydər Əliyevin prezidentliyi dönəmində siyasi arenada tətbiq olunması istiqamətləri, bu zaman Cənubi Azərbaycan məsələsinin vahid ideologiyada tutduğu yer geniş araşdırılmışdır. Bununla yanaşı, milli ideologiya kimi azərbaycançılığın Cənubi Azərbaycandakı durumuna da nəzər salınmışdır. Tədqiqatın nəticəsində bütöv Azərbaycan millətinin dövr üçün xarakterik olan milli oyanışı, eyni zamanda söylənilmiş elmi-nəzəri fikirlər və həyata keçirilmiş siyasi addımlar ümumiləşdirilmişdir.

***Açar sözlər:*** *azərbaycançılıq, ideologiya, cənubi azərbaycan, milli məfkurə, milli oyanış, milli birlik, istiqlal, millətçilik*

## BƏKİR ÇOBANZADƏ VƏ ƏDƏBİYYAT TARİXÇİLİYİ PROBLEMLƏRİ

**Aytən Muşkiyeva**
**Gəncə Dövlət Universiteti, Filologiya fakültəsi,dissertant**
**ayten.mushkiyeva@mail.ru**
**Elmi rəhbər: prof. Bədirxan Əhmədov**

XX əsrin 20-30-cu illəri həm də Azərbaycan ədəbiyyatı tarixinin və ədəbiyyat tarixçiliyinin araşdırılması ilə yadda qalır. Yenilikçilik təkcə bədii düşüncədə deyil, elmin, tarixin, ədəbiyyatşünaslığın araşdırılmasında da bu və ya digər şəkildə özünü göstərirdi. Məqalədə XX əsrin 20-30-cu illərində Azərbaycan ədəbiyyatı tarixinin və ədəbiyyat tarixçiliyi problemləri araşdırılır. XX əsrin 20-ci illərində ədəbiyyatşünaslıq sahəsinə gələn yeni qüvvələr problemi çağdaş metodologiya ilə araşdırmaq

yolunu tutmuş və bu istiqamətdə müəyyən iş görmüşdülər. B.Çobanzadənin Azərbaycan ədəbiyyatı tarixi və ədəbiyyat tarixçiliyi istiqamətindəki görüşlərinin bir-birindən fərqləndiyi aydın görünür. B.Çobanzadə əgər ədəbiyyat tarixçiliyində nəzəri konsepsiyadan çıxış edərək müəyyən doğru qərarlara gəlirsə, çağdaş ədəbiyyatı təhlil edərkən ideoloji mövqeyə üstünlük verir və proletar ədəbiyyatını, partiyalılığı təqdir edir. Bu da onu göstərir ki, görkəmli ədəbiyyatşünas çağdaş ədəbiyyat məsələlərində dövrün ideoloji baryerlərini aşa bilməmiş, çağdaş ədəbiyyata ideoloji mövqedən qiymət vermişdir. Məqalədə ədəbiyyatşünaslardan B.Nəbiyev, N.Şəmsizadə, N.Qəhrəmanlı kimi ədəbiyyatşünaslara istinadlar edilmişdir.

***Açar sözlər:*** *B.Çobanzadə, Azərbaycan ədəbiyyatı, tarixçilik problemləri, XX əsr, 20-30-cu illər*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜ 1920-30-CU İLLƏR SOVET TARİXÇİLƏRİNİN ƏSƏRLƏRİNDƏ

**Billurə Qurbanzadə**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, doktorant**
**billure.qurbanzade@gmail.com**
**Elmi rəhbər: prof. Anar İsgəndərov**

Dövlətçilik tariximizdə mühüm yer tutan AXC dövrü ilə bağlı özünün 23 aylıq fəaliyyəti dövründə, 1920-91-ci illər sovet dövründə, müstəqilliyimizin bərpasından sonra bir sıra əsərlər qələmə alınmışdır. 1918-1920-ci illər və müstəqillik illərimizdən fərqli olaraq sovet dönəmində yazılmış əsərlərin müəllifləri kommunist ideologiyasından çıxış etmiş və sovet cəmiyyəti üçün sərfəli tarix yaratmağa çalışmışlar. Xüsusilə də, 1920-30-cu illərdə Rusiyadan Azərbaycana göndərilmiş alimlərin qarşısına belə vəzifə qoyulmuşdu ki, AXC-nin qazandığı bütün

uğurlara kölgə salınsın. Lakin, nə qədər bolşevik məqsədləri güdülsə də, nə qədər təhriflərə məruz qalsa da, ümumilikdə, bu dövrdə yazılmış əsərlər AXC-nin daxili və xarici siyasətini daha yaxından öyrənmək üçün əhəmiyyətlidir. Çünki, bu dövrdə sovet ideologiyasının tələbləri hələ tam olaraq formalaşmamışdır. Ona görə də, həmin tarixçilər özləri də istəmədən hadisələrə obyektiv yanaşmışdılar. Dövrün hələ unudulmamış gerçəkliklərinin öz əksini tapdığı bu əsərlərdə Bakıda hələ zəif siyasi mövqelərə malik bolşeviklərin müxtəlif taktikalardan istifadə edərək hakimiyyəti ələ keçirmələri geniş təhlil olunmuşdur. Lakin, bu əsərlərdə bir sıra qiymətli məlumatların dövriyyəyə cəlb olunması sonrakı dövrlərdə onlardan obyektiv istifadə olunması üçün şərait yaratmışdır. Bu baxımdan, AXC dövrünü araşdırarkən ilk növbədə XX əsrin 20-30-cu illərə aid sovet tarixçilərinin əsərlərinə müraciət edilməsi olduqca önəmlidir.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, 1920-30-cu illər, sovet tarixçiləri, Ratqauzer, Rayevski*

## AZƏRBAYCAN İSTİQLALI TARİXİ SINAQ QARŞISINDA: AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN GƏNCƏ DÖVRÜNÜN BƏZİ MƏQAMLARI HAQQINDA

**Cavid Bağırzadə**
**Gəncə Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**cavid.bagirzade@gdu.edu.az**

Azərbaycan Cümhuriyyəti yarandığı ilk vaxtdan etibarən bir çox təhlükə ilə qarşı-qarşıya qalmışdır. Azərbaycan istiqlalının tarixi sınaq qarşısında qaldığı ilk hadisələr onun müvəqqəti paytaxtı Gəncədə meydana çıxmışdır. Azərbaycan hökumətinin və Milli Şuranın Gəncəyə köçməsindən əvvəl burada yaşayan ermənilər təşkilatlanaraq hər tərəfli şəkildə hərbi təchizatla tə-

min olunmuş silahlı dəstə yaratmışdılar. Bu dəstə Gəncədə Azərbaycan hökumətini arxadan vurmalı, onun üzərinə hücuma hazırlaşan S.Şaumyanın rəhbərlik etdiyi bolşevik-daşnak qüvvələrinin mənfur planının reallaşmasına hərtərəfli kömək göstərməli idi. Qafqaz İslam Ordusunun Gəncəyə gəlmiş qüvvələri ilə erməni silahlı dəstələri arasında toqquşma 1918-ci il iyunun 11-14-də baş vermişdir. Qafqaz İslam Ordusu Gəncədə erməni xəyanətinin qarşısını alarkən ilk şəhidlərini vermişdir. Azərbaycan Cümhuriyyətinin tarixi sınaq qarşısında qaldığı hadisədən biri də 1918-ci il iyunun 16-17-də Gəncədə baş vermiş hökumət böhranıdır. İyun böhranın meydana çıxmasının bir çox amilləri olmuşdur. Bu amillər qruplaşdırılaraq məqalədə göstərilmişdir. Azərbaycan Milli Şurasının atdığı önəmli addımlar və qəbul etdiyi tarixi əhəmiyyətli qərar nəticəsində İyun böhranı aradan qaldırılmışdır. Azərbaycan Cümhuriyyətinin Gəncə dövründə dövlət quruculuğu sahəsində mühüm qərarlar verilmiş, qanunlar qəbul edilmişdi. Buna görə də, Cümhuriyyətin Gəncə dövrü mühüm tarixi əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *Azərbaycan istiqlalı, İyun böhranı, Nuru paşa, Gəncə Milli Komitəsi, erməni xəyanəti, Azərbaycan Cümhuriyyətinin Gəncə dövrü*

## AZƏRBAYCAN SÖZÜNÜN MƏNŞƏYİ VƏ MÜXTƏLİF DÖVRLƏRDƏ İFADƏ ETDİYİ MƏNA

**Elmira Hacıyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant**
**ehacisoy@mail.ru**
**Elmi rəhbər: dos. Arzu Məmmədova**

Azərbaycan adının yaranması və mənşəyi ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər mövcuddur. "Adurbadaqan-Azərbaycan" məfhumu ilk dəfə VI əsrdə Sasani hökmdarı I

Xosrov Ənuşirəvan tərəfindən həyata keçirilən inzibati islahatdan sonra Arazdan şimalda və cənubda yerləşən torpaqlarımızı özündə birləşdirən vahid siyasi-inzibati məna kəsb etmişdir. Azərbaycanın və azərbaycanlıların həyatında baş vermiş bu mühüm hadisədən sonra "Azərbaycan" məfhumu yaranmış və tarixi şəraitə uyğun olaraq müxtəlif mənalar (siyasi-inzibati, coğrafi və ya siyasi) daşımışdır. 1918-ci il 28 may tarixində Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən tərtib olunmuş və imzalanmış İstiqlal Bəyannaməsi yeni yaranmış dövləti Azərbaycan Xalq Cümhuriyyəti adlandırdı. Beləliklə, Azərbaycan sözü ilk dəfə olaraq rəsmi şəkildə dövlət adı kimi işləndi.

***Açar sözlər:*** *Azərbaycan məfhumu, siyasi-inzibati və coğrafi mənalar, ərazi*

## QAFQAZ ALBANİYASININ ŞƏKİ VİLAYƏTİNİN İLK ORTA ƏSR XRİSTİAN MƏBƏDLƏRİ

**Elşən Abdurahmanov**
**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, dissertant**
**abdurrahmanov.elshen@mail.ru**
**Elmi rəhbər: prof. Arif Məmmədov**

Şimal-qərbi Azərbaycanın erkən orta əsr abidələri içərisində qalalar, sədlər və məbədlər üstünlük təşkil edir. Bu abidələrin böyük əksəriyyəti Azərbaycanın ən uzunömürlü dövləti olan Alban çarlığına aiddir. İki ictimai formasiya dövründə-həm quldarlıq, həm də feodalizm mərhələlərində mövcudluğunu sürdürən Alban dövləti zəngin maddi və mənəvi mədəniyyətə malik olmaqla yanaşı, min ilə yaxın bir zaman kəsiyində nəinki Cənubi Qafqazda, həmçinin Yaxın və Orta Şərqdə gedən ictimai, siyasi və mədəni proseslərə qoşulmuş, bu xüsus ərazidə sosial-dini və mədəni həyata da öz təsirini göstərmişdir. Zamanla bu

təsirlər abidələrin xarakterinə, quruluşuna və mahiyyətinə nüfuz edə bilmişdir.

İnzibati cəhətdən vilayətlərə bölünən Qafqaz Albaniyasının mühüm tarixi, iqtisadi və mədəni bölgələrindən biri Şəki idi. Albaniyanın şimal-qərbində, Qafqaz sıra dağlarının ətəyində qərarlaşan tarixi Şəki vilayəti Kambisena, Lpiniya və Qəbələ vilayətləri ilə həmsərhəd idi.

İlk xristian məbədlərinin yerləşdiyi bu vilayət kilsə-inzibati vahidi olan yepiskopluq yeparxiyası idi. Bu mənada Şəkinin ilk orta əsr alban məbədlərinin öyrənilməsi önəm kəsb edir. Mövzunun aktuallığını artıran faktorlar içərisində bu abidələrin tədricən məhv olması ilə yanaşı, xüsusilə gürcü və erməni tarixçilərinin qeyd edilən əraziyə və burada yerləşən abidələrə əsassız iddialar etməsidir. Şəki vilayətinin dini abidələrinin və inanc yerlərinin tədqiqi bütövlükdə Azərbaycan tarixinin, ərazidə dini-mənəvi dəyərlərin, əhalinin sosial-ictimai durumunun və dünyagörüşünün öyrənilməsinə, bir sıra mühüm elmi yeniliklərin üzə çıxarılmasına önəmli töhvə verəcəyi qənaətindəyik.

***Açar sözlər:*** *Qafqaz Albaniyası, Şəki vilayəti, alban məbədləri, xristianlıq*

## MÜHACİR ƏDƏBİYYATIMIZDA BAKI XALQ KOMİSSARLARI SOVETİNİN TARİXİ

**Elşən Aslanov**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, müəllim**
**tarixmenbe@mail.ru**

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra 1917-1920-ci illər Azərbaycan tarixinin obyektiv faktlara əsasən araşdırılmasının zəruriliyi Bakı Xalq Komissarları Sovetinin tarixini tarixşünaslıq müstəvisində yenidən Vətən tarixşünaslı-

ğının ən mühüm problemlərindən biri kimi gündəmə gətirdi.

Problemlə bağlı Cümhuriyyət dövründə yazılmış əsərlər yenidən işıq üzü gördü. Qeyd etmək lazımdır ki, Bakı Xalq Komissarları Sovetinin fəaliyyəti ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarının əsərləri və burada irəli sürülmüş ideyalar xüsusi əhəmiyyət kəsb edir. Çünki, mühacir tarixşünaslığının nümayəndələrinin əksəriyyəti 1918-ci ildə Bakıda baş verən hadisələrin canlı şahidləri olduqlarından onların qələmə aldıqları hadisələrin real təsviridir. Bu baxımdan təsadüfi deyil ki, Bakı Xalq Komissarları Sovetinin tarixini tədqiq edən xarici tarixçilər ilk mənbə kimi məhz mühacir tarixşünaslığına müraciət etmişlər.

Məqalədə Cənubi Qafqazı öz nüfuz dairəsində və əlində saxlamaq, o cümlədən, neftlə bağlı Bakıdakı mövqeyini möhkəmləndirmək üçün Bakı Xalq Komissarları Sovetinə özünün təsir mexanizmi kimi baxan Sovet Rusiyasının, eyni zamanda Azərbaycanın milli-demokratik ziyalılarının sosial bazasını məhv etmək və "Böyük Ermənistan" yaratmağa can atan Bakı Sovetinin rəhbəri Şaumyanın antiazərbaycan siyasəti, Bakı Xalq Komissarları Sovetinin rəhbərliyi altında bolşevik-daşnak qüvvələrinin Bakıda və Azərbaycanın qəzalarında həyata keçirdiyi türk-müsəlman soyqırımı, bu siyasi mübarizədə milli vətənpərvər qüvvələrin məğlubiyyət səbəbləri və s. bağlı məsələlərə mühacir tarixşünaslığında baxış nəzərdən keciriləcəkdir.

***Açar sözlər:*** *mühacirlər, Bakı Xalq Komissarları Soveti, Cümhuriyyət yaradıcılarının əsərləri, 1918-ci il hadisələri, tarixşünaslıq*

# XVI ƏSRİN İKİNCİ YARISINDA SƏFƏVİLƏR DÖVLƏTİNİN QAFQAZ SİYASƏTİNDƏ AZƏRBAYCANIN ŞİMAL-QƏRB TORPAQLARI

**Elvira Lətifova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**eletifova@mail.ru**

XVI əsr Səfəvilər dövlətinin Qafqaz siyasətində mühüm mərhələni təşkil edir. 1552-ci ildə Şəki hakimliyinin tabe edilməsi ilə Azərbaycan torpaqlarının vahid dövlət çərçivəsində birləşdirmə siyasətinin başa çatdırılmasına baxmayaraq, XVI əsrin ikinci yarısında Səfəvilər dövləti Qafqazda Osmanlı dövlətinə qarşı mübarizə aparmalı olur. Azərbaycanın şimal-qərb torpaqlarının gələcək taleyi də bu mübarizədə hadisələrin hansı məxrəcdə inkişaf edəcəyindən asılı idi.

Tədqiq etdiyimiz dövrdə Qafqaz uğrunda Səfəvi-Osmanlı mübarizəsinin əsas meydanını gürcü çarlıqları təşkil edirdi (Kartli, Kaxetiya, İmeretiya və Mesxiya (Samtsxe-Saatabaqo)). Bölgədəki nüfüz dairələri uğrunda aparılan bu mübarizədə Azərbaycan hakimlikləri olub, gürcü çarlıqları ilə qonşuluqda yerləşən Şəki, İlisu və ümumiyyətlə Şirvan, mühüm hərbi-strateji əhəmiyyətə malik idi.

Gürcü çarlarına güvənməyən Səfəvi hökmdarları onlarla qonşuluqda müsəlman hakimliklərinin yaradılmasına və möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirdilər. Hələ Şah I Ismayılın dövründə Şəki hakimliyinin himayəyə alınması ilə başlanan bu siyasət onun oğlu Şah I Təhmasibin və onun sələflərinin dövründə də davam etdirilmişdir. Buna misal olaraq 1562-ci ildə Şah I Təhmasibin Saxur (gələcəkdə İlisu) sultanlığının yaradılmsı ilə bağlı fərmanını göstərmək olar.

Hazırki tədqiqatımızda biz dövrün başlıca qaynaqları olan Həsən bəy Rumlunun, İsgəndər bəy Münşinin, Gelibolulu

Mustafa Alinin və başqalarının əsərlərinə, həmçinin Səfəvi şahlarının və Osmanlı sultanlarının yerli hakimlərə göndərdikləri fərmanlarına əsaslanaraq Səfəvilər dövlətinin Qafqaz siyasətində Azərbaycanın şimal-qərb torpaqlarının rolunu işıqlandırmağa çalışacağıq.

***Açar sözlər:*** *Səfəvi, Şimal-Qərb, Şəki, İlisu, hakimlik*

## HEYDƏR ƏLİYEV İRSİNDƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

**Eynulla Mədətli**
**AMEA Fəlsəfə İnstitutu, dosent**
**emadatli@gmail.com**

Keçən əsrin 70-80-ci illərindən Azərbaycanın vətənpərvər milli lideri Heydər Əliyev tərəfindən yeridilən Azərbaycançılıq, vətənsevərlik, milli mənsubiyyət hissi, xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin qurulması kimi siyasət öz bəhrəsini verdi. Böyük rəhbər Heydər Əliyevin ötən əsrin 70-ci illərindən əsasını qoyduğu Azərbaycançılıq məfkurəsi müstəqillik illərində onun rəhbərliyi ilə reallığa çevrildi.

Heydər Əliyevin irəli sürdüyü Azərbaycançılıq məfkurəsi milliyətindən asılı olmayaraq bütün Azərbaycan xalqının həmrəyliyinin sarsılmaz mənbəyidir. Bu məfkurənin birləşdirici mahiyyəti dünyadakı 50 milyonluq azərbaycanlının bu milli ideya ətrafında cəmlənərək birlik və həmrəylik göstərməsini şərtləndirir.

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, milli lider, azərbaycançılıq*

# AZƏRBAYCANDA TARİXİ ETNO-SİYASİ PROSESLƏRİN ÖYRƏNİLMƏSİNDƏ "KİTABİ-DƏDƏ QORQUD" DASTANININ ROLU

**Əmanət Əsədova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, t.f.d.**
**esedova.emanet@gmail.com**
**Adil Abdullayev**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, müəllim**

Azərbaycanın tarixi ərazisində cərəyan etmiş etno-siyasi proseslər xalqımızın mənşəyi məsələsinin öyrənilməsinə işıq salan bir mövzudur. Məqalədə bu işdə ilk yazılı salnaməmiz olan «Kitabi Dədə Qorqud» dastanının rolundan bəhs olunur. Dastanın söylədiyi həqiqətlər sübut edir ki, VII əsrdə Azərbaycan ərazisində türkdilli tayfaların konsolidasiyası yolu ilə vahid xalq və ümumxalq danışıq dili formalaşmışdır. Dastan həmin dövrdə Azərbaycan ərazisində əsas etnosun oğuz-qıpçaqlar, rəsmi tarix isə albanlar olduğunu göstərir. Kafirlər Qazan xanı «Alpanlar başı» adlandırırdılar. Müasir toponimlərin bir çoxunun kökündə də «Alp» sözü dayanır. Qazan xan həm də Beyrək tərəfindən «Türküstanın dirəyi» adlandırılırdı. Dastanda Oğuz tayfa birliyinə qayı, bəkdüz, bayat, dondar, salur və s. tayfalar daxildir. Adı çəkilən Qayı tayfası Azərbaycan və Türkiyə türklərinin, türkmənlərin və bəzi başqa xalqların etnogenezində mühüm rol oynamışdır. Dastanın əsas qəhrəmanı olsan Ulaş oğlu Salur Qazanın adında iki tayfanın - Ulaş və Salur tayfalarının adları əks olunmuşdur. Oğuz tayfaları arasında Ulaş adlı tayfa yoxdur. Lakin, antroponimdən yaranan toponim kimi buna Gürcüstanda türk əhalisinin yaşadığı ərazidə Ulaşlı şəklində rast gəlinir. Tayfa adı kimi «salur» antroponimi «Salor» formasında Şəmkir rayonunda indi də mövcuddur. Dastanın VII boyunda Azərbaycan xalqının etnogenezində iştirak etmiş

Bulqarların da adı xatırlanır. Bütün bunlar nəzərə alınaraq, məqalədə xalqımızın etnogenezində iştirak etmiş oğuz, qıpçaq, bulqar və s. kimi türkdilli tayfaların VII əsrdən və hətta daha əvvəlki zamanlardan bu tarixi ərazilərdə yaşamaları tutarlı dəlillərlə əsaslandırılmışdır.

***Açar sözlər:*** *Dədə Qorqud, Qazan xan, dastan, etnik tarix, etnogenez, mənşə, türklər, oğuzlar, xalq, vahid dil*

## AZƏRBAYCAN DİASPORASININ UKRAYNA TƏHSİL VƏ ELMİNİN İNKİŞAFINDA GÖSTƏRDİKLƏRİ FƏALİYYƏTLƏR

**Fərhad Turanlı**
**Ukrayna, Kyivo-Mohılyanska Akademiya Milli Universitetinin Humanitar Elmlər Fakultəsinin müəllimi, professor, Azərbaycanlı və Ukraynalı Ziyalılar Assambleyasının sədri**
**ferhadturanly@gmail.com**

Mövzuyla əlaqədar göstərilən tədqiqatın vacibliyi və mahiyyəti milli azadlıq hərəkatı, müstəqil dövlətlərin qurulması, o cümlədən Ukraynada yaşayan soydaşlarımızın diaspora quruculuğunun və onların bəhs olunan ölkənin elm və təhsilinin inkişafında göstərdikləri fəaliyyətlərin araşdırılmasından ibarətdir. Bununla bərabər araşdırmada XIX yüzildə ukraynalı ziyalıların Azərbaycana iltica etmələri və onların elmi tətqiqatlarından bəhs edilməkdədir. İşarə olunan məsələlərdən biri 1918-1920-ci illərdə Azərbaycan və Ukrayna Cümhuriyyətləri arasında diplomatik münasibətlərin qurulması nəticəsində bir sıra azərbaycanlı gənclərin Kiyev və başqa şəhərlərin universitetlərində təhsil almaları, eyni zamanda göstərdikləri ictimai fəaliyyətləri diaspora hərəkatının güclənməsinə də səbəb olan amillərdəndir. Diqqəti cəlb edən hadisələrdən biri azərbaycanlıların Ukrayna milli-azadlıq hərəkatında iştirak etmələridir. Bu bağlamda

müasir zamanda Ukraynanın universitetlərində elmi-pedaqoji fəaliyyət göstərən məşhur alim soydaşlarımızın xüsusi əhəmiyyəti vardır. Mövzu ilə əlaqədar məsələdən bəhs edərkən, xarici ölkələrin universitetlərində Azərbaycan tarixinin, dilinin və mədəniyyətinin dürüst öyrənilməsi və tədrisi mühüm məsələlərdən olduğu nəzərə çatdırılmaqdadır.

***Açar sözlər:*** *hərəkat, azadlıq, diaspora, təhsil, inkişaf, Azərbaycan, Ukrayna*

## CÜMHURİYYƏT İLLƏRİNDƏ MUSİQİ MƏDƏNİYYƏTİ

**Fərida Mirişova**
**AMEA, Folklor İnstitutu, elmi işçi**
**fmirisova@mail.ru**

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 aylıq zaman kəsiyi demək olar ki, bütün sahələrdə, xüsusilə mədəniyyətdə dirçəliş dövrü hesab edilir. Dövlət siyasətində musiqi mədəniyyətinin inkisafi üçün real imkan və şərait yaratmaq istiqamətində addimlar atılır. Dövlətçilik simvollarinin işlənib hazırlanması və bu sahədə atılan addımlar içərisində Dövlət himninin yazılması həm də böyük musiqi hadisəsi idi. Cümhuriyyət illərində M.Moqamayevin "Şah İsmayıl" operası və H.Şərifovun "Tahir və Zöhrə" operasının premyerası diqqəti cəlb edir. Milli balet janrı yaranır. Milli musiqi təhsili sisteminin formalaşması istiqamətindəki müəyyən işlər görülür. Cümhuriyyət dövründə Azərbaycan musiqisi o dovrü əhatə edən müasir məzmunlu marşlar və mahnılar yaranır. Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət siyasəti və onun inkişafına göstərdiyi qayğı nəticəsində milli teatrın inkişafında uğurlar əldə edilir. Dövlət teatrı yaranır. Xeyriyyə tamaşaları və musiqi gecələri adı altında konsert proqramları geniş vüsət almışdı.Musiqi mədəniyyəti sahəsindəki quruculuq Sovet illərində davam etdirilir.

***Açar sözlər:*** *musiqi mədəniyyəti, cümhuriyyət, opera, marş*

# SOVET RUSİYASININ AZƏRBAYCANA MÜNASİBƏTDƏ "MÜSTƏQİLLİK" ŞÜARINDAN FAYDALANMASI

**Firdovsiyyə Əhmədova**
**Azərbaycan Respublikası Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası, dosent**
**fahmedova@rambler.ru**

Mərkəzi sovet hakimiyyətinin "müstəqillik" şüarından Azərbaycan Cümhuriyyətinin devrilməsində və sonrakı ilk illərdə istifadə olunmuşdur.

Azərbaycan sovet respublikasının müstəqillik statusu mərkəz tərəfindən hələ 1919-cü ildə müəyyənləşdirilmişdi. «Hümmət»i Azərbaycanın müstəqil kommunist partiyası kimi tanımaq məsələsində mərkəzin mövqeyi sonrakı münasibətə də həm aydınlıq gətirir, həm də respublikanın müstəqilliyinə gələcək yanaşmanı şərtləndirir. Bolşevik ideologiyası üçün müstəqillik anlayışının təyinatı fərqli olmuşdur. Yerli partiya komitələrinin müstəqil adlandırılması onları mərkəzi quruma tabelikdən azad etmirdi. Eyni prinsip Azərbaycanın müstəqilliyinin tanınmasına da şamil edilirdi: «Eyni qərar müstəqil Azərbaycanın tanınmasına bütünlüklə aiddir». «Müstəqillik» ifadəsi ideoloji təbliğat üçün manevr imkanı verirdi. Xarici işlər üzrə xalq komissarlığına «Azərbaycan hökumətinə münasibətdə böyük təmkin və inamsızlıq siyasəti yürütmək» tapşırılırdı. Müstəqilliyi de-fakto beynəlxalq səviyyədə tanınan bir dövlətə Rusiya hökuməti belə münasibət bəsləyirdisə, özünün yaratdığı «müstəqil Sovet Azərbaycanına» hansı statusda yanaşacağı gözlənilməz sayıla bilməz. Stalin siyasətdə reallıq amilinə daha çox önəm verirdi. Bu baxımdan Azərbaycanın gələcək müstəqilliyi haqqında düşüncə və mülahizələri də ciddi qəbul etmirdi. Hərçənd Nərimanov «milli işlər üzrə xalq komissarı Stalinin də

«Müstəqil Sovet Azərbaycanı siyasətini bəyəndiyi» qənaətində olmuşdur. Stalin Nərimanova «yalnız bayraq, dekorasiya» kimi baxdığı tərzdə Azərbaycanın müstəqilliyini də bir deklorasiya-dan irəli getməyən vasitə kimi dəyərləndirirdi. Mərkəzi hakimiyyət «müstəqillik» oyununu uzun müddət davam etdirmək niyyətində olmamışdır. «Müstəqil Azərbaycan» təbliğat üçün nə qədər və nə müddət sərfəli idisə, o dərəcə də Mərkəz tərəfindən istifadə olunmuşdur. Mərkəzin və onun müvəkkillərinin fəaliyyətinə qarşı Azərbaycan sovet hökumətinin başçısı N. Nərimanovun «Müstəqil Azərbaycan» şüarını reallaşdırmaq səyləri qarşılıqlı münasibətlərin heç də hamar olmadığını meydana çıxartdı. Ənzəlidə sovet gəmilərinin bir qismi Azərbaycan bayrağı altında saxlanılırdı.

1920-ci illərin əvvəllərində, Zaqafqaziya Federasiyası yaranmazdan öncə, Azərbaycan İctimai Şura Cümhuriyyətinin müstəqil sayıldığı dövrdə belə cari məsələlərin Qafqaz bürosu, yaxud RK(b)P MK səviyyəsində həlli mərkəzi hakimiyyətin ucqarlardakı respublikalara yanaşma prinsipinin göstəricisidir.

***Açar sözlər**: Azərbaycan, Sovet Rusiyası, müstəqil, mərkəz, hakimiyyət, siyasət, bolşevik*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTUNUN SƏBƏBLƏRİ

**Fuad Mürsəlli**
**ADPU, Tarix fakültəsi, magistrant**
**Fuad_murselli88@mail.ru**
**Elmi rəhbər: dos. Almas Cavadova**

1920-ci ilin yanvarında Antanta ölkələrinin Azərbaycanın istiqlaliyyətini tanıması ölkənin getdikcə qaralmaqda olan taleyini azacıq da olsa aydınlatmadı. Antantanın Azərbaycana silah və hərbi sursatla yardım etmək haqqında qərarı ilə bağlı

məlumat əldə edən Sovet Rusiyası Azərbaycana diplomatik təzyiqi artırdı, ölkənin daxili işlərinə müdaxiləsini genişləndirdi. Sovet Rusiyası Azərbaycanın müstəqilliyini tanımır və onun Rusiyadan ayrılması kimi siyasi bir aktla razılaşmaq istəmirdi. "Şimal təhlükəsi" ölkəmizin sərhədlərində müstəqilliyimizə qəsd üçün hazır dayansa da, Azərbaycana birbaşa hərbi müdaxilə etməyə cəsarət etmirdi. Buna görə də, Azərbaycanın daxilində "beşinci kolon"un (dəstənin) - Azərbaycan K(b)P-nin yaradılmasını qərara aldı. 1920-ci ilin yanvar - fevral aylarından Rusiya Azərbaycanı işğal etmək planını hazırlayırdı. Və əlbəttə, bu işdə ona ən yaxın köməyi erməni amili edə bilərdi. Azərbaycanı işğal etmək işini asanlaşdırmaq üçün ermənilərin Qarabağa hücumu təşkil edildi. İlk hədəf Xankəndi qarnizonu seçildi. 1920-ci il martın 22-də hücuma keçən ermənilər daha sonra Qazax və Gəncə qəzalarına hücum etdilər. Azərbaycan hökuməti məcbur qalıb, ordunu təcili Dağıstan sərhədindən və Bakıdan Qarabağda baş verən erməni qiyamını yatırtmağa yönəltdi. Bununla, respublikamızın şimal sərhədi müdafiəsiz qaldı.

Rusiya Qarabağ hadisələrini təşkil etməklə Azərbaycan hökumətinin diqqətini ora yönəltmək istəyirdi. Belə də oldu. Aprel işğalı ərəfəsində Azərbaycanda hökumət böhranı baş verdi. Partiyalararası çəkişmələr böhranı daha da dərinləşdirdi. 1920-cı il fevralın 11-12-də Bakıda K(b)P Bakı Komitəsinin, "Hümmət" və "Ədalət" təşkilatının I qurultayı keçirildi və kommunist təşkilatlarının Azərbaycan K(b)P adı altında birləşməsi barədə qərar qəbul olundu.

Çox qısa, cəmi 23 ay yaşasa da, Azərbaycan Xalq Cümhuriyyəti azadlıq hərəkatı tarixində dərin iz buraxdı. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrasa da, müstəqil Azərbaycan respublikasının timsalında yaşamını davam etdirir.

***Açar sözlər**: Qarabağ, Azərbaycan Xalq Cümhuriyyəti, Rusiya, Bakı, AK(b)P*

# "MOLLA NƏSRƏDDİN" JURNALI VƏ XALQ CÜMHURİYYƏTİ

**Gülbəniz Babayeva**
**AMEA Ədəbiyyat İnstitutu, f.f.d.**
**gulbeniz-babayeva@mail.ru**

XX əsrin mürəkkəb və paradokslarla dolu ictimai-siyasi mühütü ilk satirik mətbuatımız olan "Molla Nəsrəddin" jurnalının yaranması zərurətini reallaşdırdı. Jurnal nəinki Azərbaycan milli mətbuatına, ədəbiyyat tarixinə və mədəniyyətinə böyük töhfələr verdi, hətta Şərq və Qərb qovşağında sivilizasiyanın təkamülünə, təşəkkülünə və formalaşmasına güclü təsir göstərdi.

"Molla Nəsrəddin" jurnalı milli-mənəvi dəyərlərimizin məhvinə çalışan imperialist qüvvələrə qarşı vahid mövqedən çıxış etməyin zəruriliyini gündəmə gətirir, xalqımızın öz müqəddəratını təyin etmək hüququna malik olduğunu geniş oxucu auditoriyasına çatdırırdı. Jurnal azad, müstəqil və demokratik dövlət quruculuğuna nail olmağın yolunu milli birlikdə görür, xalq mənafeyini şəxsi mənafedən üstün tutmağın əhəmiyyətini yazırdı.

C.Məmmədquluzadə Tiflisdə Müsəlman Milli Komitəsinin yığıncağında oxumaq üçün yazdığı "Cümhuriyyət" (1917) məqaləsində demokratik dövlət quruculuğunun əsas prinsiplərini belə şərh edir: "Cümhuriyyət", yəni latınca "Respublika" elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn, Firəngistan, İsveçrə və qeyriləri." Akademik İsa Həbibbəyli yazır: "... "Cümhuriyyət" məqaləsi Mirzə Cəlilin cəmiyyətşünaslıq görüşlərinin yekunu və zirvəsidir. "Cümhuriyyət" məqaləsi Cəlil Məmmədquluzadə demokratizminin nizamnaməsidir. Böyük demokrat ədib bu əsərində "padşahlıq taxtından yıxılan Nikolayın... idarəsi dağılandan sonra" ölkədə yaranmış mürəkkəb vəziyyətdə

çaşqın qalan, yol axtaran azərbaycanlılara - həmvətənlərinə respublika tipli müstəqil dövlət qurmaq uğrunda səy göstərməyi zəruri saymışdır.”

***Açar sözlər:*** *“Molla Nəsrəddin” jurnalı, Azərbaycan Xalq Cümhuriyyəti, milli mətbuat, Cəlil Məmmədquluzadə, demokratik dövlət, azad seçki, mənəvi dəyərlər, ictimai-siyasi və sosial problemlər*

## AZƏRBAYCAN RESPUBLİKASININ MÜSTƏQİLLİK İLLƏRİNDƏ NEFT VƏ QAZ SİYASƏTİ

**Gülnar Təhməzli**
**AMEA Tarix İnstitutu, dissertant**
**gtahmazli@gmail.com**
**Elmi rəhbər: t.e.d. Ataxan Paşayev**

Məqalənin mətnində Azərbaycan Respublikasının müstəqillik illərində həyata keçirdiyi enerji layihələri, neft-qaz boru kəmərlərinə aid müqavilələr haqqında məlumat veriləcəkdir. ARDNŞ-in müstəqillik illərindəki fəaliyyəti, ölkəmizin sosial-iqtisadi həyatına təsiri, “Əsrin müqaviləsi”nin Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etməsindən bəhs ediləcəkdir.

Bakı-Tbilisi-Ceyhanın əsas ixrac kəməri kimi ideyası XX əsrin 90-cı illərinin II yarısından başlayaraq müzakirə edilmiş və ideyanın Azərbaycan rəhbərliyi, ABŞ, Türkiyə, Qazaxıstan və Gürcüstan liderləri dəstəkləmişlər. 1996-cı ildə Azərbaycan Respublikası ilə Gürcüstan arasında neftin Gürcüstan ərazisindən nəql olunmasına dair hökumətlərarası saziş imzalanmışdır. Bununla da Heydər Əliyevin müəllifi olduğu “Yeni neft strategiyası” lnın ən mühüm uğuru olan BTC reallığa çevrilmiş oldu. 2006-cı il iyulun 13-də Ceyhan şəhərində BTC əsas ixrac boru kəmərinin açılış mərasimi keçirilmişdir. BTC boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və dünya üçün iqtisadi, siyasi

baxımdan böyük əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, 1999-cu ildə "Şahdəniz" qaz-kondensat yatağının aşkar edilməsi XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və Azərbaycanı neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaratmış olması haqqında məqalə mətnində məlumat veriləcəkdir. Məqalənin əsas məqsədi dövrümüzdə aktuallığını qoruyub saxlayan müstəqillik illərində neft-qaz siyasətini dövrün mənbələri, imzalanmış müqavilələr əsasında araşdırmaqdır.

***Açar sözlər****: neft, qaz, muqavilələr, Əsrin müqaviləsi, Azərbaycan Respublikasi Dovlət Neft Sirkəti, müstəqillik*

## AZƏRBAYCAN RESPUBLİKASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ: REGİON MƏTBUATININ İNKİŞAFI

**Günay Məmmədova**
**Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi, elmi işçi**
**g-alizade87@mail.ru**
**Elmi rəhbər: prof. Şamil Vəliyev**

Mövzu müstəqilliyin bərpasından sonrakı dövrdə Azərbaycan region mətbuatının inkişafı problemlərindən bəhs edir. Region mətbuatının inkişaf mərhələlərinin və müasir dövrünün indiyədək əsaslı şəkildə öyrənilməməsi bu mövzunun aktuallığını şərtləndirir. Məqalədə sovet hakimiyyətinin diqtəsi ilə fəaliyyət göstərən bölgə mətbuatının öz mövzu dairəsini dəyişərək çap etdirdiyi tənqidi xarakter daşıyan yazılar təhlil edilir və zamanın ümumi mənzərəsi araşdırılır. Müstəqillik yolunda irəliləyən bir ölkənin mərkəzi mətbuat orqanlarının bütün bölgələrə vaxtında çatdırılması işi tam şəkildə təşkil olunmadığından bölgə camaatının öz rayon qəzetinə olan marağı artır və yeni mətbuat orqanları yaranır. Lakin, bir neçə ildən sonra maddi çətinliklər

səbəbindən fəaliyyətini dayandırmağa məcbur olan qəzetlər Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra yeni intibah dövrünə qədəm qoyur.

Məqalədə Kütləvi İnformasiya Vasitələrinin inkişafına yönəldilmiş diqqət və qayğının nəticəsi olaraq həyata keçirilən aşağıdakı məsələlər izah edilir:

- sovet hakimiyyəti dövründə yaranan region mətbuatının XIX əsrin 90-cı illərdə yeni mərhələyə qədəm qoyması: məzmun və forma yenilikləri;
- müstəqillik illərində yaranan rayon qəzetlərinin inkişaf mərhələləri;
- hər bölgənin mətbuatının ayrı-ayrılıqda konkret faktlarla təhlili.

***Açar sözlər:*** *Azərbaycan, region mətbuatı, müasir dövr, yerli qəzetlər*

## QIZILBAŞ İDEOLOGİYASININ TƏRƏFDARI OLAN TAYFALAR

**Günel Rəhimli**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, doktorant**
**gunelrahimli1@gmail.com**
**Elmi rəhbər: prof. Zabil Bayramov**

Səfəviyyə təriqəti lideri Şeyx Heydərin (1460-1488) müridlərinin başına qırmızı zolaqlı papaq qoymalarını tələb etməsindən sonra təriqətin tərəfdarları başlarına bu papağı sevə-sevə qoydular. Beləliklə, bu hadisədən sonra Səfəviyyə təriqəti müridləri qızılbaşlar olaraq adlanmağa başlamışdır. Qızılbaş ideologiyasına bağlanan insanlar Azərbaycan və ətraf ərazilərində öz xəyallarında qurduqları dövləti yarada biləcəklərinə inanmışdılar. Bu inanc Səfəvilər dövlətinin qurulmasına gətirib

çıxaran mühim səbəblərdən biri olmuşdur. Dövlətə aparan yolda mühim rol oynayan qızılbaş ordusunun əsasını da bu ideologiyaya bağlı müridlər təşkil edirdi. Qızılbaş ideologiyasına inanan və arxa-dayaq olan əsas tayfalar Azərbaycan və Anadoluda yaşayan türkman tayfaları idi. Düzdü bu hərəkatın tərkibində türk olmayan qızılbaşlar da yer almışdır. Lakin, hər şeydən əvvəl Qızılbaş dedikdə türkmanlar nəzərdə tutulur və Səfəvilər dövlətinin qurulmasında onların xidmətləri danılmazdır. Azərbaycan və bütövlükdə Səfəvi tarixi üçün Qızılbaş ideologiyasının tərəfdar qüvvələrinin kimliyi məsələsinin öyrənilməsinin vacibliyini nəzərə alaraq məqaləmizi bu mövzuya həsr etmişik.

***Açar sözlər:*** *Türkman tayfaları, şamlı, rumlu,təkəli, ustaclı, ideologiya, qızılbaş*

## SÜLEYMAN BƏY (MƏMMƏD BƏY) SULKEVİC VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

**Hicran Mahmudova**
**Bakı Dövlət Universitetı, Tarix fakültəsi, t.f.d.**
**hicranmahmudova@mail.ru**

Azərbaycan Xalq Cumhuriyyəti tarixində hərbçi və maarifçi kimi yadda qalan Məmməd bəy Sulkeviç 1919-cu ilin martın 26-dək Gəncədə yerləşən Birinci Müsəlman Korpusunun komandiri, sonra isə Baş Qərargah (Baş Ərkani-hərb) rəisi təyin olunub. Dövlətçiliyin qorunması yolunda xüsusi xidmətləri olan M.Sulkeviç ordu quruculuğu sahəsində əvəzsiz xidmətləri ilə yadda qalmışdır. AXC tarixində səfərbərlik planının hazırlanması, ilk çavuş məktəblərinin açılması, atəş hazırlığı üçün metodik göstərişlərin, döyüş hazırlığı üçün proqram və cədvəllərin hazırlanması, artilleriya sahəsində təkmilləşmələrə nail olmaq üçün xüsusi topçu qruplarının yaradılaraq, ingilis zabitlərinin

yanında ixtisas təlimləri keçməsi, hərbi pilotlarımızın təkmilləşdirilməsi, hərbçilərin geyim formasının müəyyənləşdirilməsi və bu kimi tədbirlər M.Sulkeviçin rəhbərliyi ilə həyata keçirilmişdir.

M.Sulkeviç hərbi rəis kimi, genişmiqyaslı müharibə olacağı təqdirdə Azərbaycanın şimal sərhədlərinin müdafiə sistemlərinin qurulması, ehtiyat gəmilərinin hərbiləşdirilməsi, dəmir yolu xətlərinin mühafizəsi planı, arxa cəbhənin harada yerləşdirilməsi layihəsini hazırlamışdır. 1919-cu ilin iyun ayının 16-da Azərbaycan və Gürcüstan hökumətləri arasında hərbi ittifaqın bağlanmasında M.Sulkeviçin böyük köməyi olub. 1918-ci ilin iyun ayında general-leytenant Sulkeviçin fəal təşəbbüsü ilə Simferopol şəhərində "Rusiyada müsəlman millətlərinin müdafiə cəmiyyəti" yaradılmışdır. General Sulkeviçin həyat yoldaşı Məryəm xanım isə məşhur milyonçu H.Z.Tağıyevin qız məktəbində müəllim işləmiş və Bakı Müsəlman qadınlarının Xeyriyyə Cəmiyyətinin fəal üzvü olmuşdur.

***Açar sözlər**: Azərbaycan Xalq Cumhuriyyəti, M.Sulkeviç, ordu quruculuğu, mədəni tədbirlər*

## RUSİYA FEDERASİYASININ XARİCİ SİYASƏTİNDƏ AZƏRBAYCAN (1991-2018)

**Xəyalə Novruzova**
**BDU, Tarix fakültəsi, bakalavr, IV kurs**
**mussinanov9700@gmail.com.**
**Elmi rəhbər: dos. Sevda İsmayılova**

Azərbaycan-Rusiya münasibətlərinin çoxəsrlik tarixə malik olması ən çox hər hansı bir dövlətin öz qonşularını seçmə şansının olmamasından-bilavasitə geostrateji mövqedən irəli gəlmişdir. Ayrı-ayrı vaxtlarda əvvəlcə Rusiya imperiyasında, sonra SSRİ-nin tərkibində yer alan Azərbaycan 1991-ci il 18 oktyabr tarixindən fəal xarici siyasət xətti tutmuş, burada başlıca

istiqamət regionun hegemon dövləti olan Rusiya ilə əlaqələr kursu qarşıya məqsəd qoyulmuşdur. Bəs görəsən müasir Rusiya siyasətində Azərbaycan niyə və necə yer alır? Əlbəttə, Rusiyanın Cənubi Qafqazda geosiyasi maraqları həmişə olub və bu təbiidir. Təqribən iki yüz il ərzində bir-biri ilə əlaqəli olmuş bu iki dövlət arasında tarixi gerçəkliklər ortaq dəyərlər formalaşdıra bilmişdir. Rusiya və Azərbaycan bu gün də qarşılıqlı-faydalı əməkdaşlıq yolu tutaraq bu dəyərləri qoruyub saxlamaqla yanaşı öz növbəsində müstəqil siyasi xətti dostluq və təhlükəsizlik prizmasında davam etdirir.

Məqalədə əsas məqsəd qloballaşan dünya ticarət və siyasətində yeni ünsürlərin Rusiya və Azərbaycan əlaqələrinə təsiri və bu əlaqələrin hansı aspektdə qurulmasının dünya və Rusiya tarixi üçün əhəmiyyəti və nəticələri təhlil edilmişdir.

***Açar sözlər:*** *Rusiya, Azərbaycan, geosiyasi maraq, ikitərəfli əməkdaşlıq, Dağlıq Qarabağ, mədəni əlaqələr*

## XX ƏSRİN 90-CI İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA SİYASİ BÖHRANIN DƏRİNLƏŞMƏSİ VƏ VƏTƏNDAŞ QARŞIDURMASININ GÜCLƏNMƏSİ

**Xoşqədəm İslamova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi,t.f.d.**
**xoshgedem-islam@rambler.ru**
**Sevil Heydərova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi,t.f.d.**
**s_heydarova@mail.ru**

XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində keçmiş SSRİ-nin siyasi sisteminin süqutu və milli müstəqil dövlətlərin təşəkkülü ilə Azərbaycan Respublikasında yeni siyasi mübarizə tarixinin əsası qoyuldu.

Gəncə qiyamından sonra ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə dayanmışdı. Respublika prezidenti Ə.Əliyev (Elçibəy) əhalini qırğına verməmək üçün Heydər Əliyevi şəxsən Bakıya dəvət etdi. Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 13-14-də S.Hüseynovla danışıqlara başladı, məsələnin sülh yolu ilə həlli üçün çıxış yolları təklif etdi. Aparılan danışıqlar nəticəsində prezidentdən sonra idarəçilikdə ikinci səlahiyyətli vəzifə Baş nazir vəzifəsinə təyin olunacağı halda, qiyamı yatıracağını bildirən S.Hüseynov öz tərəfdarları ilə layiq olmadığı səlahiyyətə sahib oldular. Lakin, bu Heydər Əliyevin real silah gücünə malik olan qiyamçıları yatırmaq üçün müvəqqəti gördüyü tədbir idi. İyunun 15-də Parlamentin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Həmin gün Azərbaycanın müasir tarixinə "Qurtuluş Günü" kimi daxil oldu. Paytaxtda qardaş qırğınının qarşısını almaq üçün Elcibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını tərk edib, Naxçıvan MR-nın Ordubad rayonundakı Kələki kəndinə gedir. İyunun 24-də Elcibəyin öz istəyi ilə prezidentin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə tapşırılır.

1993-cü ildə dövlət idarəçiliyində kobud səhvlərin nəticəsi olaraq, ağır sosial iqtisadi gərginliyin yüksək həddə çatdığı, ölkənin vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı vaxtda xalqımızın Ümummilli lideri Heydər Əliyevə inanması təsadüf deyildi. Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtuldu.

1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Heydər Əliyev səs çoxluğu ilə Azərbaycan Respulikasının Prezidenti seçildi. Əhalinin yeni prezidentə etimad göstərməsi xarici qüvvələri narahat etməyə bilməzdi. Onlar müxtəlif vasitələrlə-terrorçuluq, sui-qəsdlər təşkil etməklə dövlət çevrilişinə can atırdılar. Hətta respublikada ərzaq qıtlığı yaratmaqla əhalini hakmiyyətə qarşı çıxmağa təhrik etməkdən belə çəkinmirdilər.

Beynəlxalq təşkilatların ölkəyə diqqətini cəlb etmək üçün Respublika daxilində ictimai-siyasi gərginliyin aradan qaldırılması və sabitliyin yaradılması ən vacib şərt idi.

Ulu öndər Heydər Əliyevin respublikanın xarici siyasətində atdığı ilk uğurlu addımlardan biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tərəflər arasında atəşkəsin əldə olunması idi. Bu addım ölkə iqtisadiyyatının inkişafına da yeni yol açmış oldu. Siyasi və iqtisadi böhran məngənəsində sıxılan respublika müstəqil dövlət quruculuğuna ilk addımlarını atmağa başladı.

***Açar sözlər:*** *böhran, siyasət, vətəndaş müharibəsi, mübarizə, sülh, Heydər Əliyev*

## AZƏRBAYCANLILARIN MÜHACİRƏTDƏ NƏŞR ETDİKLƏRİ BİR NEÇƏ DƏRGİ HAQQINDA : “MİLLİ ATEŞ”, “YASAMIZ”, “İLHAM KAYNAĞI”, “MİLLET ANDI”, “MUKADDES ODLAR ÜLKESİ” DERGİLERİ

**İlahə Xantəmirova**
**Türkiyə Cümhuriyyəti Akdeniz Universiteti**
**Sosial Bilimlər İnstitutu Tarix bölümü, doktorant**
**ilahakhantamirova@gmail.com**
**Elmi rəhbər:Doç.Dr Şahin Doğan**

Azərbaycan mühacirəti tarixi Azərbaycan Cümhuriyyəti tarixinin bir nəticəsi olaraq onun ayrılmaz tərkib hissəsi kimi qəbul edilə bilər. Cümhuriyyətin dağılması yüzlərlə azərbaycanlı aydının ölkəni tərk edərək mühacirət etməsinə səbəb oldu. Fərqli ölkələrdə məskunlaşmış bu münəvvərlərin sovetlərə qarşı mübarizə üsullarından biri mətbuat idi. Bu baxımdan, 1920-ci il aprel işğalından sonra geniş vüsət alan mühacirət mətbuatı azərbaycanlı aydınların əsas silahları olması nöqteyi-nəzərindən istiqlal tariximizin ən önəmli səhifələrindən birini təşkil etmək-

dədir. Məhz bu məbuat vasitəsi ilə Azərbaycan o cümlədən, bütün rus əsiri millətlər həqiqətləri dünyaya, eyni zamanda məxfi yollarla da olsa Azərbaycandakı insanlara çatdırmağa müvəffəq olmuşdular.

Məruzədə bu mətbuat nümunələrindən olan "Milli Ateş", "Yasamız", "İlham Kaynağı", "Millet Andı", "Mukaddes Odlar Ülkesi" dərgiləri incələnəcəkdir. 1930-cu illərə aid olan bu dərgilərin yalnız bir nömrəsi yayınlanmışdır. Əhatə etdiyi mövzular, məqalələri nəşr olunan müəlliflərin fəaliyyəti dərgilərin ətraflı şəkildə tədqiq olunmasını labüd edir.

Təsadüf nəticəsində Türkiyə Cümhuriyyəti kitabxanalarından birində qarşılaşdığımız bu dərgilər elmi ictimaiyyətə ilk dəfə təqdim olunur. Bu baxımdan, dərginin incələnməsi elmi yenilik kimi qəbul olunmalıdır.

Sovet ittifaqının dağılmasından sonra araşdırılmağa başlanılan bu mövzu hal-hazırda azərbaycanlı tarixçilər tərəfindən hərtərəfli şəkildə tədqiq olunmaqdadır. Lakin, davamlı olaraq əldə olunan yeniliklər mövzunu bugünkü günümüzdə də aktual edir.

***Açar söz**: Azərbaycan mühacirəti, mətbuat, cümhuriyyət, dərgi, mühacirlər*

## İSMAYIL ŞIXLININ "ÖLƏN DÜNYAM" ROMANINDA CÜMHURİYYƏT DÖNƏMİ AZADLIQ MÜCADİLƏSİNİN BƏDİİ İFADƏSİ

**İlkin Qulusoy**
**Türkiyə, Qars, Kafkas Universiteti,dosent**
**ilkingulusoy@gmail.com**
**Könül Quliyeva**
**Türkiyə, Qars, Kafkas Universiteti, doktorant**

Azərbaycanın ədəbi-mədəni həyatında orijinal dəsti-xətti ilə seçilən İsmayıl Şıxlı bütün həyat və yaradıcılığını Azərbaycançılığa həsr etmiş, milli mentalitet, vətənin azadlığı, müstə-

qillik duyğusu ilə yazıb yaratmışdır. Yazarın "Ölən dünyam" romanında da bu mövzular aktual olmaqla yanaşı, Şərqdə ilk respublika olan Azərbaycan Demokratik Respublikasının yaşaması uğrunda aparılan mübarizələr Gəncə hadisələri fonunda işıqlandırılmışdır.

***Açar sözlər:*** *İsmayıl Şıxlı, "Ölən dünyam", Azərbaycan Demokratik Respublikası, Gəncə hadisələri*

## 1918-1919-CU İLLƏRDƏ ERMƏNİSTAN-AZƏRBAYCAN ƏRAZİ MÜNAQİŞƏSİNDƏ BÖYÜK BRİTANİYANIN SİYASƏTİ

**İlqar Niftəliyev**
**AMEA Tarix Institutu, dosent**
**ilg4352@yandex.ru**

1918-ci ilin sonlarında «Dördlər ittifaqının» dünya müharibəsində məğlubiyyəti ilə Cənubi Qafqaz regionunda təqribən bir il davam etmiş Antanta hegemonluğu dövrü başlayır. 1918-1919-cı illərdə onun bölgədə əsas təmsilçisi rolunda Böyük Britaniya çıxış edirdi. Böyük Britaniya hökümətinin Cənubi Qafqaz bölgəsində qarşılaşdığı ən ağır məsələ Ermənistan-Azərbaycan ərazi münaqişəsi idi. Bu münaqişə ingilisləri daim ona müdaxilə etməyə, tərəflər arasında sülhü qorumaq üçün qoşunlarını isti nöqtələrə göndərməyə məcbur edirdi. Bununla yanaşı, Böyük Britaniya hökümətinin Ermənistan-Azərbaycan ərazi münaqişəsinin həll edilməsi üçün hazır planı yox idi. Belə bir şəraitdə ingilislər regionda yaranmış hərbi-siyasi konfiqurasiyanı nəzərə alaraq hərəkət edirdilər. Onlar münaqişəyə səbəb olmuş əraziləri müvəqqəti olaraq Ermənistan (Naxçıvan və ətraf bögələri) və Azərbaycan (Qarabağ və Zəngəzur) hökümətlərinin nəzarətinə keçməsinə qərar

vermişdilər. Beləliklə, Ermənistan hökümətinin Qarabağ və Zəngəzur məsələsində sərt etirazını nəzərə alan ingilis komandanlığı Naxçıvanı və ətraf bölgələri Ermənistanın nəzarətinə verməklə tərəflər arasında sərhəd mübahisələrinin həllində bir növ tarazlıq yaratmağa çalışmışdı. Digər tərəfdən Naxçıvan və ətraf bölgələri Ermənistana tabe etməklə ingilislər Azərbaycanla Türkiyə arasında bir erməni kordonu yaradaraq, onlar arasında olan bir-başa əlaqəni daraltmağa və ümumiyyətlə türklərin Cənubi Qafqaza, o cümlədən Azərbaycana qapısını bağlamağa çalışırdılar. Lakin ingilis komandanlığı münaqişə tərəfləri arasında günahkarların axtarılması və cəzalandırılması deyil, münaqişə tərəflərini sakitləşdirmək, ərazi ziddiyyətlərinin geniş miqyaslı hərbi əməliyyatlara çevrilməsinin qarşısını almağa çalışırdı. Çünki hadisələrin bu məcrada inkişafı bolşeviklərin genişlənməkdə olan ekspansiyasına qarşı vahid blokun yaradılmasına mane ola bilərdi.

Beləliklə, İngiltərə keçmiş Rusiya imperiyasının cənubunda yaranmış xırda dövlətlərə və anti-bolşevik qüvvələrə dəstək verməklə onlardan özünün Yaxın Şərqdə olan mülklərini bolşevik təhlükəsindən qorumaq üçün bir baryer kimi istifadə etməyə çalışırdı.

Digər tərəfdən, Böyük Britaniya yerli siyasi qüvvələr qarşısında üzunmüddətli öhdəliklər və bölgədə yaranmış vəziyyətlə bağlı məsuliyyəti tam öz üzərinə götürmək istəmirdi. O, regionda baş verən hadisələrdə öz iştirakını müvəqqəti, Ermənistan-Azərbaycan ərazi münaqişəsinin həllini isə son olaraq Paris sülh konfransında Rusiyanın gələcək quruluşu ilə bağlı yekun qərarından asılı hesab edirdi və ardıcıl olaraq bu siyasətə sadiq qalmışdı.

***Açar sözlər:*** *Böyük Britaniya, Azərbaycan, Ermənistan, Qarabağ, Naxçıvan, münaqişə, hökumət*

# 1831-Cİ İL KAMERAL TƏSVİRİNƏ GÖRƏ İRƏVAN ŞƏHƏRİNİN SƏRHƏDLƏRİ, ƏRAZİSI VƏ ƏHALİSİ

**İradə Məmmədova**
**AMEA Tarix İnstitutu, dosent**
**irade.mammadli@gmail.com**

İvan Şopenin rəhbərliyi ilə qeydiyyatçı katib Arxip Rıjkov tərəfindən 1831-ci ildə tərtib edilmiş "İrəvan şəhərinin kameral təsviri" Ermənistan Respublikasının Milli Arxivində saxlanılır. Bu arxivdəki kameral təsvirin k.ü.f.d. Nazir Əhmədli tərəfindən əldə edilən surəti tərcümə və tərtib edilərək Azərbaycan dilində 2018-ci ildə nəşr edilmişdir. Tədqiqatda "İrəvan şəhərinin kameral təsviri"nin Nazir Əhmədli tərəfindən tərcüməsindən istifadə olunmuşdur. Məqalədə bu kameral təsvirin əsasında İrəvan şəhərinin sərhədləri, ərazisi, əhalisinin etnik, dini, sosial, say, cins və yaş tərkibi araşdırılacaqdır. Bununla yanaşı, İrəvan şəhərinin kameral təsvirində verilən məlumatlar Şopenin "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə" kitabında vermiş olduğu məlumat və rəqəmlərlə müqayisə ediləcək, eyni zamanda dövrün digər qaynaqlarındakı məlumatlarla da qarşılıqlı analizi veriləcəktir.

1831-ci il "İrəvan şəhərinin kameral təsviri"nə görə İrəvan şəhərinin sərhədləri bu şəkildə idi: Qərbdə Yeğvard çölü, şimaldan böyük Eçmiədzin (Üçkilsə) yoluna qədər (onun yuxarısından Qırxbulaq mahalı başlayır), şərqdə Çölməkçi kəndinin bağları və ondan cənuba doğru uzanan dağlar, cənubda Zəngibasar mahalı ilə.

Bu kameral təsvirə görə, İrəvan şəhərinə Zəngibasar körpüsündən Dəmirbulaq ətrafındakı ərazilər, Abbasdərə, Köşəkli, Abihəyat, Dərəbağ, Qızılqala məhəlləri, kəndlərdən Zənginin sağ tərəfi ilə Dəlmə və Noraguğ ərtafları və geriyə doğru 20 verstdən az olmayan ərazilər daxil idi, bu ərazilərin 9/10

hissəsini isə bağlar əhatə edirdi. İrəvan şəhəri Şəhər, Təpəbaşı və Dəmirbulaq hissələrindən ibarət olub, öz növbəsində ayrı-ayrı məhəllərə ayrılırdılar.

1831-ci il “İrəvan şəhərinin kameral təsviri”nə görə, İrəvan şəhərində yaşayan 11463 nəfərdən 64% tatar, 34,3% erməni, 1,7% boşa olmuş, ümumlikdə şəhər əhalisinin 51,4%-ni kişi, 48,6%-ni qadın, 9,8%-ni imtiyazlı təbəqə təşkil etmişdir.

**Açar sözlər:** *İrəvan şəhəri, kameral təsvir, Şopen, əhali, sərhədlər*

## MÜASİR DÖVRDƏ AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARININ BİRGƏ FƏALLİYYƏTİ

**İsa Hüseynov**
**AMEA Tarix İnstitutu, doktorant**
**isa_huseynov@mail.ru**
**Elmi rəhbər : t.e.d. Məryəm Seyidbəyli**

Hazırda beynəlxalq birliyə qətiyyətlə inteqrasiya edən Azərbaycan diasporu demək olar ki, dövlətimizin xarici siyasətinin ana qolunu təşkil edir. Milli maraqlarımızın dəstəklənməsində və qorunmasında diasporanın əhəmiyyəti böyükdür. Bu gün Azərbaycan diasporu üçün aktual olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlıların məruz qaldığı terror və soyqırım aktları, uydurma "Erməni soyqırımı", “907-ci düzəliş”, Kipr, "kürd" məsələləri barədə beynəlxalq təbliğat kampaniyaların yüksək səviyyədə təşkil edilməsi məsələləridir. Bu məqsədlə Azərbaycan və Türk diaspora təşkilatlarının qarşılıqlı sıx əlaqə quraraq, erməni diaspor təşkilatlarının fəaliyyətinin nəticələrini neytrallaşdırmaq, təsirsizləşdirmək yönündə tədbirlər görülməlidir.

Türkdilli dövlətlərin və cəmiyyətlərin dostluq, qardaşlıq və əməkdaşlığın XI qurultayı Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birgə fəaliyyətinin qurulmasında və gücləndirilməsində tarixi rol oynamışdır. Belə forumlar iki qardaş dövlətin milli maraqlarını təmin etməyə imkan yaradır. Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi genişmiqyaslı layihələr iki dövlətin rəhbərliyi tərəfindən həyata keçirilən uğurlu müstəqil siyasətin təzahürüdür. Biz, hər işdə bir-birimizə güvənir və bizim milli və dövlət maraqlarımız üst-üstə düşür.

Hesab edirəm ki, Türkiyə və Azərbaycana qarşı erməni, yunan diasporlarının fəaliyyətinə layiqli cavablar verilməsi üçün hər bir ölkədə Türk-Azəri İnformasiya Mərkəzlərinin təsis edilməsi və buradan sərbəst istifadə etmək hüquqlarının diaspora verilməsi, Türk-Azəri tarixi, dili, elmi və birgə fəaliyyəti barədə onlayn dərslərin və virtual unversitetlərin təsis edilməsi, Türk-Azəri muzey, teatr və digər incəsənət yerlərinin virtual veriyasını yaratmaqla beynəlxalq aləmdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türk Dövlət və Cəmiyyətlərinin X Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında söylədiyi kimi “Biz hücuma keçməliyik” strategiyası ilə üst üstə düşür. Bu layihələrin elmi yenilikdən real həyata keçirilməsi dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız qarşısında duran başlıca vəzifə olan Azərbaycan və Türkiyə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında böyük rol oynayacaqdır.

***Açar sözlər:*** *Türkiyə-Azərbaycan münasibətləri, diaspor, Heydər Əliyev, türk dünyası*

# XX ƏSRİN İKİNCİ YARISINDA ERMƏNİSTANDA KADR SİYASƏTİ

**İsmayıl Tanrıverdi**
**Bakı Dövlət Universitetı, Tarix fakültəsi, böyük elmı işçi**
**tanriverdi.ismayil@gmail.com**

II dünya müharibəsindən sonrakı dövrdə Ermənistanda azərbaycanlıların sayının getdikcə artmasından narahat olan ermənilər bu artımın qarşısını almaq üçün yeni planlar hazırlamağa başladılar. Bu, İ.Stalinin tapşırığı ilə 1948 və 1953 cü illərdə həyata keçirilən Azərbaycanlıların Ermənistandan deportasiyası planı idi. 1953-cü ildə Stalinin ölümündən və növbəti deportasiya başa çatdıqdan sonra Ermənistanda müxtəlif vəzifələrdə çalışan azərbaycanlıların sayı demək olar ki, sıfıra endi. Yalnız kəndlərdə olan kolxoz sədri və məktəb direktoru vəzifələrində azərbaycanlı kadrlara rast gəlmək olardı. Buna görə də, ali təhsilli azərbaycanlılar iş tapmadıqlarına görə tədricən ölkəni tərk etməyə məcbur olurdular.

Azərbaycanlıların ən çox yaşadığı rayonlar Amasiya və Vardenis (Basarkeçər) rayonları idi. Bu rayonlarda demək olar ki, bütün rəhbər vəzifələrdə ermənilər çalışırdı. Yalnız 1969-cu ildən başlayaraq rəsmi Moskvanın göstərişi ilə azərbaycanlıların çoxluq təşkil etdiyi yerlərdə onlar müxtəlif vəzifələrə cəlb olunmağa başladılar. Rayon partiya komitələrinin I katibi, İcraiyyə komitəsinin sədri vəzifələrinə azərbaycanlıların seçilməsinə məhdudiyyət və limit qoyulub.

Bütün bunlara baxmayaraq, azərbaycanlılar üçün qoyulmuş limit əksər hallarda ermənilərin xeyirinə olaraq pozulurdu

***Açar sözlər:*** *azərbaycanlılar, deportasiya, kadr siyasəti, Amasiya rayonu*

# II DÜNYA MÜHARİBƏSİ ZAMANI QAFQAZ MÜSƏLMANLARI LEGİONUNUN FORMALAŞMASINDA MÜHACİRLƏRİN FƏALİYYƏTİ

**Kəmalə Məmmədova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dissertant**
**Kamala-71@mail.ru**
**Elmi rəhbər: prof. Əsməd Muxtarova**

XX əsrin 90-cı illərinə qədər keçmiş Sovetlər Birliyi ərazisində, o cümlədən Qafqazda yaşayan xalqların tarixində elə səhifələr var ki, uzun illər ərzində bu səhifələr sovet ideologiyası baxımından ya təhrif edilmiş, ya da onlar haqqında yazmaq və danışmaq yasaq edilmişdi. Lakin, zaman elə gətirdi ki, bu səhifələrin yenidən açılıb yazılması üçün tarixi şərait yarandı. Bu səhifələr içərisində Qafqaz xalqlarının 1917-1920-ci illərdən sonra siyasi vəziyyətlə əlaqədar xaricə köç etmiş mühacirləri və İkinci Dünya Müharibəsi zamanı alman hərbi birləşmələrində fəaliyyət göstərən legionerləri ilə bağlı mövzular da önəmli yer tutur.

Məqalədə sovet tarixşünaslığında bu mövzulara baxış nəzərdən keçirilməklə, toxunulmayan məqamlara aydınlıq gətirilməyə calışılır, xarici və son dövr tarixşünaslığında məsələlərin qoyuluşuna diqqət yetirilir. Xüsusilə, siyasi mühacirlərin İkinci Dünya Müharibəsi ərəfəsində və gedişində fəaliyyətlərindəki başlıca məqamlara aydınlıq gətirilərək, eyni zamanda almanların bu dövrdə Sovet İttifaqının türk-müsəlman, o cümlədən, Qafqaz müsəlmanları xalqlarına qarşı mövqe dəyişikliyi çərçivəsində “Hitler Almaniya"sı və Nasist hərəkatının maraqları açıqlanır. Məqalədə, həmçinin Qafqaz müsəlmanları legionlarının formalaşmasında mühacirətin fəaliyyəti və legionerlərə dəstəyindən söhbət açılır, Qafqaz müsəlmanları xalqlarından formalaşan legionların niyə alman cəbhəsində vuruşduğu və bunun hansı

nəticələrlə sonuclanması suallarına cavab axtarılır.

***Açar sözlər:*** *Qafqaz müsəlmanları, mühacirlər, II dünya müharibəsi, legionlar, Hitler Almaniyası*

## MÜSTƏQİLLİK DÖNƏMLƏRİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ NUMİZMATİK MATERİALLARDA ƏKSİ

**Qənirə Pirquliyeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**p_qanira@hotmail.com**

Ölkəmizin və xalqımızın müstəqillik dönəmlərinin tarixlərini son yüzilliklərlə əlaqələndirmək, fikrimizcə düzgün deyildi. Problemin araşdırılmasında elmlərin inteqrasiyası məsələsi mühüm yer tutur. Belə ki, XIX əsrin ortalarından başlayaraq keçən əsrin əvvəllərini əhatə edən bir zaman çərçivəsində bütün Qafqazda, həmçinin müasir İran ərazisində aparılan arxeoloji, etnoqrafik, numizmatik araşdırmaların nəticələrinə əsaslanaraq, günümüzdə azərbaycançılıq ideyasının tarixinin daha qədim tarixə malik olmasını sübut edə bilən maraqlı elmi mülahizələr mövcuddur. Bunlardan bəzilərini aşağıdakı şəkildə sıralamaq mümkündür:

1.Azərbaycançılıq ideyasının əsas gücü türkçülükdür. Türkçülük yalnız dil məsələsi deyildi. Bu ideologiyanın kökündə bəşər övladına sevgi, Yaradanın bütün qövmlərinə eyni münasibət, dövlət və dövlətçilik kimi mühüm məsələlər əsas yer tutur desək yanılmarıq. Belə ki, "Kitabi Dədə Qorqud", "Oğuznamələr"də olan eyni münasibət, həm də tarixi etnoqrafiya elminin araşdırmalarında öz əksini tapmaqdadır.

2.Azərbaycan adının numizmatik materiallarda öz əksini tapması ilk dəfə e.ə. III əsrdə Atropatena ərazisinə aid olan və

indiki Həmədan şəhərində zərb edilən gümüş sikkələrdə olan AS, ASB şəklində monoqramlarda əks olunduğunu ehtimal edirik. Gümüş sikkələr Əməvilər (VII əsr), Sacilər, Salarilər (X əsr) və Əfşarların (XVIII əsr) hakimiyyəti zamanı da Azərbaycanda zərb olunmuşdur.

3.Bu cür dövlətçilik ideologiyasının mövcudluğu tarixdə itib gedə bilməzdi. 1918-ci ildə bu müstəqillik əldə edildikdə tarixi yaddaş yenidən azərbaycançılıq ideologiyasını, türkçülük məfkurəsini bərqərar etmişdi. 1991-ci ildən dövləçiliyimizin əsasını təşkil edən azərbaycançılıq və türkçülük ideoloji cəbhəmizin kökü olaraq, güclənməkdə və həyata keçirilməkdə davam edir.

***Açar sözlər:*** *maddi mədəniyyət nümunələri, azərbaycançılıq və türkçülük, müstəqillik rəmzləri, numizmatika, sikkə*

## AZƏRBAYCAN XALQ CÜNHURİYYƏTİNİN YARANMASINDA SİYASİ MƏKTƏBİN ROLU

**Qərənfil Xəlilova**
**Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi, s.e.f.d.**
**garanfil.khalilova@gmail.com**

AXC-nin yaranması siyasi məktəb olmadan mümkün deyildi. Mövzunun aktuallığı ona əsaslanır ki, cəmiyyətin inkişafının istənilən mərhələsində siyasi məktəbə ehtiyac var və bu məsələnin tarixi təcrübə üzərində qurulması daha çox səmərə verir.

Məqalənin elmi yeniliyi, həmin dövrdə bu siyasi məktəbin praktik fəaliyyətinin, ilk dəfə olaraq, sistemli təhlili əsasında araşdırılmasıdır. AXC-nin yaranması ərəfəsində siyasi məktəbin başında İsmayıl bəy Qaspıralı, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə kimi nəhəng şəxsiyyətlər dururdu. Onlar, fəaliyyətlərini

ümumbəşəri, ümumtürk, ümummüsəlman mövqeyindən həyata keçirir, milli düşüncəni müstəqillik ideyalarına yönəldirdilər. Sonralar onların hər biri ayrı-ayrılıqda öz siyasi məktəblərini yaratdılar, ardıcıllarını yetişdirdilər və bu, AXC-nin yaranmasında, eləcə də müstəqilliyin qorunmasında çox böyük fayda verdi.

Siyasi məktəbin yaradıcıları hər addımda birlik nümayiş etdirirdilər. Məsələn, "Əkinçi" də, "Tərcüman" da müsəlmanların yaşadıqları hər yerdən və hər şeydən yazırdı, hər yerə də yayımlanırdı. 1905-ci ildə "İttifaq-i Müslimin" adlı parttiyanın yaradılması ilə bağlı gizli yığıncaqda azərbaycanlılar da iştirak etmişdilər.

Elmi nəticələr aşağıda göstərilən istiqamətləri araşdırmaqla, bu günümüzlə səsləşən dəyərləri müəyyənləşdirməkdən ibarətdir:

1.Siyasi məktəbin strukturu
2.Səmərəli idarəetmə və fəaliyyyət mexanizmi
3.Liderlərin, eləcə də ardıcılların öhdəsinə düşən vəzifələr və s.

***Açar sözlər**: AXC, siyasi məktəb, lider, hədəf, elita, ənənə, İ.Qaspiralı, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TƏHSİLİN ALİ PİLLƏSİNƏ DAİR

**Qızyetər Əhmədzadə**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, bakalavr, IV kurs**
**qizyeter.ehmedzade98@mail.ru**
**Elmi rəhbər: t.f.d. Zəhra İslamova**

Məqalədə Azərbaycanın ən şanlı səhifələrindən biri olan AXC dövründə təhsil sahəsindən və həmin sahədə atılan uğurlu addımlardan bəhs olunmuş, təhsilin inkişaf etdirilməsinə xüsusi önəm verilməsi, yeni layihələrin qəbul olunması öz əksini

tapmışdır. Digər sahələrdə olduğu kimi təsil sahəsində də yeniliklər, görülmüş tədbirlər mühüm əhəmiyyət kəsb etmişdir. Həmçinin parlamentin keçirdiyi iclaslarda həmin dövrün maariflə bağlı aktual məsələləri gündəmə gətirilmişdir. Milli universitetin açılması ilə əlaqəli görülmüş tədbirlər haqqında məlumat verilmişdir. Parlamentdə Mehdi bəy Hacinski, Həsən bəy Ağayev, Mustafa Mahmudov və.b mütəfəkkirlərin müzakirələrdə irəli sürdüyü fikirlər qeyd edilmişdir. Ən əsası isə M.Ə.Rəsulzadənin öz çıxışında Milli Universitetin açılması zəruriyyətinin yarandığını izah etməsi haqqında söylədiyi nitqlər barədə məlumat verilmişdir. "Əhrar", "İttihad" və bir sıra digər partiya nümayəndələrinin Milli Universitetlə bağlı çıxışları əks etdirilmişdir. Azərbaycan gənclərinin xarici ölkələrə təhsilini davam etdirmək üçün göndərilməsi, maarif sahəsində çalışanların əmək haqqları, açılacaq universitet, məktəb və gimnaziyaların sayı və tərkibi haqqında uzunmüddətli müzakirələrdən bəhs edilmişdir. Qəbul olunan qərarlar ilə bağlı 5 fəsil 72 maddədən ibarət Universitet nizamnaməsinin qəbulu haqqında məsələlər qeyd olunmuşdur. Savadsızlığın aradan qaldırılması yolunda uğurlu addımların atılmasının əhəmiyyəti göstərilmişdir. Azərbaycan gəncliyinin elm sahəsində digər dövlətlərə inteqrasiyası ilə bağlı məlumat verilmişdir. Nəhayət, bütün bunlar nəticəsində Azərbaycan xalqı öz milli kadrlarının hazırlanmasına başlamışdır.

***Açar sözlər:*** *Azərbaycan, Cümhuriyyət, təhsil, maarif, parlament, iclas, universitet, gimnaziya, mütəfəkkir, müzakirə, partiya, nizamnamə*

# MÜASİR AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ MƏSƏLƏLƏRİ

**Lalə Əfəndiyeva**
**Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, f.f.d.**
**lalare@mail.ru**

Hər bir müstəqil dövlətin mühüm atributlarından biri dövlət dilinin olmasıdır. Bu cəhətdən Azərbaycan Respublikasının dövlət dili – Azərbaycan dilinə münasibət və qayğı, onun inkişaf problemləri də yeni mövzu deyil. Azərbaycan dilinə dövlət qayğısı hələ Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi ilk günlərdən ön planda olmuşdur və bu gün dilimizin dövlət dili statusu daşıması tarixi varislik kimi qəbul edilir. Azərbaycan dilinin dövlət dili statusu daşıdığı bütün əsaslı tarixi dönəmlərdə dil və nitq məsələləri, dilin saflığı uğrunda mübarizə aktual məsələlərdən biri olmuşdur və bu gün də gündəmdədir.

Hər bir konkret tarixi dönəmdə bizim nitqimiz cəmiyyətdə baş verən bütün əlamətdar hadisələrə dərhal reaksiya verir. Hal-hazırda müasir Azərbaycan dilinin vəziyyəti, əhalinin müxtəlif təbəqələrinin nitq mədəniyyəti səviyyəsinin aşağı enməsi cəmiyyətdə böyük narahatlıq doğurur. Cəmiyyətin bütün sahələrində, xüsusən KİV-də, reklam və afişaların dilində, gündəlik ünsiyyət prosesində dil normalarının kobud şəkildə pozulması müşahidə edilir.

Məqalədə nitq mədəniyyətinin müxtəlif sahələrdəki vəziyyətinin araşdırılması nəticəsində əldə edilən qənaətlər ümumiləşdirilmişdir. Araşdırmaya KİV, televiziya və radio verilişlərinin aparıcılarının dili, reklam və elanların dili ilə bağlı materiallar cəlb edilmişdir. Mövcud problemlərin aradan qaldırılması üçün onların kökünə nəzər salınmalıdır. Bu problemlər bir sıra səbəblərdən köklənir: birincisi, kütləvi kommunikasiya

iştirakçılarının əhatəsi son dərəcə geniş və müxtəlifdir (müxtəlif yaş dövrləri, təhsil səviyyəsi, əqidə və siyasi görüşləri və s. bir-birindən tamamilə fərqli olan insanlar bir araya gəlir); ikincisi, rəsmi senzura tamamilə aradan qaldırıldığına görə insanlar öz fikirlərini tam sərbəst şəkildə ifadə edirlər, onların nitqi daha açıq, daha inamlı şəkil alır. Üçüncüsü, irəlicədən hazırlanmamış, spontan nitq daha çox üstünlük təşkil edir və ünsiyyətin müxtəlif situasiyalarda qurulması onun xarakterinin dəyişməsinə gətirib çıxarır, əksər hallarda rəsmiyyət tamamilə aradan qaldırılır. Müasir nitq mədəniyyəti sahəsində göstərilən problemlərin aradan qaldırılması bilavasitə dil daşıyıcıları və bu sahənin mütəxəssislərinin birgə səyi ilə aradan qaldırıla bilər.

***Açar sözlər:*** *nitq mədəniyyəti, qrammatik norma, leksik norma, KİV dili, reklamların dili*

## HEYDƏR ƏLİYEV İRSİNDƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI VƏ DOĞMA YURDLARINDAN DEPORTASİYA EDİLMƏSİ MƏSƏLƏLƏRİNƏ MÜNASİBƏT

**Leyla Hüseynova**
**AMEA Tarix İnstitutu, dosent**
**I_huseynova@mail.ru**

Azərbaycan Respublikasında XX əsrin sonu milli şüurun oyanışının yeni mərhələsi ilə xarakterizə olunur. Soy kökünə, milli tarixə qayıdış tarixi tədqiqatların istiqamətinə də təsir göstərdi. Yeni tarixi tədqiqatlar dalğası başladı. Elmi və publisistik yazılarda tariximizə olan yad münasibət tənqid olunur, təhrif və saxtalaşdırılmalar arxiv sənədlərinə əsasən təhlil edilirdi. Azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət də yeni məzmun

aldı. Sistemsiz, dağınıq elmi araşdırmalara baxmayaraq, mövzunun tədqiqi dövrün ictimai-siyasi axarı ilə uzlaşırdı. Qafqazın geosiyasi durumu tarixə nəzər salmağı, azərbaycan-türk xalqının aborigen xalq olaraq regionda əsas etnik amil kimi varlığının isbatını vacib edirdi. Soyqırımı və deportasiyalar tarixinə müraciət təkcə elmi müstəvidə deyil, dövlət səviyyəsində də aktuallaşdı.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan tarixi məsələləri yeni mərhələyə qədəm qoydu. Azərbaycan-Ermənistan arasında Qarabağ müharibəsinin ağır nəticələri ideoloji mübarizənin vacibliyini və hətta bu mübarizədə gecikdiyimizi ortaya qoydu. Bu səbəbdən də Heydər Əliyev ermənilərin azərbaycanlılara qarşı təcavüzkar siyasətinin tarixinin açılmasına, bu tarixin tədqiq və təbliğinə ciddi yanaşma sərgilədi.

Bu yazımızda isə biz, diqqəti əsasən Heydər Əliyev dühasının fəaliyyəti müddətində həm bir azərbaycanlı, həm bir tarixçi, həm də bir siyasətçi olaraq tarixən azərbaycanlıların başına gətirilmiş müsibətlərə, soyqırım və deportasiyalara münasibəti məsələsinə yönəltməyə çalışacağıq.

***Açar sözlər:*** *Heydər Əliyev, soyqırımı, deportasiya, həmrəylik, Dağlıq Qarabağ*

## AVROPA İTTİFAQININ ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ MÖVQEYİNƏ DAİR

**Leyla Vaqif qızı**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, t.f.d.**
**leyla-vaqif@mail.ru**

Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddiaları zəminində başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan ərazilərinin 20 faizinin işğalı, 1

mln nəfərdən çox qaçqın və köçkünu yurd-yuvasından didərgin düşmə ilə nəticələnmişdi. Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun işğalı Azərbaycanın infrastrukturuna ağır zərbə vurmuşdu. Ermənistanın təcavüzkar siyasətinin qarşısının alınması və işğal olunmuş ərazilərin azad edilməsi dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin prioritet məsələlərindəndir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı ilə münasibətlərində həmişə əsas müzakirə obyekti olmuşdur. Avropa Birliyinin bu münaqişəyə ilk rəsmi münasibəti 1992-ci ilə aiddir. Təşkilat münaqişə zonasında hərbi əməliyyatların kəskinləşməsi ilə əlaqədar olaraq, həmin il mayın 22-də bəyanatla çıxış etmişdi. 1992-ci ilin yayında münaqişə bölgəsində hərbi əməliyyatların davam etməsi Avropa Birliyini bir daha bu məsələyə qayıtmağa vadar etmişdi.

Beynəlxalq hüquq prinsiplərini rəhbər tutan rəsmi Bakı problemi dinc vasitələrlə, o cümlədən beynəlxalq təşkilatların iştirakı və vasitəçiliyi ilə həll etməyə üstünlük verir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi XXI əsrdə də Azərbaycan-Avropa İttifaqı münasibətlərində müəyyən yer tutur.

***Açar sözlər:*** *Dağlıq Qarabağ, münaqişə, Avropa İttifaqı, Azərbaycan, Ermənistan*

## CÜMHURİYYƏTİN 100 İLİNDƏ: HÜSEYN CAVİD MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ TƏHLİLLƏRİNDƏ

**Lütviyyə Əsgərzadə**
**AMEA Ədəbiyyat İnstitutu, f.e.d.**
**asgerzadelutviyye@yahoo.com.tr**

“Kafkasyanın (Azərbaycanın) istiqbalını İrana nisbətdə daha ziyadə parlaq görən” Hüseyn Cavid bu qənaətdə idi ki, xalqımızın müstəqillik qazanacağı gün uzaqda deyil. Böyük uzaq-

görənliklə dediyi bu sözlərdə Cavid yanılmamış, 28 May 1918-ci ildə Şərqdə - Azərbaycanda Xalq Cümhuriyyəti qurulmuşdur. Təəssüf ki, Cümhuriyyətin ömrü az olmuş, Azərbaycan bolşeviklər tərəfindən işğal edilmişdir (1920). Özləri ilə yad mədəniyyət, yad ədəbiyyat, yad musiqi gətirən, adət-ənənələrimizə, musiqimizə, ədəbiyyatımıza qarşı ideoloji hücuma keçən bolşeviklər həyatda və sənətdə sosialist inqilabını başa çatdırmaq üçün şüur və psixologiyada yeni bir qəlib - sosialist realizmi qəlibi yaratdılar və sənət adamlarından bu qəlibə sədaqətli olmaları istəndi. Yəni sosialist realizmi (1933) ədəbiyyatımızı kommunist partiyasının təbliğatı ilə məşğul olmağa məcbur buraxdı. Sovet Azərbaycanı dövründə milli mədəniyyəti, milli ruhu, Türkçülüyü-Turançılığı proletar mədəniyyətinə qarşı müdafiə edən Hüseyn Cavid düşüncələrini yaradıcılığına daşıdı. Sovet İttifaqının qurulmasından sonra yazdığı "Topal Teymur" milli məzmununa görə, SSRİ başçılarını bir xeyli məşğul etdi. Ədibin "Peyğəmbər"i, "Səyavuş"u da bu qəbildəndir. Cavidin milli istiqlal ideologiyasının təbliğatı olan "Səyavuş" əsəri bir növ M.Ə.Rəsulzadənin siyasi fəlsəfi əsəri "Əsrimizin Səyavuşu"nun bədii dildə ifadəsidir. Azərbaycan Cümhuriyyətinin milli ideologiyasının mahiyyətini əks etdirən bu əsərdə Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə bənzədən Rəsulzadənin qənaətinə görə, İranla Turan arasında qalan Səyavuşla, Rusiya və İran arasında bölüşdürüləməyən Azərbaycan eyni taleyi yaşayır. Yalnız Firdovsinin Səyavuşundan fərqli olaraq Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" adlı idealının bir gün azadlığa qovuşacağı xüsusu ilə vurğulanır. Rəsulzadənin Cavidin Peyğəmbərini bolşevizm şəraitində yazıçının öz düşüncələrini söyləməyə fürsət axtardığını göstərə bilmək üçün son dərəcə gözəl əsər kimi dəyərləndirməsinin əsasında ədibin yaradıcılığının ruhunu "turk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvolu" olan 3 rəngin; göy (türkçülük),

qırmızı (müasirlik), yaşılın (İslam) təşkil etməsidir.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, siyasi lider Məhəmməd Əmin Rəsulzadə, filosof yazar Hüseyn Cavid, Cavid yaradıcılığı Rəsulzadə təhlilində*

## QARABAĞ XANLIĞINDA ALİ ZÜMRƏ

**Mehman Abdullayev**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi,dosent**
**dos.mehman.abdullayev@gmail.com**

İlkin mənbələrdəki məlumatlar əsasında Azərbaycanda xanlıqlar dövründə ali zümrənin böyük əksəriyyətini təşkil edən bəyləri üç əsas dərəcəyə bölmək olar: 1. Köklü-əsilli bəylər. 2.Nəsli bəylər. 3.Şəxsi bəylər. Xanlıqda köklü bəylərin əksəriyyəti bu adı Səfəvi şahlarından aldıqlarından onların şəcərəsi daha qədim tarixə malik idi. Nəsli bəylərin isə əksəriyyəti bu titula hakim xanlar tərəfindən layiq görülmüşdülər. Bu tarixi gerçəklik xanlıqlar dövrünə aid bütün etibarlı mənbələrdə öz təsdiqini tapmışdır. Qarabağ xanlığında ali zümrənin tərkibi Mirzə Camal Cavanşirin məlumatlarında təhlil edilir. Bu məlumatlardan aydın olur ki, Xanın qardaşları, qardaşı uşaqları, öz övladları və əmisi uşaqları məruf bəylər olub, mal, dövlət, nökər və cəlal sahibi idilər. Onların hər biri başqa vilayətlərin xanlarına bərabər idi. Xanın övladları və yaxın qohumları ilə yanaşı, doqquz elin və beş mahalın başçıları da dövlət, əzəmət, cəlal və bünövrə sahibi olub, köklü bəylərin Mirzə Camalın yazdığı kimi "məruf bəylərin" sırasına daxil idilər. Xanın "özü tərbiyə edib, rəşadət, çalışqanlıq və səmimiyyətlərinə görə dövlət və rəiyyət sahibi etdiyi başqa bəyləri Mirzə Camal "məşhur bəylər" kimi qələmə vermişdir. Heç şübhəsiz həmin məşhur bəylər Qarabağ xanlığının nəsli bəylərini təmsil edirdilər. Bu adı onlar Qarabağ xanından almışdılar və xanın təliqəsi (fərmanı) ilə

həmin adı nəsildən-nəslə ötürmək hüququna malik idilər.

***Açar sözlər:*** *Qarabağ, xan, bəy, təliqə, ali zümrə*

## AZƏRBAYCAN RESPUBLİKASINDA MÜSTƏQİLLİK İLLƏRİNDƏ TƏHSİL

**Mətanət Məmmədova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent**
**metanet.memmedova.61@mail.ru**

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün sahələrdə mühüm dəyişikliklər baş verdiyi kimi, prioritet sahə olan təhsildə də yeni istiqamətin, yeni konsepsiyanın işlənməsi zəruri hal aldı, yeni təhsil sisteminə keçid vacib amilə cevrildi. SSRİ-nin dağılması ilə ikinci dəfə müstəqillik əldə edən Azərbaycanda cəmiyyətin demokratikləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər təhsil sahəsində də müasir ideyaların meydana çıxmasına, beynəlxalq təcrübənin öyrənilməsinə, Avropa təhsil sisteminə inteqrasiyaya, təhsilin forma və məzmunca yeniləşməsinə geniş imkanlar açdı, təhsilimizdə yeni təhsil standartlarının labüdlüyünü zəruri etdi. Bu zərurət təhsildə yeni bir qanunun 6 bölmə, 58 maddədən ibarət Təhsil Qanununun qəbulunu sürətləndirdi. Təhsil islahatının sonrakı illərində Təhsil islahatı Proqramının, 2005-ci ildə Ali təhsildə Boloniya, 2006-cı ildə isə Orta Ümumtəhsil məktəblərində Kurikulum təhsil modelinin tətbiqi, Yeni Təhsil Strategiyasının və Qiymətləndirmə konsepsiyasının hazırlanması, 2007-ci ildə Təhsil haqqında yeni qanunun hazırlanması milli zəminə, milli və ümumbəşəri dəyərlərə və demokratik xarakterə malik yeni təhsil sisteminin formalaşması demək idi. Təhsil cəmiyyət və dövlətin inkişafının əsasını təşkil etməklə yanaşı, həm də intellektual şəxsiyyət yetişdirən fasiləsizlik, humanistlik və digər prinsiplər əsasında inkişaf edən fəaliyyət sahəsidir. Müasir dövrümüzdə

təhsil məsələləri müntəzəm araşdırılmalı, mövcud çatışmazlıqlar üzə çıxarılmalı, onlarla mübarizə apararaq aradan qaldırılmalı, ölkənin inkişaf strategiyası, habelə kreativ müəllim və mütəxəssislərin yetişdirilməsi ön planda olmalıdır. Azərbaycanda təhsilin müasir durumunu müqayisəli təhlil edərək, mövzunun elmi əhəmiyyəti, əldə olunan yeniliklər və nəticələr barədə elmi məqalədə məlumat veriləcəkdir.

***Açar sözlər:*** *müstəqillik, reforma, Bolonya, kurikulum, təhsil*

## CƏNUBİ QAFQAZDA ERMƏNİ İDDİALARI YENİ ETNİK MÜNAQİŞƏNİN QAYNAĞIDIR (DAĞLIQ QARABAĞ-SAMSHATE-CAVAXETİYA MÜNAQİŞƏLƏRİ PARALELİNDƏ)

**Murad Əsədov**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, doktorant**
**esedov-m@mail.ru**
**Elmi rəhbər: dos. Səidə Quliyeva**

Qafqaz etnik və dil mürəkkəbliyi ilə seçilən regionlardandır. Araşdırmalar nəticəsində məlum olur ki, tarix boyu "Böyük dövlətlərin" Qafqaz siyasətində ermənilərdən istifadə edilmişdi. Belə ki, öz mərfur məqsədlərinin həyata keçirilməsi naminə məmnuniyyətlə hər zaman "alət" rolunu oynamışdılar. Erməni millətçi liderləri bunun müqabilində "dənizdən dənizə böyük Ermənistan" yaratmaq xülyasını onlar vasitəsi ilə həyata keçirməyə çalışmışdılar. Bu xülyaya təkcə Azərbaycan və Türkiyənin şərq torpaqları deyil, regionda yerləşən digər dövlətlərin də əraziləri daxildir. "Məzlum ermənilərə milli zəmində təzyiqlər" adı altında regionda müxtəlif yerlərdə münaqişə ocaqları yaratmaqla "erməni enozisi" vasitəsi ilə bu əraziləri birləşdirməyi nəzərdə tuturdular.

XX əsrin 90-cı illərində Cənubi Qafqazda Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyadan sonra regionda problem yaşayan bölgə Gürcüstanın cənub-qərbində yerləşən və mərkəzi Axıska olan Samtsxe-Cavaxetiyadır. Maraqlısı buradadır ki, Cənubi Osetiya istisna olmaqla, digər üç münaqişə ocağının yaranmasında erməni milliyyətçiliyi birbaşa və ya dolayı yolla iştirak etmişdir. Müasir erməni siyasi mühitinə təsir göstərən əsas məsələ və uydurma "dənizdən dənizə böyük Ermənistan" xülyasının şərq torpaqlarını təşkil edən Cavaxetiya problemidir. Belə ki, 1988-ci ildə Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağda ermənilərin ixtişaşlar yaratması ilə Cavaxetiyada yaşayan ermənilər arasında da separatizmin güclənməsinə səbəb oldu. Cavaxetiyadakı ermənilər arasında bölgəyə ilk öncə muxtariyyət verilməsi, gələcəkdə isə buranın Ermənistana birləşdirilməsi məqsədilə təşkilatlanma başladı. Ermənilər Dağlıq Qarabağdakı strategiyanı eyni ilə Cavaxetiyada da etmək istəyirdilər. Lakin, Gürcüstan hökuməti Dağlıq Qarabağ hadisələrindən nəticə çıxara bilmişdir. Ermənilərin Gürcüstana qarşı torpaq iddiaları XXI əsrdə də davam etmışdir.

Məqalə Gürcüstanın Cavaxetiya bölgəsində erməni separatizminin genişlənməsi haqqındadır. Burada qeyd edilir ki, ermənilər Cavaxetiya bölgəsində say üstünlüyündən istifadə edərək separatizmə meyl edirlər. Ermənistanda da Cavaxetiya problemi böyük maraq dairəsindədir. Cavaxetiyadakı proseslərin öyrənilməsi Azərbaycanın strateji maraqlarına uyğundur.

***Açar sözlər:*** *Azərbaycan, Gürcüstan, Dağlıq Qarabağ, Cavaxetiya, Ermənistan, münaqişə*

# DÜNYA AZERBAYCANLILARI MEDYA, İLETİŞİM VE HABERLEŞME AĞI

**Namık Kemal Yıldırım**
**Türkiyə, İstanbul Universiteti, İqtisadiyyat fakültəsi, magistrant**
**namikkemaly@gmail.com**
**Elmi rəhbər: prof.Özkan Turqut**

Yaşadığımız yüzyıl iletişim ve haberleşmenin kendisinden çok, hızının konuşulduğu bir döneme tanıklık etmektedir. Bu tespit haberleşmenin normal koşullarda var olduğunu ve iletişimin istenilen düzeyde kurulabildiğini ancak bunun yeterli olmadığını ve daha hızlı olunması gerektiğini öngörmektedir.

Geleneksel medya araçları (gazete, radyo, televizyon), görsel ve sosyal medyanın kullanıldığı internet dünyası bu argümanı destekleyen unsurlardır.

Ülkeler güçlerini insan kaynaklarından alırlar, bir ülkenin gücü o ülkenin yurttaşlarıdır. Azerbaycanımızın da gücü yurttaşlarıdır, dünyanın neresinde olursa olsun Azerbaycanlılar ülkeleri ile iletişimde olmalı ve bulundukları ülkede vatandaşı oldukları Azerbaycan devletini, milletini en iyi şekilde temsil etmelidirler. Bunun olması için Azerbaycanlıların ülkeleriyle ve birbirleriyle iletişim içinde olmaları, yapılan etkinliklerden ve faaliyetlerden haberdar olmaları büyük önem taşımaktadır.

Bu amaçla Azerbaycan Diaspora Bakanlığı bünyesinde ve sayın bakan Fuad Muradov'a bağlı bir "Dünya Azerbaycanlıları (Diaspora) Medya İletişim ve Haberleşme Ağı" oluşturulmalıdır.

Bu ağ Azerbaycanlıların yaşadığı tüm ülkelerde faaliyet göstermeli ve Azerbaycanlılar dünyanın neresinde olursa olsunlar bilmelidirler ki her bir Azerbaycanlı ülkesi ve halkı için elinden gelen ne varsa yapmakta ülkesini bayrağını bulunduğu ülkede onurla temsil etmektedir.

Bu duygu herkese güç verecek ve vatana bağlılık hissi-

yatını artıracaktır.

***Anahtar kelimeler:*** *media, iletişim, dünya azerbaycanlıları, diaspora*

## AZƏRBAYCANDA YADDAŞ SİYASƏTİ

**Naziyə Məmmədova**
**AMEA Qafqazşünaslıq İnstitutu, elmi işçi**
**mamedovanaziya@mail.ru**
**Elmi rəhbər: f.f.d. Vahid Ömərov**

Məqalədə Azərbaycanda aparılan yaddaş siyasəti təhlil edilir. Burada Bakıda Sovet və postsovet yaddaş məkanlarına diqqət yetirilir, onları Azərbaycanın müasir siyasi sistemi ilə təhlil edilərək, azərbaycanlıların identiklik axtarışına və yaddaş siyasətinə, yeni simvollara diqqət edilmişdir. Hazırda yaddaş siyasəti dövlət siyasətinin fəal elementidir. Bu siyasətin başlanğıcı ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bununla da tarixin yenidən nəzərdən keçirilməsi başladı. Bütün bunlar Azərbaycan xalqının milli kimliyini inkişaf etdirməyə kömək etdi. Azərbaycanda müstəqillik dövründə tikilmiş xatirə kompleksləri yaddaş siyasətinin bir hissəsidir. Məqalədə həmin abidə kompleksləri tədqiqata cəlb edilir. Əsasən bu komplekslər ermənilərin hərbi təcavüzü nəticəsində baş verən Azərbaycan xalqının faciəli hadisələrini əks etdirir. Bura daxildi: Quba Soyqırımı Memorial Kompleksi, Şəhidlər xiyabanı, "Xocalıya ədalət" abidəsi və digərləri.

***Açar sözlər:*** *yaddaş siyasəti, tarixi siyasət, soyqırım, erməni təcavüzü, Dağlıq Qarabağ*

# TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA QARSIN ETNİK TƏRKİBİ BARƏDƏ

**Nərgiz Babaxani**
**Tovuz rayonu, kənd məktəbi, müəllim**
**babaxaninergiz@gmail.com**
**Elmi rəhbər: dos. Səidə Quliyeva**

Şimal-qərbi Anadoluda yerləşən Qars tarix boyu qədim türk yurdu olmuş, etnik tərkibinin əsasını Azərbaycan türkləri təşkil etmişdir. Məqalənin məqsədi Qarsda yaşayan azərbaycanlıların tarixi və bu məsələlərin Türkiyə tarixşünaslığında əks olunmasını tədqiq etməkdir. Mövzu azərbaycanlıların demoqrafik proseslərinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Türkiyə tarixşünaslığında Qarsın tarixi, etnik qrupların burada yerləşməsi, onların mənşəyi kimi məsələlər geniş şərh edilmişdir. Bu tədqiqat əsərlərini iki qrupa ayırmaq mümkündür: Qarsın ən qədim zamanlardan bu günə qədərki tarixi; Qarsın etnik tarixi.

Etnik tərkib barədə tədqiqatlarda geniş məlumatlar vardı. Qars ərazisinə Səlcuq Rusiyanın Qafqazı işğalına qədər Azərbaycan və Anadoluda eyni türk etnosları üstünlük təşkil etmişdilər və bu dövrə qədər Qafqazdan olan köçlər barədə geniş tədqiqatlar yoxdu. Lakin, XIX əsrin sonu - XX əsrin əvvəllərində Qafqazda Rusiya və Osmanlı arasında baş verən müharibələr, Rusiyanın işğal etdiyi ərazilərə erməniləri yerləşdirməsi səbəbiylə azərbaycanlıların Osmanlı imperiyasına kütləvi miqrasiyaları olmuşdu. Mənbələrdə adı qeyd edilən türk boylarının yerləşdikləri əsas ərazilərdən birinin Qars və İğdır olduğu göstərilir.

Qarsda bu gün azərbaycanlılarla yanaşı, bir çox etnik qrup yaşayır. Bu səbəbdən Qarsın etnik tərkibi ilə bağlı tədqiqatlara müraciət edilir, Azərbaycan türkləri, qaraqalpaqlar, türkmənlərin

tarixi barədə əsərlər təhlil edilir.

***Açar sözlər:** Qars, etnik tərkib, azərbaycanlılar, Türkiyə tarixşünaslığı*

## MƏZAR DAŞLARI ÜZƏRİNDƏ ORNAMENTAL KOMPOZİSİYALAR

**Nərgiz Əsədullayeva**
**AMEA Şəki Regional Elmi Mərkəz, elmi işçi**
**nargiz_esedullayeva@rambler.ru**

Azərbaycan Respublikası Şəki şəhəri və ətraf kəndlərindəki qəbristanlıqlarda XVIII-XIX və XX əsrin əvvəllərinə aid zəngin incəsənət nümunəsi olan məzar daşları mövcuddur. Sözügedən ərazidə mövcud olan məzar daşları üzərində əks edilmiş ornamentlərin araşdırılması nəticəsində ərazinin türk və islam incəsənətinin təsirinə məruz qalması aşkar edilmişdi. Ərazidə həm antik dövrdə, həm də sonrakı dövrdə dövlətçiliyin mövcud olması, (ərazi antik dövrdə Qafqaz Albaniyasının, orta əsrlərdə Şirvanşahların, Səlcuqların, Atabəylərin, Baharlıların, Bayandurluların,, Şəfəvilərin tərkibində olmuşdur) əhalinin əksəriyyətinin oturaq həyat tərzi sürməsi, antik və şərq-islam incəsənətinin yetərincə inkişafına gətirib çıxarmışdır. Göstərilənlərə əsasən demək olar ki, ərazinin özünəməxsus memarlıq məktəbi və xüsusi üsluba malik olan xəttat və nəqqaşları olmuşdur. Həmin xəttat və həkkaklar öz işlərini daşlar üzərində aparmışlar. Bütün çətinliklərə baxmayaraq, bu işin ustaları mürəkkəb ornament kompozisiyalarını yaratmaqdan əl çəkməmişlər.

Şəki bölgəsində mövcud olan məzar daşlarının araşdırılması Azərbaycan tarixşünaslığında və incəsənətində aktuallıq kəsb edir. Bu məqsədlə tədqiqat zamanı müəllif bölgədə mövcud

olan məzar daşlarındakı ornament və simvoların araşdırlmasına diqqət yetirilmiş, dağıntıya məruz qalmış abidələrin üzünü çıxararaq, bərpasına səy göstərilmişdir. Tədqiqat zamanı bizə Şəki və ətraf kəndlərdə mövcud olan qəbir abidələrindəki ornament və naxışları bərpa etməklə bərabər, bu rəsmlərin elmi izahını verməyə çalışmışdır. Bu prosesdə 1000-dən çox məzar daşı tədqiqata cəlb edilmiş, 100-ə yaxın məzar daşında olan ornament və naxış bərpa edilmişdir.

***Açar sözlər:*** *Şəki, məzar daşı, kompozisiya, ornament*

## XX ƏSRİN BİRİNCİ RÜBÜNDƏ ŞƏKİDƏ ERMƏNİ TƏXRİBATLARI

**Rahim Həsənov**
**AMEA Şəki regional elmi mərkəz, dissertant**
**raqimhist@mail.ru**
**Elmi rəhbər:t.f.d. Nigar Maxvell**

Azərbaycan müstəqillik əldə etdikdən sonra soydaşlarımıza qarşı ermənilərin təxribatçı və terrorçu siyasəti tədqiqatçıların əsas araşdırma obyektindən birinə çevrilmişdir. XX əsrin əvvllərində erməni quldurlarının Bakıda, Qarabağda, İrəvanda, Naxçıvanda törətdikləri qətliamlarla bağlı tədqiqatlar aparılmış, yüzlərlə elmi tədqiqat əsərləri nəşr edilmişdir. Lakin, Şəki-Balakən bölgəsində ermənilərin təxribatçı fəaliyyəti ilə bağlı aparılan tədqiqatlar olduqca məhdud xarakter daşıyır. Halbuki, ermənilərin göstərilən bölgəyə köçürülməsi XIX əsrin əvvəllərinə təsadüf edir. Şəki xanlığının Rusiyaya tabe edilməsindən sonra xanlığın ərazisinə çoxlu sayda erməni ailəsi köçürülmüş, xanlığın ən münbit torpaqlarında yerləşdirilmişlər. Ermənilər Şəki qəzasında Qarabağ, Naxçıvan və İrəvan bölgələrinə nisbətdə az məskunlaşmalarına baxmayaraq, burada da yetərincə təxribatçı siyasət yeritmişlər.

1917-ci il Fevral inqilabında sonra Şəki qəzasında erməni təxribatları silahlı insident səciyyəsi daşımağa başlayır. Qəzanın Aydınbulaq, Daşbulaq, Cəfərəbad, Sultan Nuxa, Mirzəbəyli kəndlərində quldur dəstələri yaradan ermənilər, yerli türk-müsəlman əhaliyə qarşı qətliamlar həyata keçirirdilər. Hətta qətliamlar o səviyyəyə çatmışdı ki, Azərbaycana qardaş yardımı edən türk ordusunun komandanı Nuri paşa qərərgahını Şəkidə yaratmaq istəsə də, erməni silahlı dəstələrinin fəaliyyəti buna mane olur.

Yuxarıda göstərilən məsələləri nəzərə alaraq, Şəki bölgəsində erməni məsələsinin araşıdırılmasının Azərbaycan tarixşünaslığında aktual problemlərdən biri olduğunu söyləmək olar. Bu məqsədlə XX əsrin birinci rübündə ermənilərin bölgədə təxribatçı fəaliyyətini, yerli türk-müsəlman əhaliyə qarşı törətdikləri qətliamları tədqiq edilmişdir.

***Açar sözlər:*** *Şəki, erməni, soyqırım, terror, təxribat, Nuru paşa*

## XX ƏSRDƏ AZƏRBAYCANLILARIN XƏZƏRİN ŞƏRQ SAHİLİNƏ MİQRASİYASI

**Raisə Cəfərova**
**AMEA Tarix İnstitutu, t.f. d.**
**cafarova.r@mail.ru**

Miqrasiya prosesləri demək olar ki, dünyanın bütün xalqlarının həyatında bu və ya digər dərəcədə rol oynamışdır. Tarixin müxtəlif vaxtlarında miqrasiyaların səbəbləri, xarakteri də müxtəlif olub. Belə ki, əgər qədim dövrdə insanlar münbit torpaq əldə etmək və ya təbii fəlakətlərdən qorunmaq üçün daha əlverişli ərazilərdə məskunlaşmaq məqsədilə miqrasiya edirdilərsə, sonrakı dövrlərdə daha çox işğalçılıq müharibələri, müstəmləkəçilik, siyasi tədbirlər və yaxud, iqtisadi-sosial mənşəli

problemlər insanların miqrasiyasına səbəb oldu. Məqalədə ilk dəfə olaraq azərbaycanlıların XX əsrdə Xəzərin şərq sahillərinə miqrasiyasının əsas səbəbləri illər üzrə qruplaşdırılaraq aşağıdakı kimi izah olunmuşdur.

1920-30-cı illərdə Sovet hakimiyyətinin müxtəlif bəhanələrlə həyata keçirdiyi sürgünlər, repressiyalar (Xəzərin şərqində yerləşən Qazaxıstan kəskin kontinental iqlimə malikdir. Elə bu səbəbdən də SSRİ-nin hakim dairələri cəza vermək istədiyi insanların böyük əksəriyyətini bura sürgün edirdi.) ;

1940-cı illərin ortalarından başlayaraq Mərkəzi Asiyada neft sənayesinin yaranması və inkişafında azərbaycanlıların əməyindən və təcrübəsindən istifadə məqsədi ilə peşəkar neftçi həmvətənlərimizin həmin ölkələrə daimi və ya mövsümi xarakterli işlərə göndərilməsi (Onu da qeyd edək ki, bu proses 1960-cı illərdə də davam edirdi. Azərbaycan, xüsusilə Türkmənistanda yeni neft yataqlarının kəşfində azərbaycanlı alimlərin böyük xidmətləri olmuşdur);

1950-ci illər xam və dincə qoyulmuş torpaqlardan istifadə zamanı azərbaycanlıların əməyindən və təcrübəsindən istifadə məqsədi ilə həmvətənlərimizin Qazaxıstana daimi və ya mövsümi xarakterli işlərə göndərilməsi;

1970-1980-ci illərin əvvəllərində elmi mübadilə, Mərkəzi Asiya ölkələrində təhsil alan azərbaycanlıların sayının artması;

1980-ci illərin sonu - 1990-cı illərdə Azərbaycanda baş verən siyasi, iqtisadi gərginliyin nəticəsi olaraq yaranan işsizlik problemi ilə əlaqədar olaraq həmvətənlərimizin bir qismi Xəzərin şərq sahilində yerləşən Mərkəzi Asiya ölkələrinə üz tutdular. Onu da qeyd etmək istərdik ki, bu məqalədəki bəzi faktlar və arxiv sənədləri ilk dəfədir ki, elmi dövriyyəyə gətirilir.

***Açar sözlər:*** *region, məskunlaşma, repressiya, diaspor*

# GÜRCÜ DİLİNİN TƏDRİSİNİN AZƏRBAYCAN TARİXİ PROBLEMLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ ROLU

**Rəna Hüseynova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, müəllim**
**rena_g83@mail.ru**

2008-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsində Gürcü dili fənni tədris olunur. Qafqazşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Gürcü dilinin tədrisinə əvvəllər semestr ərzində 240 saat, ümumilikdə isə 3 il ərzində 520 saat nəzərdə tutulmuşdur. Hal-hazırda tədrisə ayrılan saatlar azaldılmış, 2018/2019-cu tədris ilində gürcü dilinin tədrisinə payız semestri ərzində 105 saat, tədris ili ərzində 210 saat təşkil edir. Göründüyü kimi, Təhsil Nazirliyinin yeni saat bölgüsünə əsasən dilin öyrədilməsinə ayrılan saat 310 saat azaldılmışdır. Sual olunur, gürcü dilinin öyrədilməsi bizə lazımdırmı və bizə nə verir? Bu dilin Tarix fakültəsində tədris olunması təsadüfi deyildi. Azərbaycan tarixi problemlərinin öyrənilməsinə imkan verən qaynaqların bir qismi gürcu dilindədir. Eyni zamanda, müasir Gürcüstan tarixşünaslığında Azərbaycanın ərazi və əhali problemlərinə tez-tez müraciət edilir. Bu qaynaqlardakı informasiyalar Azərbaycan tədqiqatçılarının birbaşa tanış olmasına böyük ehtiyac var. Bu səbəbdən biz, öz araşdırmamızda həmin məsələlərə toxunaraq onların əhəmiyyətini faktlarla göstərməyə çalışmışıq.

***Açar sözlər:*** *Azərbaycan tarixi, gürcü dili, tədris, tarixşünaslıq, qaynaq*

# SƏFƏVİ DÖVLƏTİNİN XARİCİ SİYASƏT MƏSƏLƏLƏRİ V.V.BARTOLDUN TƏDQİQATLARINDA

**Rəna Şahbazova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, t.f.d.**
**rshahbazova@gmail.com**

V.V.Bartoldun əsərlərində Azərbaycan Səfəvi dövlətinin xarici siyasət məsələlərinə, onun Osmanlı imperiyası ilə münasibətlərinə xeyli yer ayrılmışdır. Akademik Şah I İsmayılın və Şah I Abbasın hakimiyyəti illərinə daha çox diqqət yetirmişdir. V.V.Bartold I İsmayılın hakimiyyətinin yüksəliş dövrünün 1501-1510-cu illəri əhatə etdiyini qeyd edirdi.

V.V.Bartoldun əsərlərində Şah I Abbasa bir rəğbət hissi nəzərə çarpır. Şah I Abbasın xarici siyasət xətti, onun osmanlılara qarşı hərbi əməliyyatlarda əldə etdiyi uğurlar, bu şahın İran körfəzi üğrunda portuqallara qarşı mübarizəsi, Qərbi Avropa dövlətləri ilə qurduğu diplomatik əlaqələr V.V.Bartoldun tədqiqat əsərlərində böyük maraqla nəzərdən keçirilmişdir. Təsadüfi deyildir ki, V.V.Bartold Şah I Abbası çox zaman avropalı səyyahların ifadəsi ilə ("Böyük Abbas") xatırladırdı. Şah I Abbas avropalıların yardımı ilə odlu silahlar əldə etməklə güclü ordu yarada bilmişdi. Lakin, həm osmanlılarla hərbi-siyası qarşıdurmada, həm də Fars körfəzində portuqal ağalığına son qoyulmasında (o cümlədən Hörmüzün alınmasında) bütün ağırlıq Səfəvi dövlətinin üzərinə düşmüşdü.

Akademikin Səfəvi şahlarının xarici siyasəti ilə bağlı olan mülahizələri, onun istifadə etdiyi tarixi faktlar, mənbələrdən etdiyi tərcümələr hələ də öz aktuallığını və elmi əhəmiyyətini saxlayır. V.V.Bartoldun bu dövrlə bağlı olan bütün əsərləri, mülahizələri Səfəvi hakimiyyətinin həm siyasi,

həm iqtisadi inkişaf baxımından Azərbaycan xalqının tarixində şanlı bir mərhələ olduğunu təsdiq edir.

***Açar sözlər**: Səfəvi, dövlət, tədqiqat, siyasət, hərbi, V.V.Bartold*

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN DEMOKRATİK FİKRİNİN POEZİYASINDAKI MİLLİ İDEYALAR

**Rəşad Əsgərov**
**AMEA Fəlsəfə İnstitutu, dosent**
**asgarov_rashad@mail.ru**
**Bağır Babayev**
**Naxçıvan Dövlət Universiteti , baş müəllim**
**baqirbabayev59@mail.ru**

Çar Rusiyası işğal altında olan türk-müsəlman xalqlarından biri kimi, Azərbaycan türklərinə də hər cür zorakılıqlar göstərirdi. Lakin, XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər ədəbiyyatı, mətbuatı, demokratik fikri yeniləşdirir və zənginləşdirirdi. Çünki müstəmləkədən qurtulmaq istəyən millətlər öz milli ideyasını və ideologiyasını müəyyənləşdirməli idi. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdi.

Sovet dövründə demokratik fikir xadimlərinin xidmətləri təhrif olunur, onların layiqli qiyməti verilmirdi. Qoyulan qadağalara görə, məlum faktlar bilərəkdən təhrif olunurdu. Halbuki, onlar demokratik ideallara uyğun yeni ideyalar irəli sürür, cəmiyyətin ağrılı problemlərini göstərirdilər. Onlarda aparıcı ideya milli və bəşəri dəyərlərin vəhdəti, demokratik şüuru möhkəmləndirmək idi.

Demokratik fikir milli maraqlarımız uğrunda gedən mübarizədə yol göstərici kimi milli birlik və həmrəylik ideyalarını irəli sürür, milli həyatın hər sahəsinə nüfuz etmişdi. Bu, milli istiqlala nail olmağa və onun qorunub saxlanılmasına xidmət etməli idi. Çünki, burada ilkin olan Vətən sevgisi idi. İkinci vacib olan milli-mənəvi və bəşəri dəyərlər-əxlaq idi ki, milli-dini etiqadlarımız da buraya daxil idi. Milli oyanışın, milli-azadlıq ideyasının irəli sürülməsi, istiqlal şüurunun möhkəmləndirilməsi demokratik fikrin milli birlik və həmrəylik, eləcə də milli kimlik, milli varlıq uğrunda mübarizəsi demək idi.

***Açar sözlər**: demokratik fikir, poeziya, azadlıq, vətənin taleyi, istiqlal*

## NƏSİB BƏY YUSİFBƏYLİ VƏ MİLLİ İDEYA

**Saida Babayeva**
**Gəncə Dövlət Universiteti, Filologiya fakültəsi, t.f.d.**
**saidababayeva76@mail.ru**

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri kimi tarixə imza atan Nəsib bəy Yusifbəylinin (1881-1920) ictimai-siyasi fəaliyyətinin əsasını milli ideya uğrunda mübarizə təşkil edir. Nəsib bəyin bu mübarizədə uğur qazanmasının əsas səbəbi maarifçilik, milli birlik, milli azadlıq hərəkatını birlikdə həyata keçirməsi oldu. Nəsib bəyin yetişdiyi siyasi məktəb, sələflərinin ideyalarını reallaşdirması, Gəncə şəhərində milli ruhun güclü olmasını şərtləndirən amillərin mənbələrə istinadən izahı mövzunun aktuallığını göstərir.

Əldə olan yenilik: Ümummilli lider Heydər Əliyevin ən çətin vaxtlarda cəmiyyəti milli ideya ətrafında birləşdirməsi, “Dünya azərbaycanlılarının həmrəylik və birlik günü”nün bayram kimi qeyd olunmasının, mövzu ilə əlaqələndirilməsi.

Nəticə: Milli birlik, millətin bütün olması, müasirlik, bü-

tün zamanlarda xalqı yaşadan, düşmənlərdən qoruyan ən güclü vasitədi.

***Açar sözləri:*** *xalq, cümhuriyyət, tarix, birlik, azadlıq, mübarizə, siyasi məktəb, sələf, Nəsib bəy Yusifbəyli*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN MƏDƏNİ-MAARİF VƏ TƏHSİL SİYASƏTİ

**Samir Mirzəyev**
**Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi,elmi işçi**
**samir.xalidoglu@gmail.com**
**Elmi rəhbər: prof. Şirməmməd Hüseynov**

AXC hökumətinin qısa müddət ərzində ictimai-siyasi və sosial-mədəni həyatın bütün istiqamətlərində həyata keçirdiyi tədbirlər maraq doğurur. Məqalədə hökumətin maarif və mədəniyyətin inkişafına yetirdiyi xüsusi diqqət və qayğının nəticəsi olaraq həyata keçirilən aşağıdakı məsələlər izah edilir:
- ana dilinin dövlət dili elan edilməsi;
- təhsilin milliləşdirilməsi;
- Qori Müəllimlər Seminariyasının müsəlman bölməsinin hökumətin maliyyə vəsaiti hesabına Qazax şəhərinə köçürülüb Qazax seminariyası adı ilə fəaliyyətə başlaması;
- anadilli müəllim kadrların hazırlanması prosesinin sürətləndirilməsi;
- yeni orta təhsil müəssisələri, gimnaziyalar, realnı məktəblər, qadınlar üçün təhsil müəssisələrinin və s. təsisi;
- Azərbaycanın ilk universiteti – Bakı Dövlət Universitetinin yaradılması;
- Azərbaycan Parlamenti hökumətinin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xa-

rici ölkələrə göndərilməsi barədə qanun qəbul edilməsi və prosesə başlanılması;

- Xalqın mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlərin, o cümlədən savadsızlığın ləğvi sahəsində müəyyən işlərin görülməsi.

Mövzu 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyətinin, 2019-cu ilin isə onun varisi hesab olunan Bakı Dövlət Universitetinin 100 illiyi ilə əlaqədar aktuallıq kəsb edir.

***Açar sözlər:*** *Azərbaycan, cümhuriyyət, parlament, maarif, elm, təhsil, məktəb*

## AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARININ ƏMƏKDAŞLIQ İSTİQAMƏTLƏRİ

**Samirə Hadıyeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi,magistrant**
**samira1997hadiyeva@gmail.com**
**Elmi rəhbər: prof. Qabil Əliyev**

Müasir dünya sistemində diasporlar müstəsna rola və xarici siyasətdə mühüm rola malikdirlər. Diasporların əsas məqsədi mənsub olduğu dövlətin maraqlarını yaşadığı ölkədə təbliğ etməkdir. Hər bir xalqın diasporu öz inkişafına uyğun fəaliyyət göstərir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan diasporunun formalaşması və inkişafı üçün mühüm fəaliyyətə başlayır. Müstəqillik illərində ciddi inkişaf yolu keçən Azərbaycan diasporunun qarşısında duran əsas vəzifələrdən biri də digər xalqların diasporları ilə əlaqələr qurmaq, fəaliyyət göstərdiyi ölkələrdə öz mövqelərini möhkəmləndirməkdir. Bu sırada Azərbaycan diasporunun türkdilli respublikaların diaspor təşkilatları ilə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Türk-Azərbaycan diasporunun yaranması iki qardaş xalqın vahid ideologiya ətrafında birləşməsi və türk birliyinin yaranması istiqamətində

atılan ən güclü addımdır. Getdikcə inkişaf etməkdə olan bu əməkdaşlıq əlaqələri güclü Azərbaycan lobbisinin formalaşdırılması üçün zəmin rolu oynamaqdadır.

Birlik və bərabərlik ruhunda çıxış edən bu toplum təşkilatlanaraq son illərdə də xarici ölkələrdə Xocalı soyqırımı ilə bağlı mitinqlər keçirir, Dağlıq Qarabağ problemini Avropa dövlətlərinin gündəminə gətirmək üçün lahiyələr reallaşdırır. Bu təşkilatlardan biri də Azərbaycan-Türkiyə arasında qardaşlıq və dostluq münasibətləri əsasında qurulan "Azərbaycan Türkiyə Evi"dir.

Azərbaycan və türk diasporları arasında əməkdaşlığın yüksək səviyyəyə çatdırılması İlham Əliyevində siyasətində əsas prioritet təşkil edir.Bunun bariz göstəricisi olaraq 2007-ci ilin martın 9-da "Bakıda Azərbaycan və türk diapor təşkilatları rəhbərlərinin I Forumu" keçirilmişdir.

Sonda belə nəticəyə gəlmək olarki hər bir xalqın, o cümlədən türklərin dünyəvi özünüifadəsi üçün kifayət qədər diaspor potensialının olması zəruridir.

***Açar sözlər:*** *Lobbi fəaliyyəti, Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu, Azərbaycan Türkiyə Evi(ATEV), Dağlıq Qarabağ*

## AZƏRBAYCANIN ORTA ƏSR MUSİQİSİ VƏ TƏSVİRİ SƏNƏTİ QƏRBİ AVROPA SƏYYAHLARININ GÜNDƏLİKLƏRİNDƏ

**Sayad Mehtizadə**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, t.f.d.**
**sayad.mehtizade@gmail.com**

Musiqi və təsviri sənət Azərbaycan mədəniyyətinin tərkib hissələrindən biri olmaqla XV-XVII əsrlərdə özünəməxsus cəhətlərə malik idi. Bu dövrdə xalq yaradıcılığı, ifaçılıq sənəti

və aşıq yaradıcılığı formasında inkişaf edən musiqi özündə yerli ənənələrlə yanaşı, İslam və İran musiqisinin də təsirini daşıyırdı. Avropa səyyahlarının gündəliklərində saray musiqisi, hərbi musiqi, musiqi alətləri və s. haqqında məlumatlara rast gəlinir. Bu məlumatlardan bəlli olur ki, orta əsrlərdə Səfəvilər dövlətinin əhalisinin gündəlik həyatında və bayramlarında musiqi önəmli yer tuturdu.

Təsviri sənət sahələri içərisində daşişləmə sənəti mənbələrdə geniş təsvirini tapmışdır ki, onun da başlıca növü həkkaklıq sayıla bilər. Azərbaycanda orta əsrlərdə dekorativ-tətbiqi sənət növləri arasında mozaika da geniş yayılmışdı. Avropa müəlliflərinin nisbətən geniş məlumat verdiyi digər incəsənət sahəsi isə zinət əşyalarının istehsalı hesab oluna bilər. Azəbaycanda dekorativ-tətbiqi sənətin geniş yayılmış sahələri içərisində bədii parça istehsalını və xalçaçılığı da xüsusi qeyd etməliyik, çünki bu sahələr orta əsrlərdə incəsənətin yüksək inkişaf etmiş sahələrinə aid edilir.

Beləliklə, Azərbaycan mədəniyyətinin tərkib hissəsi olaraq incəsənətin müxtəlif sahələrinin, o cümlədən dekorativ-tətbiqi sənət və musiqinin, özündə həm yerli ənənələri saxlamaqla regional, həm də Ümumislam və Ümumşərq təsirini daşımaqla sinkretik mədəniyyətin inkişafında əhəmiyyətli rolu və yeri olmuşdur.

***Açar sözlər:*** *Avropa, Səfəvilər, musiqi, xalçaçılıq, təsviri sənət, səyyahlar*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ALİ TƏHSİLLİ KADRLARIN HAZIRLANMASI İSTİQAMƏTİNDƏKİ FƏALİYYƏTİ

**Sevinc İbadova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, magistrant**
**sevincibadova.212@mail.ru**
**Elmi rəhbər: dos. Abutalıb Cəlilov**

Modern dövlətçilik ənənələrini özündə ehtiva edən Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət istiqamətlərindən biri ali təhsilli kadrların hazırlanması ilə bağlı olmuşdur. Dövlətçilik tariximizdə Azərbaycan Cümhuriyyətinin təhsil siyasətinin bu istiqamətinin tədqiq edilməsi ölkəmizdə təhsilin inkişafı tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

1919-cu ildə Azərbaycan Cümhuriyyəti indiki Bakı Dövlət Universitetini təsis etməklə ali təhsilli milli kadrların yaradılması istiqamətində əhəmiyyətli addım atmış oldu. Ali təhsilli milli kadrların çatışmazlığı şəraitində, universitetin təşkili əleyhinə ucalan mühafizəkar səslərə qarşı M.Ə.Rəsulzadə bildirirdi: “... alim, mütəxəssis, təcrübəli adamları yetişdirmək hökumət və dövlətin vəzifəsidir”. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti bütün maneələrə baxmayaraq 1919-cu il sentyabrın 1-də ilk universitetimizin təsisi haqqında qanun imzaladı. Bu qanunda ilk dəfə olaraq həm qadınların, həm də kişilərin birgə universitet təhsili alması hüququ vurğulanır, eyni zamanda qadınların da universitetdə dərs deməsinə şərait yaradıldığı qeyd olunurdu.

Cümhuriyyətin ali təhsilli kadrların hazırlanması istiqamətində digər fəaliyyəti azərbaycanlı gənclərin dövlət hesabına xaricdə təhsil almağa göndərilməsi ilə bağlı olmuşdur. İlk ildə 100 nəfər gəncin xaricə oxumaq üçün göndərilməsini münasib bilən hökumət, onların hər birinə illik 36,5 min rubl ayrılması haqqında qərar vermiş, lakin yaşayışın çətinləşməsi ilə əlaqədar

olaraq hər tələbəyə aylıq 400 frank təqaüd ayırmışdı.

Beləliklə, Cümhuriyyətimizin milli təhsil siyasəti bilavasitə ölkədə milli kadrların hazırlanmasına yönəlmiş və bu istiqamətdə mütərəqqi addımlar atılmışdır.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, AXC-nın təhsil siyasəti, Bakı Dövlət Universiteti*

## AZƏRBAYCANDA MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏDƏ MAARİFÇİLİK HƏRƏKATININ ROLU VƏ YERİ

**Sevinc Qasımova**
**Bakı Dövlət Universitetı, Tarix fakültəsi, dosent**
**qasimovasevinc@mail.ru**

Maarifçilik ideologiyası və hərəkatının dünya ictimai-siyasi fikir tarixində xüsusi bir mərhələ təşkil etdiyi danılmazdır. Bu prosesin Azərbaycanda gec intişar tapmasına baxmayaraq, dünya maarifçilik hərəkatından heç də geri qalmayan və bəlkə də onları geridə qoyan milli maarifçilərimiz mücadilə nəticəsində millətinə böyük bir irs- Cümhuriyyət tipli dövlət bəxş etdi. Heydər Əliyevin yeni 2001-ci il münasibətilə Azərbaycan xalqına müraciətində söylədiyi kimi "XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə, XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin - Abbasqulu Ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcılıq fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq, milli şüurun formalaşmasına güclü təkan verdi".

Məqalədə Azərbaycanda maarifçilik ideologiyasının tarixi kökləri, onun ideoloqlarının yetişdiyi ictimai mühit, xalqının azadlığı uğrunda mübarizədə maarifçilərin keçdiyi yol və buna nail olmaq uğrunda apardıqları fərqli mücadilə açıqlanacaq, Azərbaycan Xalq Cümhuriyyətinin məhz milli maarifçilərimizin çiyinlərində qurulduğu işıqlandırılacaqdır. Bu günkü tarixi şəraitdə bunu dünya ictimaiyyatına çatdırmaq çox önəmli, aktual və əhəmiyyətlidir.

***Açar sözlər:*** *Cümhuriyyət, maarifçilik ideologiyası, mücadilə, Bakıxanov, Mirzə Kazımbəy*

## SƏFƏVİLƏRİN HÖRMÜZ UĞRUNDA MÜBARİZƏSİ

**Sevinc Zeynalova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, baş müəllim**
**sevinc_zeynalova@hotmail.com**
**Elmi rəhbər: dos. Elvira Lətifova**

Qüdrətli Azərbaycan Səfəvilər dövlətinin yaranması orta əsrlər tariximizdə böyük əhəmiyyətə malik olan hadisələrdən biri olmuşdur. Təkcə Azərbaycan torpaqlarını deyil, eyni zamanda qonşu ölkələrin də ərazilərini əhatə edən orta əsr Azərbaycan-türk imperiyası olan Səfəvilər dövlətinin o dövrün beynəlxalq münasibətlərində aparıcı rolunun tədqiqi tarix elmimizin əsaslı problemlərindən biridir.

Məlum olduğu kimi, XVI-XVII əsrlərin hüdudunda Səfəvilər dövləti beynəlxalq münasibətlərin fəal üzvlərindən birinə çevrilmişdi. Bu münasibətlərdə aparıcı rol oynayan Avropa dövlətlərilə, o cümlədən İran körfəzi bölgəsinə iddiaları olan Portuqaliya ilə siyasi və hərbi müttəfiqlik əlaqələrinin qurulması Səfəvi dövləti üçün birinci dərəcəli əhəmiyyət kəsb edirdi. Məqalədə Səfəvilər dövlətinin beynəlxalq münasibətlərdə aparıcı rolunu üzə çıxarmağa, o cümlədən, Portuqaliya-

nın İran körfəzi və Hind okeanı bölgəsində müstəmləkəçi siyasətinə qarşı güclü bir qüvvə olduğunu elmi cəhətdən sübut etməyə çalışılmışdır.

Bu problemin aktuallığı elmi olmaqla yanaşı, həm də siyasi amillərə də söykənir, çünki müasir beynəlxalq şəraitdə Qərbin Şərqə münasibətdə yeritdiyi siyasətin, konkret olaraq müstəmləkəçi siyasətinin müasir metodlarının tarixi köklərini araşdırmaq lazım gəlir.

***Açar sözlər:*** *Səfəvilər, İran körfəzi, beynəlxalq münasibətlər, Hörmüz, müstəmləkəçilik siyasəti*

## ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV VƏ ONUN AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN TANINMASI UĞRUNDA MÜBARİZƏSİ

**Seymur Cabbarlı**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, bakalavr, III kurs**
**cabbarlisenan1@gmail.com**
**Elmi rəhbər:t.f.d. Zəhra İslamova**

Dövlət xadimi Ə.Topçubaşov (1863-1934) 1897-1917-ci ilin sonlarına qədər “Kaspi” qəzetinin redaktoru vəzifəsində çalışmışdı. Hələ tələbə ikən şərq və qərb dünyasını mükəmməl bilən Ə.Topçubaşov müsəlman aləminin azadlığa çıxış yollarını aydın təsəvvür edir, bu yolda sonadək gedəcəyinə inanırdı. Ə.Topçubaşov müstəqillik uğrunda mübarizənin nəzəri istiqamətini müəyyənləşdirənlərdəndir.

AXC dövründə Osmanlı və Avropa dövlətləri ilə diplomatik əlaqələrin qurulması üçün fövqəladə səlahiyyətli nazir kimi İstanbula göndərilmişdi. 1919-cu ildə Parisə göndərilən Azərbaycan nümayəndəliyinə rəhbərlik etmişdi. 1919-cu ilin mayın əvvəlində Parisə çatan ziyalılar ilk vaxtlarda ABŞ, İngiltərə, Fransa, Polşa və digər dövlətlərin siyasi xadimləri ilə

əlaqələr yaratmış, mayın 28-də Ə.Topçubaşov ABŞ prezidenti V.Vilsona 3 maddədən ibarət memorandum təqdim etmişdi. Sənəddə AXC-nin müstəqillik uğrunda mübarizəsindən bəhs olunmuşdur. Lakin, V.Vilsonun Azərbaycana biganə yanaşmasına baxmayaraq diplomatlarımızın səyi ilə 1920-ci ilin yanvarın 11-də dövlətimiz de-fakto tanınmışdı.

Beynəlxalq münasibətlər sistemində AXC-nin tanınması uğrunda mübarizə siyasi tariximizin öyrənilməsində mühüm elmi əhəmiyyət kəsb edir. Ə.Topçubaşov azərbaycançılıq və müstəqillik uğrunda xalq mübarizəsinin nəzəri əsasını yaradanlardandır. Bu gün də ondan nümunə götürməli və Azərbaycan həqiqətlərini dünyaya tanıtdırmalıyıq. Tədqiqat zamanı C.Həsənlinin "Tarixi şəxsiyyətin tarixi", M.Qasımlı və E.Hüseynova tərəfindən yazılmış "Azərbaycanın xarici işlər naziri" əsərlərindən və Ə.Topçubaşovun AXC hökumətinə ünvanladığı "Paris məktubları"ndan istifadə olunmuşdu.

***Açar sözlər**: Ə.Topçubaşov, Paris sülh konfransı, Paris məktubları, müstəqillik və onun tanınması, AXC*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN ƏDƏBİYYATINDA MİLLİ OYANIŞ, AZADLIQ DUYĞULARININ BƏDİİ ƏKSİ

**Səba Namazova**
**Gəncə Dövlət Universiteti, Filologiya fakültəsi, f.f.d.**
**seba8080@mail.ru**

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün poeziyası bütünlüklə hürriyyət ideyalarına köklənərək xalqın milli oyanışına bilavasitə xidmət göstərirdi. Yaradıcılığı etibarilə oxuculara az tanış olan istedadlı şair Davud "Məqsədimiz", "Əsgər şərqisi", "Bir əsgərin xitabı", "Azərbaycan ordusuna", "Atala-

ra", "Millətimə" və s. şeirlərində istiqlalın xalqın həyatına gətirdiyi sevinci misraları vasitəsilə təsvir etmişdi. Onun şeirləri əsasən gənclərə ünvanlanaraq şərqi janrında yazılmış, elə gənclərin dilindən də verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbi yaradıcılığın publisistika qolu bədii nəsrə nisbətən məhsuldarlığı ilə şərtlənirdi. Belə ki, Cəlil Məmmədquluzadənin "Azərbaycan" (1917), "Cümhuriyyət" (1917), "Vətəndaşlar" (1917) və s. publisistik yazılarında bir sıra ictimai-siyasi məsələlərə toxunulmuşdu.

Seyid Hüseynin "Həzin bir xatirə. İsmailiyyə" və "İsmailiyyə" sənədli hekayələri də mövzusu baxımından diqqət çəkir. Müəllif təhkiyəsi üzərində qurulmuş "İsmailiyyə" hekayəsində əzəmətli, məşhur İsmailiyyə binasının mənfur ermənilər tərəfindən yandırılması və dağıdılmasından sonrakı acı taleyindən ürəkağrısı ilə bəhs edilmişdir.

Cümhuriyyət dövründə yazılan dramaturji əsərlər bədii nəsr nümunələri kimi o qədər çox deyildi. Həmin tarixi dövrün bir sıra məqamlarına işıq tutan səhnə əsərləri yaradılmışdır. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Mirzəbala Məhəmmədzadənin dram yaradıcılığı bu xüsusda daha çox nəzəri cəlb edir. Belə ki, Cəlil Məmmədquluzadənin "Kamança", "Anamın kitabı", Hüseyn Cavidin "İblis", Cəfər Cabbarlının "Nəsrəddin şah", "Ədirnə fəthi", "Trablis müharibəsi və yaxud Ulduz", "Aydın" əsərləri o dövrün dramaturgiyasının mənzərəsini müfəssəl əks etdirir.

***Açar sözlər:*** *Cümhuriyyət, milli oyanış, yaradıcılıq, poeziya, publisistika*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MÜSTƏQİLLİYƏ GEDƏN YOLDA VERDİYİ QURBANLAR

**Səbinə Məmmədli**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, doktorant**
**sebine1990tarix@mail.ru**
**Elmi rəhbər: prof. Anar İsgəndərov**

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın əzmini, qeyrətini, Vətəninə, torpağına sevgisini və bağlılığını sınağa çəkən milli-istiqlal hərəkatının və çox çətin bir mübarizənin nəticəsi idi.

XX əsrin əvvəllərində Azərbaycanın müstəqillik ideyalarına, milli demokratik qüvvələrə zərbə vurmaq məqsədilə Stepan Şaumyan başda olmaqla daşnak-bolşevik birləşmələrinin 1918-ci ilin yazında törətdikləri soyqırımın elmi-obyektiv müstəvidə, ilkin və etibarlı mənbələr əsasında tədqiq olunması son dərəcə mühüm ictimai-siyasi əhəmiyyət kəsb edir.

1918-ci ilin mart-iyul aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının kəndlərində Bakı Xalq Komissarlar Sovetinin sədri Stepan Şaumyanın məqsədyönlü planı əsasında türk-müsəlman əhaliyə qarşı erməni-daşnak qüvvələri ilə birgə həyata keçirdiyi soyqırımlar və talanlar Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında araşdırılır.

Bu materiallarda həm Şamaxıda, həm də Şamaxı qəzasında heç bir obyektiv səbəb olmadan soydaşlarımızın yalnız milli-dini mənsubiyyətinə görə məruz qaldıqları fiziki-mənəvi zorakılıqlar, soyqırım və talanlar, bu cinayət əməllərinin baş vermə səbəbləri və nəticələri, hadisələrin gedişatı, təfərrüatları, inkişaf dinamikası, eyni zamanda ermənilərin Avropa və Amerikada əleyhimizə yönələn gözdənsalma kampaniyasına necə nail olmaları əks edilmişdir.

***Açar sözlər**: Daşnak-bolşevik birləşmələri, Stepan Şaumyan, soyqırım və talanlar, türk-müsəlman əhalisi, ermənilər*

## ƏHMƏD BƏY AĞAOĞLUNUN TÜRKİYƏDƏ MÜHACİRƏT DÖVRÜNDƏKİ FƏALİYYƏTİ

**Səidə Əli qızı**
**Bakı Dövlət Universitetı, Tarix fakültəsi, dosent**
**af.kerr@yandex.ru**

1909-cu ildə çar hakimiyyəti orqanlarının təqibləri üzündən Türkiyəyə mühacirət etmək məcburiyyətində qalan Ə.Ağaoğlu bütün sonrakı həyatını orada yaşamış və çoxsahəli fəaliyyətlə məşğul olmuşdur. İlk illərdə "İttihad və tərəqqi" cəmiyyətinə daxil olmuş, Maarif Müfəttişliyində və Süleymaniyyə kitabxanasında işləməklə yanaşı, bir sıra mətbu orqanlarının təsis olunmasında iştirak etmiş və bunlarda öz məqalələrini çap etdirmişdir. O, həmçinin "Tərcüman-i Hakikat"ın baş redaktoru və 1912-ci ildə Osmanlı parlamentinin deputatı kimi fəaliyyət göstərmişdir.

1915-ci ildə Rusiyada yaşayan milli azlıqların Lozannada keçirilən konfransında Azərbaycanın təmsilçisi kimi iştirak etmişdir.

1920-ci ildə Malta əsirliyindən qayıtdıkdan sonra türk xalqının Qurtuluş mücadiləsinə qoşularaq, Cümhuriyyətin elanından sonra ölkədə həyata keçirilən bütün islahatlarda Atatürkün ən yaxın məsləhətçisi və silahdaşı olmuşdur. Ankara höküməti tərəfindən Mətbuat Ümummüdiri təyin olunmuş, həmçinin milli mücadilənin rəsmi mətbu orqanı olan "Hakimiyyət-i Milliyə"nin baş redaktoru kimi çalışmışdır. II və III TBMM-nə millət vəkili seçilib, ölkənin ən vacib problemlərinin həllində yaxından iştirak etmişdir. O həmçinin Ankara və İstanbul universitetlərində müəllimlik fəaliyyəti ilə də

məşğul olmuşdur.

1930-ci ildə Atatürkün təşəbbüsü ilə müxalifət partiyası kimi yaradılan Sərbəst Firqənin qurulmasında, onun ideologiyasının yaradılmasında xüsusi rolu olmuşdur. Sərbəst Firqə avantürası bitdikdən sonra siyasi həyatdan uzaqlaşmış, 1933-cü ildə Cümhuriyyət Xalq Partiyasına müxalif mövqedə duran "Akın" qəzetini nəşr etdirmişdir. Qəzet bağlandıqdan və universitetdən təqaüdə göndərildikdən sonra siyasi həyatını başa vurub, mətbuatda məqalələr dərc etdirməklə məşğul olmuşdur. 1939-cu ildə vəfat etmiışdir.

***Açar sözlər:*** *Ə.Ağaoğlu, mühacirət, publisistika, TBMM-nin millət vəkili, liberalizm, "Akın" qəzeti*

## AZƏRBAYCANIN ŞİMAL-QƏRB RAYONLARININ ƏHALİSİNİN YAŞ TƏRKİBİ: UZUNÖMÜRLÜLÜK GÖSTƏRİCİLƏRİ
## (əhali siyahıyaalma materiallarına əsasən)

**Səidə Quliyeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dos.**
**seidequliyeva@gmail.com**

Dövlət proqramları və layihələr insan potensialına əsaslanıb həyata keçirilir. Dövlət orqanları üçün müxtəlif formal yaş qruplarına aid məlumatlar onların işinin təşkili üçün vacibdir. Müxtəlif dövrlərə aid əhalinin yaş tərkibi, orta yaş həddi, əmək qabiliyyətli əhalinin sayı, uzunömürlülüyü barədə materiallar, həmçinin onların müqayisəli təhlili gələcək üçün proqnozların verilməsi bir çox səbəbdən maraq kəsb edir və bu istiqamətdə mövzuların tədqiqini aktual edir.

Məqsəddən asılı olaraq əhalinin yaş qrupları fərqli qruplaşdırılır, müxtəlif kontingentlər müəyyənləşdirilir. Siyahıya-

alma materiallarında da yaş qrupları fərqli verilir və bu səbəbdən bütün materialları eyni metodla tədqiqata cəlb etmək çətinlik yaradır. Yaş qrupları arasında olan fərq əsasında əhalinin artım tempini, qocalmasını və hansı tipə aid olmasını müəyyən etmək olur.

XX əsrdə respublikada baş verən siyasi, iqtisadi və sosial problemlər əhalinin demoqrafik quruluşuna, yaş tərkibinə, məşğulluq vəziyyətinə təsir edib. Bu tədqiqatda Azərbaycan respublikasına, həmçinin respublikanın şimal-qərb rayonlarına aid göstəricilər təhlil və müqayisə edilir, yekunda proqnoz və təkliflər verilir. Tədqiqat 1989, 1999 və 2009-cu il əhali siyahıyaalma materialları və müxtəlif statistik göstəricilərə əsasən aparılıb. Mövzunun tədqiqi Azərbaycan əhalisinin demoqrafik vəziyyətinin öyrənilməsi üçün elmi əhəmiyyətə malikdir.

***Açar sözlər:*** *uzunömürlülük, yaş tərkibi, kənd əhalisi, şəhər əhalisi, əmək qabiliyyətli əhali, məşğul əhali, Şəki, Qəbələ, Balakən, Zaqatala, Qax, Oğuz*

## "AZƏRBAYCAN TARİXİ" FƏNNİNİN TƏDRİSİNİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

**Səidə Nəbiyeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, laborant**
**nabiyeva.22@mail.ru**
**Elmi rəhbər:t.f.d. Leyla Vaqif qızı**

Azərbaycan dünya xəritəsində coğrafi və siyasi cəhətdən çox önəmli mövqedə yerləşir. Bu gün Azərbaycan dünyada özünün füsunkar təbiətə, zəngin sərvətlərə malik ölkə olması ilə tanınır. Doğma diyarı qorumaq, vətənə, torpağa bağlılığı gücləndirmək üçün ölkə vətəndaşlarında vətənpərvərlik tərbiyəsinin formalaşdırılması olduqca zəruridir. Ölkəmizi qoruyub saxlamaq məsuliyyətinin dərk edilməsi, Vətənə məhəbbət

hislərinin aşılanması Azərbaycan tarixi təlimində mühüm yer tutur. Müstəqil Azərbaycanın hər bir vətəndaşı dövlətimizin müstəqilliyinin qorunub saxlanılmasını həyatının əsas vəzifəsi hesab etməlidir. Bu vəzifənin həlli isə gənc nəslin, vətəndaşlarının vətənpərvərlik ruhunda yetişdirilməsindən aslıdır.

Bu gün Azərbaycana vətənpərvər insanlar daha çox lazımdır. Doğma torpaqlarımız düşmən işğalı altındadır və bu işğala qarşı mübarizə aparmaq üçün vətənpərvər nəslin formalaşdırılması ən mühüm məsələlərdəndir. Bu gün gənc nəsildə müəyyən qədər formalaşmış vətənpərvərlik hislərini daha da inkişaf etdirməliyik. Ölkəmizin, xalqımızın mənafeyini müdafiə edən, ona sədaqətli, intellektual, hərtərəfli inkişaf etmiş vətənpərvərlər yetişdirməliyik. Azərbaycan Respublikasının ümumtəhsil və ali məktəblərində təhsil alanların intellektual, zəngin bilik və bacarıqlara yiyələnmiş, xalqa, millətə bağlı həqiqi vətənpərvər olaraq tərbiyə edilməsi təhsil siyasətinin əsas prioritetlərindəndir. Bu mənada tədris prosesində Azərbaycan tarixi təliminin geniş imkanlarından istifadə etmək vacibdir.

***Açar sözlər:*** *Azərbaycan tarixi, təhsil, vətənpərvərlik, təhsil strategiyası*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MAARİF SAHƏSİNDƏKİ TƏDBİRLƏRİ

**Solmaz Allahverdiyeva**
**ADPU Tarix fakültəsi, magistrant**
**a.solmaz@inbox.ru**
**Elmi rəhbər: dos. Almas Cavadova**

Müsəlman Şərqində ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən təhsilin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir. Məhz bu məqsədlə 1918-ci il 30 iyun tarixli qərara əsasən Gəncədə Xalq Maarif

Nazirliyinin dəftərxanası təşkil edildi və N.Yusifbəyli maarif naziri təyin edildi. AXC hökumətinin ilk tədbirlərindən biri məhz təhsil müəssisələrinin milliləşdirilməsi oldu. 1918-ci il 22 sentyabr qərarına əsasən məktəblər milliləşdirildi. 28 avqust 1918-ci il qərarına görə isə bütün məktəblərdə tədrisin Azərbaycan dilində keçirilməsi nəzərdə tutulurdu. Başqa millətlərdən olan uşaqlar üçün rus dilində məktəblərin açılması nəzərdə tutulmuşdu. Lakin, bu məktəblərdə həftədə 4 dəfə Azərbaycan dili ayrıca fənn kimi tədris edilməli idi. AXC hökuməti yeni təhsil sistemi yaratmaq üçün pedaqoji kadrların hazırlanmasına xüsusi əhəmiyyət verirdi. Pedaqoji kadrlara olan ehtiyacın təmin edilməsi məqsədi ilə, hətta hər il Azərbaycanın müxtəlif şəhərlərində seminariyaların açılması nəzərdə tutulmuşdu. Bu məqsədlə ilk olaraq hələ 1879-cu ildə Qoridə açılmış olan Seminariyanın Azərbaycan şöbəsi AXC hökumətinin qərarı ilə Qazax şəhərinə köçürülür və müstəqil seminariya kimi fəaliyyətə başlayır. 1919-cu ildə Bakıda kişi seminariyası açılır. Müxtəlif şəhərlərdə xüsusən Gəncə, Şəki, Şuşa, Qazax, Qusar, Salyan, Zaqatalada qadın və kişilər üçün pedaqoji kurslar açıldı. Həmçinin Gəncədə, Şəki və Zaqatalada qısa müddətli pedaqoji kurslar təşkil edildi və bu kurslara 150 nəfər qəbul edildi. Belə kursları təşkil etməkdə əsas məqsəd Respublikada müəllimlərə olan ehtiyacı ödəmək idi.

Azərbaycan hökuməti Bakı Dövlət Universitetinin, Konservatoriyanın, Pedaqoji İnstitutun, Gəncədə Kənd Təsərrüfatı İnstitutunun açılmasını planlaşdırırdı. Lakin, maliyyə çətinlikləri üzündən yalnız bir ali məktəbin Bakı Dövlət Universitetinin açılmasına nail ola bildi.

Bu hadisəni Azərbaycan hökumətinin maarif sahəsindəki ən böyük qələbəsi hesab etmək olar.

***Açar sözlər:*** *Azərbaycan, Bakı, xalq, təhsil, Universitet, AXC*

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRLƏRİNƏ BİR BAXIŞ ("ƏSRİMİZİN SİYAVUŞU" ƏSƏRİ ƏSASINDA)

**Sürəyya Səmədova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, doktorant**
**sureyyasemedova@mail.ru**
**Elmi rəhbər: prof. Anar İsgəndərov**

M.Ə.Rəsulzadənin əsərləri əvəzsiz tarixi mənbə əhəmiyyəti daşıyır. Ən dəyərli əsərlərindən biri Bakının bolşeviklər tərəfindən istilasından sonra bolşevik zülmündən qaçarkən Lahıcda qələmə aldığı "Əsrimizin Siyavuşu" əsəridir. Adından da göründüyü kimi, Firdovsinin "Şahnamə"sindən təsirlənərək yazılmış əsər nəinki XX əsr Azərbaycan tarixini, bütövlükdə dünya tarixini ehtiva edən əsərdir. Müəllif yaşadığı ağrılı-acılı günlərin təsiri ilə və eyni zamanda bitib tükənmək bilməyən vətən sevgisi ilə özünün vurğuladığı kimi "tariximizin Siyavuşundan bəhrələnərək əsrimizin Siyavuşunu" qələmə almış və burada Siyavuş obrazının yerinə Azərbaycanı qoymuşdur. Əsərdə qədim Midiya dövlətindən, şummerlərdən, Makedonyalı İsgəndərdən, Səfəvilərdən, Azərbaycan xalqının mənşəyindən, millət olaraq formalaşmasından, Rusiya imperiyası tərəfindən istilasından, bu istilanın gətirmiş olduğu mənfi və müsbət nəticələrdən, Dünya müharibəsindən, dünyada neftin önəmindən və bu neftin Azərbaycanın həm ən böyük sərvəti olmasından, həm də başına gələn müsibətlərin bir başa səbəbi olmasından söhbət açılır. Müəllif Azərbaycan-Türkiyə dostluğundan, İranla olan münasibətlərdən, yeni əsrin gətirmiş olduğu demokratik idarəçiliyin pirinsiplərindən, millətimizin inkişaf baxımından bütün şərq xalqlarını üstələməsindən, nəinki ilk teatrın, mətbəənin, hətta ilk Cümhuriyyətin bizə məxsus olmasından qürurla bəhs edir. Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbir-

lərdən bəhs edərək Bakının işğaldan azad olmasını, ordu quruculuğunu, təhsildəki, idarəçilikdəki yeniliklərdən bəhs etməklə yanaşı, Cümhuriyyətin süqutunun səbəblərini də müəyyən etməyə çalışır.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cumhuriyyəti, Məhəmməd Əmin Rəsulzadə, müəllif, siyasi xadim, bolşevik, Firdovsi, Siyavuş, Lahıc, Türkiyə, İran, Rusiya, neft, üçrəngli bayraq*

## QUBA QƏZASINDA BAŞ VERMIŞ "QANLI DƏRƏ" ƏHVALATI VƏ ÜÇ QƏHRƏMAN HAQQINDA BƏZİ QEYDLƏR

**Şahin Fərzəliyev**
**AMEA Tarix İnstitutu, professor**

XX əsrin əvvəllərində regionda baş verən siyasi hadisələr eyni zamanda faciələrlə də müşaiyət olundu. 1918-ci ilin martında bolşevik-daşnak qüvvələri tərəfindən törədilən soyqırım barədə müstəqillik dövründə tədqiqatlar aparılsa da, bir sıra məqamlara toxunmaq, daha geniş araşdırmaq vacibdir.

1918-ci ilin may ayının 18-də Quba qəzasının "Qanlı dərə" adlı yerində yerli əhali ilə bolşevik-daşnak qüvvələri arasında baş vermiş qanlı döyüşdə hər iki tərəfdən çoxlu adam öldürülmüş, nəticədə həmin işğalçı dəstə məğlubiyyətə uğramışdı. "Qanlı dərə" döyüşünə üç qəhrəman – Möhübəli əfədi, Hatəm ağa Caqarvi və Həmdulla əfəndi başçılıq etmişlər. Erməni-bolşevik dəstələri ilə aparılan döyüşlər, əhalı qırğınları, siyasi danışıqlar geniş təhlil edilir.

Tədqiqat arxiv materialları və şahid ifadələri əsasında aparılmışdı.

Məqalədə AXC hakimiyyəti dövründə və ondan sonra bolşevik-daşnak dəstələrinə qarşı davam edən mübarizə barədə

məlumat verilir.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Rusiya, bolşeviklər, daşnaklar, Quba, "Qanlı dərə" döyüşü, Möhübəli əfəndi, Hatəm ağa Caqarvi, Həmdulla əfəndi*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN ZİYALI QADINLARI

**Şəbnəm Məmmədli**
**Oğuz rayonu Yaqublu kənd tam orta məktəbi,müəllim**
**memmedli.shebnem@bk.r**
**Elmi rəhbər: Nurməmmədov Rəşid**
**Oğuz RTŞ, baş məsləhətçi**

Müsəlman Şərqinin ilk demokratik respublikası olan AXC-nin 100 illik yubileyi ictimaiyyətin diqqətini yenidən tariximizin bu şanlı səhifəsinə yönəltmişdir. AXC dövründə Azərbaycan qadınına böyük inam, hörmət və rəğbətini nümayiş etdirmiş, ona ictimai-siyasi hüquqlar vermişdir. XIX əsrdən başlanan maarifçilik hərəkatı Azərbaycan qadınının sosial-mədəni inqilabına təkan vermiş, onu tədricən cəmiyyətin fəal, mübariz qüvvəsinə çevirmişdir. Maneələrə baxmayaraq, mütərəqqi fikirli ailələrin qız övladları dünyəvi təhsil almış, müxtəlif sahələrdə çalışaraq xalqın milli oyanışına töhfə vermişlər. Belə qabaqcıl dünyagörüşə malik qadınlarımızın bir qismi AXC-nin yaranması və fəaliyyəti dövründə kişilərlə bərabər mübarizə aparmışlar.

Məqalədə dövrün ziyalı, vətənpərvər qadınlarının layiqli təmisilçiləri: Ümmugülsüm Sadıqzadə, Həmidə Cavanşir, Şəfiqə Əfəndizadə, Nazlı Tahirova, Gövhər Qayıbova-Usubova və başqalarının təhsil, elm, sənət və ictimai sahələrdə fəaliyyətləri tədqiq edilir. XX əsrin əvvəllərində Azərbaycan qadınlarının mühüm problemlərindən biri təhsil almaq imkanının məhdudluğu

idi. Qadınların təhsil alması, qadınlar arasında savadsızlığın aradan qaldırılması, qadın sağlamlığı, onların iqtisadi azadlığının təmin olunması məsələləri öz aktuallığını saxlamışdır. Bu xanımlar AXC dövründə qadın hüquqlarının müdafiəsi və təhsilə cəlb edilməsi, xeyriyyəçilik fəaliyyətləri ilə dövlətin möhkəmlənməsi və dövlət siyasətinin həyata keçirilməsinə tövhə veriblər.

Təqdiqatın əsas məqsədi Azərbaycan qadınının AXC dövründə ictimai-siyasi həyatda iştirakının mövcudluğunu təsdiqləmək, fədakar ziyalı qadınlarımızın tarixi fəaliyyətini müasir gənclərə örnək kimi çatdırmaqdır. Mövzu Azərbaycanlı maarifpərvər xanımlar barədə aparılan tədqiqatlara əsasən araşdırılır.

***Açar sözlər:*** *Maarifçi qadınlar, Azərbaycan Xalq Cümhuriyyəti, Şəfiqə Əfəndizadə, Həmidə Cavanşir, Gövhər Qayıbova-Usubova, Nazlı Tahirova, Ümmugülsüm Sadıqzadə*

## RUSYA BASININA GÖRE: BİR MİLLET, İKİ DEVLET

**Tamara Ölçekçi**
**Ankara Tarım ve Orman Bakanlığı, Doç. Dr.**
**tamaraolcekci@gmail.com**

100 yıllık Cumhuriyet olma jübilesini kutlayan Azerbaycan Cumhuriyetine belli başlı ülkeler özel bir ilgi duymaktadır. İlginin sebebi Azerbaycan'ın hem stratejik, hem de jeopolitik açıdan önemli bir devlet olmasıdır. Bir de Türk Dünyası konusu devreye girince Rusya gibi ülkelerin dikkati daha da artmaktadır. Bunun örneği Türkiye-Azerbaycan ilişkileri hakkında Rus basınında azımsanmayacak derecede haberlerin, yorumların ve görüşlerin yer almasıdır. Türkiye-Azerbaycan ilişkilerinin sıcaklığı, engellere rağmen yakınlaşmanın daha da artmaya devam etmesi Rusya Federasyonu'nun memnuniyetsizliğine neden olmaktadır. Rusya, eski SSCB ülkelerinden biri olan Azerbaycan'ın aynı geleneklerden gelmektedir ve Azerbaycan'ın Rusya

ekseninde ilerlemesini arzu etmektedir.

Haydar Aliyev'in 'Biz bir millet, iki devletiz' meşhur sözleri Türkiye-Azerbaycan ilişkilerine egemen oldu ve iki ülke arasındaki sıcak ilişkiler 'kardeş' ifadeleriyle de yıllardır anılmaktadır. İşte 'bir millet, iki devlet' sözü iki ülkenin dil, kültür birlikteliğinin ve aynı tarihe tanıklık ettiğinin kısa ve net ifadesidir. Türkiye-Azerbaycan ilişkilerinin temeli duyguya dayalı olması ile ayır edilmektedir. Çıkarlar ise ikinci derecede kalmaktadır. Bu tarz ilişkilerin örneğine nadir rastlanmaktadır. Azerbaycan'ın Türkiye ile olan ilişkileri hakkında çok sayıda araştırmalar mevcuttur. Makaledeki amacımız Rus basınının Türkiye-Azerbaycan ilişkilerine olan bakış açısına, eleştirilerine, eğilimine ve isteklerine dikkat çekmektir.

***Anahtar Kelimeler**: Türkiye-Azerbaycan İlişkileri, "Bir Millet, İki Devlet", Rus Basını, Türk Dünyası*

## "ÜÇ MƏDƏNİYYƏT" ƏHMƏD BƏY AĞAOĞLU ŞƏRHİNDƏ

**Təhminə Vəliyeva**
**AMEA Ədəbiyyat İnstitutu, kiçik elmi işçi**
**valiyevatahmina@gmail.com**
**Elmi rəhbər: f.e.d. Elçin Mehrəliyev**

Azərbaycan mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi Əhməd bəy Ağaoğlu "Üç mədəniyyət" adlı əsərini 1919-cu ildə Maltada yazmışdır. Bu əsərdə Brəhmən-Budda, İslam-Şərq, Avropa-Qərb mədəniyyətlərinin fərqli və oxşar cəhətləri şərh olunmuşdur və həmçinin, İslam-Şərq mədəniyyəti, Brəhmən-Budda mədəniyyəti Avropa-Qərb mədəniyyəti ilə qarşılaşdırılmışdır. Bu qarşılaşdırmada Əhməd bəy Ağaoğlu üstünlüyü bu gün yüksək inkişaf tapmış və dünya mədəniyyətlərinə güclü təsir göstərən Avropa-Qərb mədəniyyətinə verir. O, İslam-Şərq

və Brəhmən-Budda mədəniyyətinin tənəzzülü səbəblərini göstərməklə yanaşı, artıq tənəzzül dövrü keçirən bu mədəniyyətlərin yeni inkişaf yoluna qədəm qoyması üçün şərti olaraq "qalib mədəniyyət" adlandırdığı Avropa-Qərb mədəniyyətinin nailiyyət və uğurlarından bəhrələnməyin ən faydalı üsul və ən qaçılmaz həll yolu olduğunu bildirirdi. "Üç mədəniyyət"in tənəzzül, inkişaf və formalaşma məsələləri müəllif tərəfindən ətraflı səciyyələndirildikdən sonra Brəhmən-Budda və İslam-Şərq mədəniyyətlərinin tənəzzül səbəbləri din, əxlaq, ailə, fərd, dövlət, hökumət və cəmiyyət kontekstlərində araşdırılmış və müəllif bu sadalanan kontekstlər üzrə qoyulan məsələləri şərh etməklə bərabər, hər birinə dair konkret nümunələr vermişdir. Bu "üç mədəniyyət"in inkişafa, yaxud tənəzzülə uğradan səbəblər bu mədəniyyətlərin daşıyıcısı olan xalqların malik olduğu maddi və mənəvi dəyərləri fonunda şərhini tapır.

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlu, "üç mədəniyyət", mədəniyyətlərarası münasibətlər, qalib mədəniyyət, tənəzzül və inkişaf*

## QAFQAZDA ETNİK MÜNAQİŞƏLƏRİN HƏLLİ UĞRUNDA HEYDƏR ƏLIYEVİN FƏALİYYƏTİ (DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TİMSALINDA)

**Türkan Qasımova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dissertant**
**turkan.ilqar1990@mail.ru**
**Elmi rəhbər: prof. İradə Hüseynova**

Münaqişələr bəşəriyyət yarandığı dövrdən mövcuddur. Cəmiyyətin inkişaf tarixi ərzində qəbilələr, şəhərlər, ölkələr, dövlətlər arasında mübahisə və müharibələr baş vermiş və bu bəzən illərlə davam etmişdir.

Post sovet məkanında, Balkanlarda baş vermiş, Yaxın

Şərq və Əfqanıstanda davam edən münaqişələr son dövrlərin ciddi siyasi problemlərindəndir.

Hazırda dünya dövlətlərinin qarşıdurmasına səbəb ola biləcək bu cür təhlükə və böhran vəziyyəti başqa regionlarda olduğu kimi Qafqazda da mövcuddur.

SSRİ-nin süqutu ərəfəsində Qafqaz xalqları arasında suverenlik meyllərinin güclənməsi sovet idarəetmə sistemini narahat etməyə başlayır. Bu sistem dünyanın geopolitik xəritəsində özünəməxsus əhəmiyyətə malik olan ictimai-siyasi vəziyyəti daha da mürəkkəbləşdirir və nəyin bahasına olursa-olsun, Qafqaz xalqlarının suverenlik meyllərinin qarşısını almağa cəhdlər göstərir. Sovet idarəetmə sistemi bu çıxışların istiqamətinin dəyişdirmək üçün, ilk növbədə, erməni amilindən istifadə etdi ki, milli münasibətlərin ən gərgin ocaqlarından biri də Dağlıq Qarabağ münaqişəsi oldu.

Belə ki, Erməni millətçilərinin əsassız ərazi iddiaları ilə başlanmış Dağlıq Qarabağ münaqişəsi nəticəsində iyirmi ildən artıqdır ki, Qafqaz dünyanın ən qaynar regionlarından birinə çevrilmisdir. Bu müddət ərzində Azərbaycan əhalisi "nə müharibə, nə sülh" şəraitində yaşayır. Azərbaycanın 9 milyonluq əhalisinin hamısına təsir göstərən bu faciə öz doğma yerindən-yurdundan didərgin düşmüş bir milyondan çox azərbaycanlının normal yaşayış şəraitindən məhrum olması ilə nəticələnmişdir.

Qafqazda, o cümlədən Cənubi Qafqazda, sülhün, sabitliyin təmin olunmasında və etnik münaqişələrin aradan qaldırılmasında ilk dəfə, 1993-cü ilin ikinci yarısından başlayaraq, məhz Heydər Əliyevin dərin nəzəri təhlili əsasında mövcud reallıqlar nəzərə alınaraq, əməli tədbirlər həyata keçirilməyə başlandı.

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, ermənilərin Qafqaza köçürülməsi, H.Əliyev, münaqişə*

# AZƏRBAYCAN ƏHALİSİNİN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ (STATİSTİK MƏLUMATLAR ƏSASINDA)

**Ulduz Paşayeva**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, böyük elmi işçi**
**star.miri@mail.ru**
**Elmi məsləhətçi: dos. Arzu Məmmədova**

Məqalədə həm Sovet dövründə, həm də müstəqillik illərində keçirilən əhali siyahıyaalmalarının materialları əsasında Azərbaycanın ümumi əhalisinin, həmçinin şəhər və kənd yerləri üzrə yerləşən əhalinin say dinamikası, təbii artımı, doğum və ölüm əmsalları təhlil edilmişdir.

Azərbaycan SSR SSRİ-nin tərkibində olduğu dövrdə burada 1926, 1939, 1959, 1970, 1979 və 1989-cu il əhali siyahıyaalmaları keçirilmişdir. II Dünya müharibəsindən sonra keçirilən dörd siyahıyaalma (1959, 1970, 1979, 1989) sovet əhali siyahıyaalmaları tarixində mühüm əhəmiyyət kəsb edirdi.

1959-cu il əhalinin siyahıya alması ilə müharibədən sonrakı dövrdə SSRİ, o cümlədən Azərbaycan SSR əhali haqqında məlumat məcmuəsinin əsası qoyuldu. 1970,1979 və 1989-cu il əhali siyahıyaalmalarının məlumatları isə əsas göstəricilərin dəyişməsi və onun başlıca tendensiyasını izləməyə imkan verdi. Əhaliyə dair göstəricilər içərisində əhalinin say dinamikasının müəyyənləşdirilməsi əsas yerlərdən birini tutur. Həmçinin, əhalinin yerləşməsində də dəyişikliklər baş vermişdi.

Sovet dövrü və müstəqillik dövründə keçirilən siyahıyaalma materiallarının təhlili göstərir ki, şəhərdən fərqli olaraq kəndlərin sayı getdikcə azalmağa başlamışdır. Bəzi kəndlərdə əhalinin sayı azalaraq başqa kəndlərlə birləşdirilməsi yeni tipli qəsəbələrin yaranması və ya statusunun daha genişmiqyaslı olması ilə bağlı olmuşdur.

***Açar sözlər:*** *Azərbaycan, əhali, say dinamikası, statistika*

# DİLÇİLİYİN "VƏTƏN" KONSEPTİNİN BƏZİ ANLAYIŞLARI ("KİTABİ- DƏDƏ QORQUD DASTANI ƏSASINDA)

**Ülkər Abdullayeva**
**Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, doktorant**
**aul8537@gmail.com**
**Elmi rəhbər:dos. Mehman Abdullayev**

"Kitabi Dədəm Qorqud" dastanı "vətən" konsepti baxımından dilçilik elmində ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Qədim Oğuz türklərinin həyatı, məişəti, təsərrüfatı, dünyagörüşü, mifologiyası, mənəvi-əxlaqi dəyərləri, vətən uğrunda yadelli işğalçılara qarşı mübarizəsi, Oğuz elində mövcud olan siyasi münasibətlər və s. haqqında hərtərəfli məlumat verən bu qəhrəmanlıq dastanı Müqəddimə və 12 boydan ibarətdir. Dastan üzərində apardığımız təhlillər göstərir ki, hər hansı bir insanın ölkəsindən, sözün geniş mənasında vətənindən daha əvvəl bağlı olduğu və yaşadığı, həyatını sürdüyü "ev" anlayışının müxtəlif çalarlarına epik abidənin ayrı-ayrı boylarında 50 dəfədən çox rast gəlinmişdir. Dastanının yaranmasından 1300 ildən çox keçsə də, ingilislərdə olduğu kimi türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin "vətən" anlayışında "ev" konsepti uzun müddət özünün ilkin mənasını qoruyub saxlamışdır. Oğuz türklərinin, o cümlədən, azərbaycanlıların dünya dil mənzərəsinə daxil olan və "vətən" konseptinin əsas anlayışlarından biri olan "yurd" lekseminə dastanda 5 yerdə rast gəlinmişdir. Dastanın dördüncü boyunda isə "vətən" konseptinə daxil olan "ölkə" anlayışına rast gəlinir. "Vətən" konseptində "ev", "oba", "ölkə", "yer", "yurd" anlayışları ilə yanaşı, hər hansı bir etnosun yayıldığı geniş ərazini ifadə edən termin - böyük vətən anlayışı aparıcı rola malikdir. Dilçiliyin "vətən" konsepti baxımından yanaşdıqda, aydın olur ki, dastanda Azərbaycan türkləri yaşadıqları

vətənlərini daha çox toplayıcı, birləşdirici məfhum olan Oğuz adlandırmışlar.

***Açar sözlər:*** *Vətən, yurd, ev, dastan, Oğuz, Dədə Qorqud*

## ŞƏKİ "XAN QƏBİRİSTANLIĞI" AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ TARİXİ-EPİQRAFİK MƏNBƏ KİMİ

**Ülkər Sərkərova**
**AMEA Tarix İnstitutu, dissertant**
**ulker.serkerova@mail.ru**
**Aygül Xəlilova**
**AMEA ŞREM-i, kiçik elmi işçi**
**aygul.xelilova@bk.ru**
**Habil Xəlilov**
**AMEA ŞREM-i, laborant**
**Elmi rəhbər: prof.Mustafazadə Tofiq**

Azərbaycanın şimal-qərb bölgəsinin tarixi-epiqrafik abidələri içərisində qəbirüstü abidələr xüsusi yer almaqdadır. Bu nümunələr özündə zəngin siyasi, tarixi, etnoqrafik, mədəni irsi yaşadaraq maddi və mənəvi mədəniyyətimizin bu günə qədər gəlib çatmasında önəmli mənbələrdən birinə çevrilmişdir.

Bölgənin epiqrafik abidələrinin öyrənilməsində bir sıra tədqiqatçıların, o cümlədən görkəmli epiqrafist alim, akademik Məşədixanım Nemətin apardığı tədqiqatlar xüsusilə qeyd edilməlidir. Müəllif yalnız Şəki şəhərində 100-dən çox epiqrafik abidəni, həmçinin "Xan qəbiristanlığı"nda mövcud olan qəbir abidələrini öyrənmişdi.

2015-ci ildən AMEA Şəki Regional Elmi Mərkəzin "Tarixi İrs və Etnoqrafiya şöbəsi"nin əməkdaşları Şimal-qərbi Azərbaycanın epiqrafik abidələri, eyni zamanda Şəki şəhər "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində yerləşən "Xan qəbiristanlığı"ndakı başdaşıların tədqiqini davam etdirmişlər.

Şəki "Xan məscidi"nin cənub tərəfində yerləşən Şəki "Xan qəbiristanlığı"nda vaxtilə 15-20-yə qədər yazılı başdaşı olduğu qeyd edilir. Hal-hazırda bu məzarlıqda cəmi 11 epiqrafik nümunə mövcuddur. Başdaşılar əsasən dikili daş şəklindədir. Qəbir kitabələrinin bəziləri bişmiş kərpiclə tağ, çatma tağ şəklində hörülmüşdür. Başdaşıların bəziləri yerli inşa materialı olan qaya və çay daşından, bəziləri isə mişar daşından hazırlanmışdır. Epitafiyalar sülus, nəsx, nəstəliq xətləriylə yazılmışdır. Başdaşılar üzərində mərhuma aid bilgilərlə yanaşı, Qurani-Kərimdən ayələr, farsca şeir parçaları, hikmətamiz sözlər həkk edilmişdir. Kitabələrdə nəbati işləmələr, ulduz, ay, xəncər, qılınc, ibrik təsvirləri də yer alır.

Məqalədə Şəki "Xan qəbiristanlığı"nda yerləşən epiqrafik abidələri tədqiqata cəlb etməklə onların spesifik xüsusiyyəti, tarixi əhəmiyyəti haqda ətraflı məlumat verilmişdir.

***Açar sözlər**: Şəki, xan, epiqrafik abidələr, tarixi mənbə, "Xan qəbiristanlığı"*

# CƏNUBİ AZƏRBAYCANLILARIN ÖZ MİLLİ TARİXİNİ YAZMA CƏHDLƏRİ: RƏSMİ TARİXŞÜNASLIĞA QARŞI MİLLİ TARİXŞÜNASLIQ

**Ümid Niayeş**
**müstəqil tədqiqatçı**
**Umidniayesh@gmail.com**

XIX əsrin sonlarından etibarən başlayan modernləşmə prosesində millət və milliyyət anlayışları, bu anlayışların dil və vətənlə olan əlaqələri haqqındakı düşüncələr Avropanın yeni fikirləri ilə birlikdə İrana gələrək burada yaşayan müxtəlif xalqların, o cümlədən cənubi azərbaycanlıların milli şüuruna, özünü dərk etmələrinə və kimliklərinin formalaşmasına yön

verməyə başladı.

Ancaq ölkədə Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi ilə fars xalqının dili və soykökünü əsas alaraq yeni dövlət-millət formalaşdırma siyasəti bu prosesi ciddi şəkildə ləngitdi. Ölkədə hakimiyyətin millət yaratma və yeni kimlik formalaşdırma siyasətinə xidmət edən rəsmi tarixçilik yaradıldı.

Buna baxmayaraq, İran türk aydınlarının önəmli bir qismi son 100 ildə rəsmi tarixçiliyin irəli sürdüyü nəzəriyyələrə qarşı müqavimət göstərib, ona paralel olaraq milli kökləri və tarixlərini müdafiə edən milli tarixşünaslıqlarını yaratmağa cəhd etmişlər. Lakin, onların təsir dairəsi özəlliklə İran İslam inqilabından (1978-1979-cu illər) öncə çox məhdud olmuş və öz düşüncələrini cəmiyyətə çatdırmaqda bir o qədər də uğurlu olmamışlar.

Məqaləmizdə İranda türklər tərəfindən öz tarixləri mövzusunda nəşr edilən kitablar və məqalələr incələnərək Cənubi azərbaycanlıların milli tarixşünaslığını yaratma cəhdləri və bu sahədə müxtəlif elmi məktəblər tədqiq olunmuşdur.

Bu gün xalqımızın əsas hissəsinin Cənubi Azərbaycan ərazisində yaşadıqları faktını nəzərə alsaq orada cərəyan edən müxtəlif düşüncə və fikir axınlarını, o cümlədən tarixşünaslıq meyllərini elmi cəhətdən araşdırıb və elmi ictimaiyyətə tanıtmaq xüsusi əhəmiyyət kəsb edir. Məqalə Cənubdakı soydaşlarımızın tarixşünaslıq məktəblərini araşdıraraq xalqımızın düşüncə sferasının bu sahəsini tanıyıb tanıtmağa kiçik bir pəncərə açmağa çalışır.

***Açar sözlər:*** *Cənubi Azərbaycan, İran türkləri, Cənubi Azərbaycan tarişünaslığı, tarixşünaslıq*

# ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZDA NÖVBƏTİ İŞĞALÇILIQ HƏDƏFİ SAMTSXE-CAVAXETİYADIRMI?!

**Vüqar Həsənov**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, magistrant**
**vugarhasanzade@mail.ru**
**Rəna Hüseynova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, böyük e.i.**
**rena_g83@mail.ru**
**Elmi rəhbər: dos. Səidə Quliyeva**

Samtsxe-Cavaxetiya bölgəsi tarixən Axısqa (Məhsəti) türklərinin kompakt şəkildə yaşadığı bir bölgə olmuşdur. 1829-cu ildə Rusiya ilə Osmanlı imperiyası arasında imzalanmış Ədirnə sülh müqaviləsi ilə ermənilərin bu əraziyə köçürülməsinin əsası qoyulur. II Dünya müharibəsi ərəfəsində Axısqa (Məhsəti) türkləri Samtsxe-Cavaxetiya bölgəsindən deportasiya edilir və onların yaşadıqları ərazilərdə ermənilər yerləşdirilir. Məqalədə Samtsxe-Cavaxetiya probleminin yaranmasının əsas səbəbləri, Gürcüstanın problemin həlli üçün gördüyü tədbirlər, ermənilərin Gürcüstan hökumətindən tələbləri, erməni siyasi partiya və təşkilatlarının problemin kəskinləşməsində rolu, Ermənistan və Gürcüstan arasında münasibətləri gərginləşdirən əsas amillər, ABŞ-ın problemin həlli üçün Gürcüstan hökumətinə təqdim etdiyi təkliflər göstərilmişdir.

***Açar sözlər:*** *Ermənistan, Gürcüstan, Samtsxe-Cavaxetiya bölgəsi, Axısqa (Məhsəti) türkləri, ermənilər, Samtsxe-Cavaxetiya problemi*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DİNİ ETİQAD NAZİRİ MUSA RƏFİYEV

**Zəhra İslamova**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi, t.f.d.**
**zehra.islamova.80@mail.ru**

Dövlətçiliyimizin parlaq səhifələrindən olub, istiqlaliyyətimizin zirvəsi hesab edilən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan tarixi" əsərində belə qiymət verir: "... rus imperatorluğunun xarabalıqları altından Azərbaycan milli bir bütöv halında qiyam etdi və ... istiqlalına qovuşdu".

Bu şanlı tarixi yazanlar içərisində bir çox tanınmış üzvləri olan Rəfiyevlər nəslini və onların görkəmli nümayəndəsi Musa Rəfiyevi xüsusi qeyd etməliyik. Portfelsiz nazir kimi Fətəli xan Xoyskinin ikinci kabinetində yer alan Musa Rəfiyev xüsusi tapşırıqlar yerinə yetirir, 1918-ci ilin oktyabrında kabinet daxili dəyişikliklər zamanı Sosial Təminat və Dini Etiqad naziri təyin edilir. AXC dönəmində müxtəlif vəzifələr icra edən Musa Rəfiyevin parlamentdəki çıxışları və qanunların qəbul edilməsində, layihələrin hazırlanmasında göstərdiyi mövqe Cümhuriyyətin daxili siyasətini yönləndirmiş oldu. AXC 1920-ci il aprelin 27-də işğal edilir. M.Rəfiyev rus işğalı və sovet rejiminə qarşı qalxmış Gəncə üsyanında iştirak etsə də, məlum məğlubiyyətdən sonra bir sıra hökumət nümayəndələri və parlament üzvləri kimi o da ölkəni, doğma Vətənimizi tərk etmək məcburiyyətində qalır. Bundan sonra bu görkəmli dövlət xadiminin həyatında mühacirət dövrü başlayır.

Həyatının istənilən dönəmində isğalçı rus-sovet rejiminə qarşı mübarizə aparan görkəmli şəxsiyyətimiz olan Musa Rəfiyev şanlı tariximizin parlaq şəxsiyyətlərindəndir. Onun simasında "müstəqillik və istiqlal uğrunda mübariz necə olur?"

sualını cavablandıra bilərik.

***Açar sözlər:*** *Rəfiyevlər, portfelsiz nazir, hökumət nümayəndəsi, qanun lahiyələri, parlament, mühacirət*

## МАМЕД ЭМИН РАСУЛЗАДЕ – ИДЕОЛОГ НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНОГО ДВИЖЕНИЯ

**Айгюн Гашимова**
**Бакинский Государственный Университет, Исторический факультет, бакалавр, III курс**
**hashimovaa1998@mail.ru**
**Научный руководитель: проф. Елмира Мурадалиева**

В этом году исполнилось 100 лет важного события для национальной истории Азербайджана, со дня провозглашения Азербайджанской Демократической Республики-первого образца демократического, правового и светского государства на всём Востоке, в том числе и в тюрко-исламском мире, а также 134 лет со дня рождения М.Э.Расулзаде-идеолога, основателя АДР. В связи со знаменательной датой президент Ильхам Алиев подписал распоряжение о проведении мероприятий, и объявил 2018-й год «Годом АДР». М.Э.Расулзаде являлся председателем Национального совета, который принял акт независимости АДР-28 мая 1918 г. Возглавляемая М.Э.Расулзаде партия "Мусават" стала сильнейшей политической организацией Южного Кавказа, главным пропагандистом национально-освободительных идей. С именем М.Э.Расулзаде связан принятие впервые постановления о трехцветном Государственном флаге 9 ноября 1918 г. правительством АДР, которая стала закономерным результатом национального возрождения. С участием М.Э.Расулзаде образованы первый парламент и

правительство, государственный аппарат, установлены границы, созданы флаг, гимн и герб, родной язык объявлен государственным языком, приняты серьезные меры в области государственного строительства. М.Э.Расулзаде основатель первой и самой крупной высшей школы Азербайджана – Бакинского Государственного Университета 1 сентября 1919 г. Сам М.Э.Расулзаде читал лекции первым студентам БГУ. Идеология существил важную миссию по повышению уровня национального самосознания и просвещения. Сегодня данный университет – учреждение высшего профессионального образования. Находясь в Германии М.Э.Расулзаде смог освободить часть пленных азербайджанцев из концлагерей, в том числе Героя Советского Союза легендарного партизана Мехти Гусейнзаде. М.Э.Расулзаде- один из организаторов первой Закавказье мусульманской социал-демократической группы «Гуммет», издавал в Баку газету «Текамюль», участвовал Иране революции, издавал первое в Иране газету европейского типа - «Ирани-Ноу», в Стамбуле книгу «Азербайджанская Республика», «Ени Кавкасия». В Париже книга: сборник «О пантуранизме». Из 71 года жизни 31 год М.Э.Расулзаде прожил в Азербайджане, остальные 40лет-различных странах (Иран, Турция, Грузия, Россия, Финляндия, Германия, Польша, Румыния, Франция, Швейцария) вел борбу за независимость. В эмиграции возглавлял Заграничное представительство «Мусават» и президиум Азербайджанского национального центра, являлся членом организации «Прометей» (Лиги угнетенных Россией народов). М.Э.Расулзаде сделал больше возможного для воплощения в жизнь идеалов свободы и независимости, благодаря которого в начале XXв. на политической карте мира появилось государство «Азербайджан». Его высказывание "Bir kərə

yüksələn bayraq bir daha enməz!" стало лозунгом национального движения в Азербайджане в XX веке.

***Ключевые слова***: *АДР, М.Э.Расулзаде, идеолог, государство, национальное, независимость, основатель*

## ТУРЕЦКО-АРМЯНСКИЕ ОТНОШЕНИЯ В ПЕРВЫЕ ДЕСЯТИЛЕТИЯ XXI ВЕКА

**Айнур Гусейнова**
**Бакинский Государственный Университет,**
**Исторический факультет, и.о. доцент, докторант**
**aynur-quseynova@rambler.ru**

Армения - единственное из государств, с которым все складывается не просто. Дипломатические отношения между странами на стадии «заморозки» в связи трагическими событиями прошлого, религиозно-культурными различиями, разностью внешнеполитических ориентации двух государств и присущей народам Кавказа гордостью, которая не позволяет забыть прошлое и двигаться вперед.

Руководство Турции приостановило Цюрихский процесс по политическому урегулированию армяно-турецких взаимо-отношений, увязав ратификацию подписанных протоколов с освобождением оккупированных районов вокруг Нагорного Карабаха.

Иными словами, Турция, несмотря на давление США и ЕС, поддержала официальный Баку, выступившего против дифференцированного подхода к процессу нормализации армяно-турецких взаимоотношений и политическому урегулированию Карабахского конфликта.

***Ключевые слова:*** *Южный Кавказ, Турция, Азербайджан, Армения, Россия, ОБСЕ, США, Нагорный Карабах, ЕС*

# ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ НА ПУТИ К УКРЕПЛЕНИЮ СУВЕРЕНИТЕТА

**Айнура Мамедова**
**Бакинский Государственный Университет, Исторический факультет, д.ф.п.и.**
**aynur_mammedova@bk.ru**

В статье рассматривается национальная политика Азербайджанской Демократической Республики в области строительства национального государства. На первом заседании Национального Совета 28 мая 1918 года было принято решение объявить Азербайджан независимой республикой. Так же было принято «Декларация о независимости». Азербайджанская Демократическая Республика была парламентской республикой. Подобно всем демократическим государством Западной Европы и США, в АДР принимался принцип разделения власти. Законодательная власть сначала находилась у Национального Совета, потом у парламента, исполнительная власть у правительства, который нес ответственность перед парламентом. Восстановленный 16 ноября 1918 года Национальный Совет 19 ноября принял закон о создании Азербайджанского парламента. В Азербайджанской Демократической Республике первые, в тюркском мусульманском мире женщины получала права голоса. Согласно указу от 27 июня 1918 года тюркский язык объявлялся государственным языком. Так же самыми важными проблемами, которые стояли перед новым государством было создание национальной армии и военного флота.

***Ключевые слова:*** *Азербайджанская Демократическая*

*Республика, государство, политика, независимость, строительство, парламент*

# ИЗ ИСТОРИИ АЗЕРБАЙДЖАНЦЕВ В КАЗАХСТАНЕ

**Амангельды Кашкимбаев**
**Астана, Институт Истории Государства, доцент,**
**amangeldy51@mail.ru**
**Куат Саманбеков**
**Магистр социальных наук по специальности История**
**kuat-8383@mail.ru**
**Айгерим Сейфуллина**
**Магистр социальных наук по специальности Политология**
**ayga27@mail.ru**

Азербайджанская диаспора разбросана по всему миру. Азербайджанцы проживают во многих странах мира, и во всех республиках бывшего Советского Союза, в том числе и в Казахстане. Но это не мешает тысячам азербайджанцев жить и творить в Казахстане. Многие из них не по своей воле приехали в Казахстан (были высланы в ходе сталинских репрессий), но вместе с мигрантами 90-х годов XX века они прижились в Казахстане, и считают его своей второй Родиной.

Азербайджанская диаспора формировалась в Казахстане в три этапа. Первая волна относится к 30-м годам XX века. Затем в годы Второй мировой войны прошел второй этап переселения азербайджанцев с Северного Кавказа и Грузии вместе с чеченцами, греками, а также из Шамхорского района Азербайджана, где компактно проживали немцы. И третий этап переселения выпал на время целинной эпопеи.

Если первые два этапа формирования азербайджан-

ской диаспоры сопровождались насильственными мерами, то в 50-60-е годы переселение было вызвано в основном с социально-экономическими факторами. Азербайджанская диаспора формировалась за счет военнослужащих, остававшихся после демобилизации в местах прохождения службы на постоянное местожительство, выпускников средних специальных и высших учебных заведений, направляемых на работу в Казахстан, переселенцев, мигрировавших во вновь осваиваемые районы страны. В 1950-е гг. многие азербайджанцы в индивидуальном порядке или по комсомольскому набору отправлялись в Казахстан на освоение целины. В 1960-80-е гг. приток азербайджанцев в Казахстан усилился в связи с освоением новых индустриальных районов

В конце 1980-х - 1990-х гг. новая волна миграции из Азербайджана в Казахстан была вызвана усилением социально-экономических и этнополитических процессов. Основными причинами массового переселения азербайджанцев 1980-х - 1990-х гг. являлись межнациональные конфликты в Нагорном Карабахе, экономический кризис в Азербайджане, сопровождавшийся массовой безработицей и падением уровня жизни населения. В связи с этим в числе мигрантов преобладали беженцы из Армении и приграничных с ней азербайджанских районов, безработные, оставшиеся без средств к существованию. В начале 90-х годов после известных «чисток» 20% жителей - азербайджанских беженцев и вынужденных переселенцев (приблизительно 20 тысяч человек) – также перебрались в Казахстан. Во время трагических событий в Фергане в 1989 году в отношении турков-месхетинцев под жернова попали также и азербайджанцы, которые были вынуждены бежать, кто к себе на историческую родину, кто в Россию, кто в

Казахстан.

Сегодня азербайджанцы являются неотъемлемой частью многонациональной и многоконфессионной общности народов и этносов, проживающих в Казахстане. Многие из них хорошо владеют казахским языком, и охотно пользуется им при случае. Во всех областях и крупных городах республики функционируют азербайджанские культурные объединения. Активное участие азербайджанцев в общественной и политической жизни Казахстана говорит о высоком уровне их интеграции в казахстанское общество.

***Ключевые слова:*** *Азербайджанская диаспора, массовые политические репрессии, насильственное переселение, Всесоюзная перепись 1939 года, жертвы политических репрессий 30-х годов XX века, репатрианты, освоение целины, Ассамблея народа Казахстана, азербайджанский этнокультурный центр*

## ГОСУДАРСТВЕННОЕ СТРОИТЕЛЬСТВО В ПЕРИОД ПРАВИТЕЛЬСТВ ФАТАЛИ ХАНА ХОЙСКОГО

**Афет Керимова**
**Бакинский Государственный Университет, Исторический факультет, магистрант**
***af.kerr@yandex.ru***
**Научный руководитель: доц. Саида Али гызы**

28 мая 1918 года было объявлено о провозглашении независимой Азербайджанской Демократической Республики. Главой нового государства единогласно был избран Фатали хан Хойский - видный общественный и политический деятель, выражавший интересы широких слоев населения. В первом кабинете наряду с постом премьер-министра он занял должность министра внутренних дел.

После завершения первых организационных мероприятий по созданию нового государства, Временный Национальный совет и правительство Азербайджана 16 июня 1918 г. переехали из Тифлиса в Гянджу. Ф.Хойскому было поручено формирование нового правительства. Непредвзятые исследователи признают, что Первая Республика в Азербайджане была жизнеспособной. За короткое время в демократическом Азербайджане успели сложиться основные государственные структуры и финансовая система, осуществлен принцип разделения властей, создана армия. 7 декабря 1918 года начал работать парламент, ни в чем не уступавший демократическим принципам европейского парламентаризма. Абсолютным новшеством в исламском мире стали полное уравнение женщин в правах с мужчинами, юридическое равенство всех национальностей. По инициативе Фатали хана Хойского, впоследствии был учрежден Бакинский университет. В дальнейшем этот Университет продолжил свою деятельность и сыграл важнейшую роль в сохранении и продолжении идей Республики и в восстановлении независимости в 1991 году. Азербайджанская Демократическая Республика за короткий срок превратилась в независимое, суверенное государство со всеми атрибутами государственности- парламентом, правительством, армией и денежной единицей.

***Ключевые слова:*** *Фатали хан Хойский, премьер-министр, атрибуты государственности, принцип разделения властей*

# ИСТОРИЧЕСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ КАРАБАХСКОГО КОНФЛИКТА

**Дархан Джумагалиев**
**Казахстан Институт истории государства, магистр гуманитарных наук**
**aqyrap@gmail.com**

В статье рассматриваютя некоторые аспекты реализации «исторической политики» в Азербайджане проводимая для формирования идеологических основ государства и противодействия армянской пропаганде.

В Азербайджане путь к независимости сопровождался обострением отношений с соседней Арменией. Перед страной стояли такие важные задачи, как признание и упрочение государственной независимости, урегулирование карабахского конфликта. Предъявление Арменией территориальных претензий к Азербайджану с конца 80-х годов XX века, обратило внимание азербайджанских историков и на эту область.

С восстановлением независимости в Азербайджане начался новый этап в развитии исторической науки. Историки освободившись от советской идеологии получили свободу деятельности. Перед историками Азербайджана стала сложная задача формирования у народа верных исторических знаний и борьба с фальсификацией исторических источников со стороны армянских историков. Политика памяти является приоритетной для Азербайджана, который делает первые шаги по созданию национальной идентичности и находится в состоянии конфликта с соседней Арменией.

В последние годы память об исторических событиях и явлениях прошлого в Азербайджане стала мощным источ-

ником для общественных настроений, выражения национального самосознания народа. Исходя из вышесказанного, мы видим, что в Азербайджане создаются центры мест памяти, которые взяли на себя функции проведения исследований коллективной исторической памяти, которые в свою очередь являются важным инструментом по продвижению национальной политики в международной арене.

***Ключевые слова:*** *историческая политика, историческая память, Назарбаев, Азербайджан, Армения, карабахский конфликт*

## К ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В КИЕВЕ В НАЧАЛЕ XX ВЕКА

**Наталья Зуб (Руденко), Оксана Василюк**
**Украина Институт Востоковедения, к.и.н.**
**rudenkonatalie@yahoo.com**

На этнической карте Киева присутствуют представители многих национальностей, в том числе и азербайджанцы. В далекий город на берегах Днепра они приезжали работать и учиться, искать новую жизнь. И сейчас история азербайджанской диаспоры в городском социуме Киева небезынтересна для нас.

События 1917 г. изменили устои рухнувшей империи. Осенью того же года Киев стал столицей Украинской Народной Республики, а в январе 1918 г. Украина была провозглашена независимым государством. 28 мая 1918 г. образована Азербайджанская Демократическая Республика. Не имея дипломатического представительства в Украине, азербайджанцы Киева основали Комиссариат Азербайджана. Деятельность этого органа была продиктована

необходимостью охраны прав и свобод своих сограждан, их сплочения и общности.

Последующая в дальнейшем смена политического режима – установление советской власти, внесла новые коррективы в жизнь народов. Документы показывают, что в период 1920–1923 гг. консолидация азербайджанцев в Киеве происходила под крылом персидского консула. Эту должность занимал азербайджанец Мир-Гасан Мир-Тагиев.

С середины 20-х гг. в Доме Народов Востока существовала "турко-персидская" секция. Возглавлял это подразделение Мир-Джалал Мир-Тагиев.

Обращаясь к архивным источникам, мы рассматриваем факты из истории быта и деятельности азербайджанской диаспоры в Киеве в переломные годы. Источники того времени не всегда точны в статистике, однако они красноречиво свидетельствуют о деятельности представителей азербайджанского народа, об их сплоченности и устремлениях.

***Ключевые слова:*** *Киев, азербайджанцы, Украина*

## РЕДАКТОРЫ И ВЕДУЩИЕ АВТОРЫ РУССКОЯЗЫЧНОЙ ПЕРИОДИКИ АДР

**Нигяр Агаева**
**Бакинский Государственный Университет, факультет Журналистики, научный сотрудник НИЛ**
**aghayevanigar86@gmail.com**
**Научный руководитель: проф. Шамил Велиев**

В начале XX столетия в Азербайджане в формировании общественного сознания, развитии самосознания и самоопределения роль газеты была очень велика. Так как большинство публикуемых авторов были видными полити-

ческими деятелями того времени, в результате их напряженной деятельности, их светлых мыслей, исторических заслуг Азербайджан смог создать в 1918-1920 годах независимое и суверенное государство. В свое время М. Ахундов писал: "Врожденные таланты моего народа не меньше, чем у всех народов Европы". В этот период, отразившиеся в политической мысли Азербайджана события – недовольства против имперской политики, национальное самосознание, новая борьба за национальное освобождение смогли превратиться в основной круг освещаемых тем журналистики и публицистики. Все это находило свое широкое отражение в статьях постоянных авторов – М.Расулзаде, Х.Ибрагим, У.Гаджибеков, Дж.Гаджибейли, Ш.Рустамбекова, А.Гусейнзаде, А.Агаоглы, М.Шахтахтинский, Г.Везиров, Ф.Кочарли, С.М.Ганизаде, М.Сидги, М.Махмудбеков, и многие другие. Эти владельцы пера неустанно трудились над устранением этих проблем, создавая неповторимые образцы публицистики. По мнению ученого Дж. Гасанлы деятели АДР достойно выполнили миссию, возложенную на них историей. "Не нужно забывать о том, что именно благодаря им, слово "Азербайджан", которое до 1918 года имело лингвистическое и географическое значение, приобрело политическую значимость. Благодаря их стараниям на карте мира появилось азербайджанское государство".

***Ключевые слова:*** *русскоязычная печать, периодика, редактор, журналист, политическая мысль, публицистика*

# ПРОБЛЕМА ОСВЕЩЕНИЯ КУЛЬТУРНОЙ ЖИЗНИ СЕФЕВИДСКОГО ГОСУДАРСТВА В АНГЛИЙСКИХ ИСТОЧНИКАХ XVI ВЕКА

**Ровшан Муганлинский**
**Бакинский Государственный Университет, Исторический факультет, доцент**
**rovshanm2@rambler.ru**

Одним из наиболее ярких собраний первоисточников, позволяющих найти значительный документальный материал, отражающий многие аспекты истории Прикаспийского региона в XVI веке, является сборник различных сведений о странствиях и открытиях англичан церковнослужителя Ричарда Хаклюйта (1553–1616) «Главные мореплавания, путешествия, торговля и открытия английского народа, совершённые на море, или на земле в самых отдалённых и великих расстояниях и частях земли в разное время в продолжение 600 лет, разделённые на три различные тома, смотря по положению стран, в которые они были направлены», впервые изданный в полном объёме в конце XVI в. и неоднократно переиздававшийся.

Кроме сведений, относящихся к истории экономических отношений, в английских источниках по истории шести экспедиций Московской компании в государство Сефевидов в период с начала 60-ых по конец 70-ых гг. XVI века, можно найти материал, касающийся и культуры стран, по которым перемещались английские путешественники. Ведь для достижения своей конечной цели – выхода на индийский рынок Московская компания использовала Волжско-Каспийский путь, издавна связывавший Восточную Европу с Азией, а также территорию Сефевидского государства, в первую очередь Азербайджана.

В работах английских авторов есть много существенной информации и по истории азербайджанских городов. Рассказывая о них, англичане приводили полулегендарные сведения, выдавая их за реальные исторические события, но благодаря этому, мы получили неоценимые свидетельства из истории духовной жизни азербайджанского народа.

***Ключевые слова:*** *Сборник Р. Хаклюйта, Московская компания, XVI век, Азербайджан, культура*